Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

ISSN 2790-2188

İQTİSADİ İSLAHATLAR

№ 1 (6)-2023

www.journal.ereforms.org

Bakı-2023

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

ISSN 2790-2188 (print)
2790-2196 (online)

“İQTİSADİ İSLAHATLAR”
ELMİ-ANALİTİK JURNAL

SCIENTIFIC-ANALYTICAL JOURNAL
"ECONOMIC REFORMS"

НАУЧНО-АНАЛИТИЧЕСКИЙ ЖУРНАЛ
«ЭКОНОМИЧЕСКИЕ РЕФОРМЫ»

Jurnal 2021-ci ilin noyabr ayından çıxır.

№1 (6)-2023

Təsisçi

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

Baş redaktor: Ramil HÜSEYN
Məsul redaktor: Mətanət RƏSULOVA
Dizayner: Elvira ZEYNALOVA
Rəhman BƏDƏLOV

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İqtisadi İslahatlar" jurnalı 21 oktyabr 2021-ci il tarixində N4362 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

“İqtisadi islahatlar” elmi-analitik jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısına (iqtisad elmləri üzrə) daxil edilmişdir.

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.

Dərc olunmuş materiallardakı faktlara və rəqəmlərə görə müəllif məsuliyyət daşıyır.

ISSN 2790-2188 (print), 2790-2196 (online)

“İqtisadi islahatlar” elmi-analitik jurnal

REDAKSİYA HEYƏTİ

İ.e.d., professor QASIMLI V. Ə.
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru,
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının professoru,
Bakı, Azərbaycan

Akademik ƏLƏKBƏROV U. K.
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik
Akademiyasının rektoru,
Bakı, Azərbaycan

T.e.d., professor BABANLI M. B.
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru,
Bakı, Azərbaycan

İ.e.d., professor İBRAHİMOV E. R.
Milli Məclisin deputatı,
Bakı, Azərbaycan

İ.e.d., professor, əməkdar elm xadimi ATAŞOV B. X.
Azərbaycan Kooperasiya Universiteti,
Bakı, Azərbaycan

İ.e.d., professor XƏLİLOV H. A.
Aqrar Tədqiqatlar Mərkəzi,
Bakı, Azərbaycan

İ.e.d., professor MƏMMƏDOV M.A.
Azərbaycan Memarlıq və İnşaat Universiteti,
Bakı, Azərbaycan

İ.e.d., professor ƏLİYEV Ü. Q.
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
Bakı, Azərbaycan

İ.e.d., professor BALAYEV R. Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
Bakı, Azərbaycan

İ.ü.f.d. HÜSEYNOV R. F.
Almaniyanın Bonn Universitetinin doktoru,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi,
Bakı, Azərbaycan

Mündəricat

- Ön söz ... 5
- A. Əsədov
  "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və nəqliyyat sisteminin inkişaf perspektivləri ... 7
- M. Məmmədov, M. Qasımlı
  Neft-qaz sənayesinin dayanıqlı inkişafında ekoloji problemlər ... 15
- B. Əhmədov
  Azərbaycanda investisiya fəallığının artırılmasının bəzi aspektləri ... 22
- V. Abbasov, S. Mircəfərov
  Gəlirlər və sosial siyasətin tənzimlənməsinin elmi-praktiki məsələləri ... 35
- V. Cəfərova
  Xarici ticarətin iqtisadi artıma təsiri ... 43
- R. Seyfullalı
  Azərbaycanda büdcə xərclərinin emal sektorunun inkişafına təsiri ... 55
- V. Mehdiyev
  Milli iqtisadiyyatın inkişafının müasir xüsusiyyətləri ... 70
- N. Mirzəyev
  Kənd ərazilərinin inkişafında aqrar sahibkarlığın sosial məsuliyyətinin bəzi aspektləri ... 78
- S. Cumazadə
  Ailə gəlirlərinin nəsilvermə əmsalına təsiri ... 86
- B. Hüseynli
  Azərbaycanda turizmin iqtisadi inkişafa təsirinin araşdırılması ... 97
- S.A. Gebreyesus
  Dövlət xərcləri və iqtisadi artım arasındakı əlaqə: Dörd Şərqi Afrika ölkəsinin timsalında ... 107
- N. İsmayılova
  Publik hüquqi şəxslərin iqtisadi mahiyyəti, mühasibat uçotu və maliyyə hesabatlarının təşkili ... 117

“İQTİSADİ İSLAHATLAR”
elmi-analitik jurnal

ÖN SÖZ

№ 1 (6)-2023

Baş redaktordan

Hörmətli oxucular!

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təsisçisi olduğu "İqtisadi islahatlar" elmi-analitik jurnalının 2023-cü il üçün ilk sayını sizlərə təqdim edirik. Bildirmək istəyirik ki, jurnalımızı davamlı olaraq təkmilləşdirmək əsas hədəfimizdir və bu baxımdan fəaliyyətimizi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən yeni redaksiyada təsdiq edilən "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər"ə uyğunlaşdırırıq. Həmçinin Komissiyanın Rəyasət Heyətinin 2023-cü il 10 fevral tarixli qərarı ilə elmi dərəcə və elmi ad verilməsi üçün elmi məqalələrin Azərbaycan Respublikasında dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında Rəqəmsal Obyekt İdentifikatorunun (DOI - Digital Object Identifier) alınması tələbinin qoyulmasını da alqışlayırıq. "İqtisadi islahatlar" elmi-analitik jurnalı da növbəti saylarından etibarən məqalələr üçün DOI alınmasını təmin edəcəkdir. Eyni zamanda Ali Attestasiya Komissiyasının ölkəmizdə fəaliyyət göstərən elmi jurnalların inkişafı və beynəlxalq səviyyədə qəbul olunan juranallara rəqabət apara bilmələri istiqamətində başladığı səmərəli fəaliyyətini dərinləşdirməsini arzulayırıq. Bununla bağlı "İqtisadi islahatlar" elmi-analitik jurnalının təklifləri də rəsmi qaydada Komissiyanın rəhbərliyinə təqdim olunmuşdur. Düşünürük ki, qarşıdakı müddətdə Türk Dövlətlər Təşkilatına üzv olan ölkələrin də bu sahədə əməkdaşlığı genişlənəcəkdir.

Jurnalımızın 2023-ci ildəki birinci sayında Azərbaycan dilində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və nəqliyyat sisteminin inkişaf perspektivləri", "Neft-qaz sənayesinin dayanıqlı inkişafında ekoloji problemlər", "Azərbaycanda investisiya fəallığının artırılmasının bəzi aspektləri", "Gəlirlər və sosial siyasətin tənzimlənməsinin elmi-praktiki məsələləri", "Xarici ticarətin iqtisadi artıma təsiri", "Azərbaycanda büdcə xərclərinin emal sektorunun inkişafına təsiri", "Milli iqtisadiyyatın inkişafının müasir xüsusiyyətləri", "Kənd ərazilərinin inkişafında aqrar sahibkarlığın sosial məsuliyyətinin bəzi aspektləri", "Ailə gəlirlərinin nəsilvermə əmsalına təsiri", ingilis dilində "Studying the impact of tourism on economic growth in Azerbaijan", "The relationship between government expenditure and economic growth: evidenced from four Eastern African Countries", "Economic nature of public legal entities, organization of accounting and financial statements" kimi aktual mövzuları əhatə edən elmi-analitik məqalələrə yer verilib.

Hörmətli tədqiqatçılar!

Nəzərinizə çatdırırıq ki, elmi-analitik məqalələrinizi onlayn qaydada "İqtisadi islahatlar" jurnalına təqdim edə bilərsiniz. (https://journal.ereforms.org/az/submit-article). Həmçinin jurnalımızın səhifəsinin "Bizimlə əlaqə" bölməsindən rəy və təkliflərinizi də göndərə bilərsiniz. Əminik ki, "İqtisadi islahatlar" jurnalı sizlər üçün faydalı olacaq və jurnalımızla əməkdaşlığınızı dərinləşdirəcəksiniz.

Ramil HÜSEYN
"İqtisadi islahatlar" elmi-analitik jurnalının baş redaktoru

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

"AZƏRBAYCAN 2030: SOSİAL-İQTİSADİ İNKİŞAFA DAİR MİLLİ PRİORİTETLƏR" VƏ NƏQLİYYAT SİSTEMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

№ 1(6)-2023, səh. 7-14

Aqil Əsədov,
Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri,
iqtisad elmləri doktoru, dosent

agil.asadov@ereforms.gov.az

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” və nəqliyyat sisteminin inkişaf perspektivləri

Aqil ƏSƏDOV,
İqtisad elmləri doktoru, dosent
Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili
və Kommunikasiya Mərkəzinin şöbə müdiri

XÜLASƏ

Məqalədə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təhlil olunub. Bu sənəddən irəli gələn və nəqliyyat sisteminin qarşısında dayanan vəzifələr aydınlaşdırılıb. Müəllif nəqliyyat və ətraf mühit məsələlərini araşdırıb. Məqalədə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, davamlı inkişaf konsepsiyası və mövcud vəziyyətin təhlilinə əsasən nəqliyyat sisteminin inkişaf perspektivləri təklif edilib. Müəllifin fikrincə, infrastruktur təminatın təkmilləş-dirilməsi, beynəlxalq nəqliyyat dəhlizləri boyunca regional nəqliyyat qovşaqlarının fəaliyyətinin təmin olunması, daşıyıcı və sifarişçilərin birgə virtual məkanının formalaşdırılması, tranzit xidmətlərin yaxşılaşdırılması məqsədilə yükləmə-boşaltma əməliyyatlarının mexanikləşdirilməsi, anbar təsərrüfatı-nın inkişafı ölkəmizdə nəqliyyat sisteminin inkişaf perspektivləri kimi nəzərdən keçirilə bilər. Məqalənin sonunda Zəngəzur dəhlizinin perspektivlərinə baxılır, 44 günlük Vətən müharibəsində əldə edilən zəfərin Azərbaycanın nəqliyyat imkanlarını daha da artırdığı bildirilir.

Açar sözlər: *Davamlı inkişaf, nəqliyyat, tranzit, ətraf mühit, TRASECA, Zəngəzur dəhlizi.*
JEL kodu: *R40; R49*

GİRİŞ

Ölkəmizdə özəl sektorun inkişafına əsaslanan azad bazar iqtisadiyyatına və siyasi reallıqlara söykənən, özünəməxsus qanunauyğunluqlarla səciyyələnən yeni bir mühit yaranmışdır. Artıq milli iqtisadiyyat davamlı inkişaf mərhələsinə keçmiş və iqtisadiyyatın ayrı-ayrı sahələrinin uzunmüddətli rentabelli fəaliyyətini təmin etmək üçün lazımi infrastruktur təminatı formalaşdırılmışdır. Bununla belə, davamlı olaraq təkmilləşdirici tədbirlərin həyata keçirilməsi də zəruridir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in hazırlanması zərurəti də məhz ölkəmizdə dinamik inkişafın təmin olunması, yeni mərhələyə keçid və uzunmüddətli davamlı inkişafa nail olunması ilə bağlıdır. Yeni mərhələ həm iqtisadi göstəricilərlə, həm də 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfərlə şərtlənir. Uzun illər işğal altında qalan torpaqlarımızın azad edilməsi iqtisadi tərəqqi, xüsusilə qeyri-neft sektorunun inkişafı üçün geniş imkanlar yaradır.

“AZƏRBAYCAN 2030: SOSİAL-İQTİSADİ İNKİŞAFA DAİR MİLLİ PRİORİTETLƏR” VƏ NƏQLİYYAT SİSTEMİNİN QARŞISINDA DAYANAN VƏZİFƏLƏR

Yaşıl iqtisadiyyatın, təmiz ətraf mühitin, davamlı inkişaf və yüksək rifahın formalaşdırılması kimi hədəfləri özündə cəmləşdirən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” nəqliyyat sisteminin də qarşısında mühüm vəzifələr qoyur. İqtisadi inkişaf istiqamətində əldə edilmiş davamlı uğurlar əsas verir ki, Azərbaycan dövləti daha yüksək hədəflərə istiqamətlənmiş məqsədlər müəyyən etsin, bu hədəflərə aparan strateji xətti və qarşıda dayanan vəzifələri əvvəlcədən müəyyənləşdirsin və milli təsərrüfatın müxtəlif infrastrukturlarının sistemli fəaliyyətini təmin etsin. Belə infrastruktur sahələrdən biri də milli iqtisadiyyatın inkişafında, cəmiyyətin normal yaşayış və fəaliyyətinin təmin olunmasında aparıcı rol oynayan nəqliyyat sistemidir. Başqa sözlə desək, sosial-iqtisadi inkişaf prioritetlərinin reallaşması bütün sahələrdə yeniliklərin tətbiqini zəruri edir ki, bu da nəqliyyat sistemində də müvafiq addımların atılmasını tələb edir. Hansı ki, bu addımların başlıca məqsədi məhz sosial-

iqtisadi inkişafın prioritetlərində tövsiyə edilən yeni iqtisadi şəraitdə daşınmaların səmərəli təşkilini təmin etməkdir.

Aydındır ki, XXI əsrdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı nəticəsində baş verən yeni proseslər ayrı-ayrı milli təsərrüfatların sosial-iqtisadi həyatına da nəzərə çarpacaq şəkildə təsir göstərir. Təbii ki, bütün bunlar qlobal mühitə, beynəlxalq aləmə sürətlə inteqrasiya olunan müstəqil Azərbaycan Respublikasına da aiddir. Qloballaşma və inteqrasiya amilləri milli təsərrüfatların və cəmiyyət həyatının bütün sahələrində cərəyan edən sosial-iqtisadi və siyasi-mədəni proseslərə ciddi təsir edir. Nəticədə milli və regional xüsusiyyətlər ilə qloballaşma və inteqrasiya prosesləri arasında kəskin mübarizə müşahidə olunur. Təbii ki, digər ölkələr kimi, Azərbaycan Respublikasının da öz mənşəyinə, tarixinə, əhatə dairəsinə, yerləşdiyi regiona və s. görə milli, ölkədaxili və regional özəllikləri mövcuddur ki, bu da təsərrüfat və cəmiyyət həyatının ayrı-ayrı sahələrinin idarə olunmasında onların nəzərə alınması, kompleks səmərəli addımların atılması baxımından çox vacibdir. Bu mənada "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsaslanaraq müasir dövrü nəqliyyat sisteminin qarşısında dayanan vəzifələr baxımından aşağıdakı kimi xarakterizə edə bilərik [1; 8; 11]:

- Qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi milli dövlətlərə və təsərrüfatlara təsirlərin, innovativ yeniliklərin sürətli tətbiqinin intensiv şəkildə güclənməsi ilə müşahidə edilir. Yaxın gələcəkdə ölkələrarası ticarətin daha da yüksək templə artacağı və daha geniş coğrafiyanı əhatə edəcəyi, qloballaşmanın təsiri ilə regionlar arasında inteqrasiya proseslərinin də güclənəcəyi qaçılmaz bir prosesə çevriləcək, dünyanın vahid iqtisadi orqanizm kimi formalaşması daha da möhkəmlənəcəkdir. Bütün bunlar isə məhz operativ, çevik, yüksək manevretmə qabiliyyətinə malik yeni nəqliyyat sisteminin formalaşdırılmasını zəruri edir.
- Dünyanın vahid iqtisadi orqanizmə çevrilməsi, ticari proseslərin intensivləşməsi rəqabət mübarizəsini daha da kəskinləşdirəcək, dünya bazarında milli təsərrüfatların mütləq və müqayisəli üstünlüklərindən qaynaqlanan ixtisaslaşma meyilləri güclənəcək, istehsalın texniki-texnoloji təkmilləşməsini, innovasiyaların tətbiqini stimullaşdıran və bununla da qlobal və regional səviyyədə əlavə dəyər artımını təşviq edən rəqabət mühiti formalaşacaqdır. Aydındır ki, rəqabətqabiliyyətlilik iki mərhələdə - istehsal və satış mərhələsində təmin edilir və bu, ümumilikdə istehsalın rəqabət səviyyəsini xarakterizə edir. Nəzərə alsaq ki, satış mərhələsi birbaşa nəqliyyat xidmətləri və daşıma prosesləri ilə əlaqədardır, onda yeni – qeyd edilən tələblərə cavab verən nəqliyyat xidmətlərinin təşkili zəruriliyi aydın olar;
- Davamlı inkişaf mərhələsi kimi xarakterizə olunan müasir dövrdə dünyanın, eləcə də ayrı-ayrı milli dövlətlərin üzləşdiyi, qlobal və milli təsərrüfatlara güclü təsir edən problemlərdən biri də sürətlənən sənayeləşmə prosesləri nəticəsində ekoloji tarazlığın pozulmasıdır. Təbii ki, Azərbaycan Respublikası üçün də ekoloji problemlər ciddi xarakter daşıyır. Bu səbəbdən müvafiq siyasət tədbirlərinin işlənib hazırlanması, ətraf mühitə zərərli təsirlərin minimumlaşdırılması zəruridir. Bu siyasətin isə mühüm tərkib hissələrindən biri də məhz ekoloji təmiz nəqliyyat sisteminin formalaşdırılmasıdır. Başqa sözlə desək, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın Milli Prioritetləri" yeni "Yaşıl nəqliyyat sistemi"nin formalaşdırılmasını bir zərurətə çevirmişdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in "Təmiz ətraf mühit və yaşıl "artım" ölkəsi" adlı 5-ci bölməsi də qeyd olunanları bir daha təsdiq edir. Artıq nəqliyyat vasitələrinin sayının çoxalması, ətraf mühitin çirkləndirilməsinin həyat üçün təhlükəli həddə çatması "Yaşıl nəqliyyat sistemi"nin yaradılmasını zəruri edir [1; 5; 8; 9].

NƏQLİYYAT VƏ ƏTRAF MÜHİT: MÖVCUD VƏZİYYƏT

Qeyd edilənlərin təsdiqi kimi statistik araşdırmalar göstərir ki, 2022-ci ildə Azərbaycanda stasionar mənbələrdən və avtomobillərdən atmosfer havasına atılmış çirkli maddələrin həcmi 2021-ci illə müqayisədə 50,4 min ton çoxalaraq ümumilikdə 930,6 min ton təşkil edib. Ümumi tullantıların 83,0 faizi və ya 772,2 min tonu avtomobillərdən atılan tullantıların payına düşüb. Avtomobillərdən atılmış zərərli maddələrin həcmi 6,7 faiz, stasionar mənbələrdən atılmış maddələrin həcmi isə 1,1 faiz artıb. Bütün mənbələrdən atmosferə atılmış zərərli tullantıların

59,5 faizini karbon oksidi, 25,0 faizini karbohidrogenlər, 12,0 faizini azot oksidi, 0,1 faizini kükürd anhidridi, qalan hissəsini isə digər çirkli maddələr təşkil edib.

Avtomobillərin sayı ilə bağlı Dövlət Statistika Komitəsinin məlumatlarına görə, son bir ildə Azərbaycanda avtomobillərin sayı 78,5 min ədəd artaraq, 2023-cü ilin əvvəlinə 1645,3 min ədəd təşkil etmişdir. Bütün avtomobillərin 86,3 faizi və ya 1419,9 min ədədi minik avtomobilləridir. Onların da 240,2 min ədədinin buraxılış ili 10 ilədək, 1179,7 min ədədinin buraxılış ili 10 ildən çoxdur. Minik avtomobillərindən 30163 ədədi və ya 2,1%-i hibrid mühərrikli, 570 ədəd və ya 0,04%-i isə elektrik mühərrikli avtomobillərdir. Beləliklə, avtomobillərin elektrik mühərrik sisteminə keçməsi həm yanacaqdan istifadənin minimuma endirilməsinə, həm də atmosferin çirklənməsinin müəyyən qədər qarşısının alınmasına müsbət təsir göstərə bilər [14; 15].

"AZƏRBAYCAN 2030: SOSİAL-İQTİSADİ İNKİŞAFA DAİR MİLLİ PRİORİTETLƏR" VƏ NƏQLİYYAT SİSTEMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən də göründüyü kimi, istər daxili, istərsə də beynəlxalq daşımalara dair tələblərin yerinə yetirilməsi üçün çevik, rəqabətqabiliyyətli və ekoloji tələblərə uyğun milli nəqliyyat sisteminin formalaşdırılması zəruri bir məsələ kimi qarşıda dayanır. Milli Prioritetlərdən də göründüyü kimi, iri həcmli yüklərin intensiv şəkildə uzaq məsafələrə daşınması da nəqliyyat sisteminin qarşısında dayanan başlıca məqsəddir. Bütün bunlarla yanaşı, ölkəmizdə həyata keçirilən islahatlara, qəbul edilən proqram və layihələrə, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri"ə əsaslanaraq yaxın gələcəkdə nəqliyyat sektorunun inkişaf prioritetlerini aşağıdakı kimi qəbul etmək olar [1; 2; 3; 4; 8;12]:

- milli təsərrrüfatın mühüm infrastruktur sahəsi olan yol-nəqliyyat sisteminin tərəqqisi;
- yol-nəqliyyat sisteminin kompleks inkişafı;
- nəqliyyat xidmətlərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi;
- ətraf mühit üçün minimum zərərli yanacaqdan istifadə və xidmətlərin ekoloj səmərəliliyi tələblərinin sərtləşdirilməsi;
- təsərrüfatlararası əmtəə mübadiləsini təmin edən yükdaşımalarının və cəmiyyətin sosial tələbatı olan sərnişin daşımalarının tarazlı inkişafı;
- nəqliyyat-tranzit potensialından səmərəli istifadə, beynəlxalq nəqliyyat dəhlizlərin yük cəlbediciliyinin artırılması məqsədilə ölkə ərazisində nəqliyyat infrastrukturlarının texniki-texnoloji və regional baxımdan tarazlı inkişafı;
- İntellektual idarəetmənin formalaşdırılması ilə regional nəqliyyat qovşaqları arasında əlaqələrin gücləndirilməsi və qovşaqların fəaliyyətinin aktivləşdirilməsi;
- Azərbaycan ərazisindən keçən nəqliyyat-tranzit xətlərinin və beynəlxalq daşımaları həyata keçirən nəqliyyat vasitələrinin müasir tələblərə uyğun təkmilləşdirilməsi əsasında milli yol-nəqliyyat sisteminin qlobal kommunikasiya məkanına sürətli inteqrasiyası;
- Karbohidrogen ehtiyatlarının beynəlxalq bazara çıxarılmasında, enerji daşıyıcılarının tranzitində ölkəmizin mövqeyinin gücləndirilməsi. Bu məqsədlə yeni texnika və texnologiyanın tətbiqini gücləndirməklə yükləmə-boşaltma işlərinin mexanikləşdirilməsi, anbar infrastrukturunun inkişaf etdirilməsi zəruridir;
- Azərbaycanın yol-nəqliyyat kompleksinin qlobal nəqliyyat sisteminə inteqrasiyasının gücləndirilməsi məqsədilə TRASECA, Şimal-Cənub, İNOGEYT Proqramlarının tələblərindən irəli gələn infrastruktur layihələrinin həyata keçirilməsinin sürətləndirilməsi;

Qeyd olunanlardan da göründüyü kimi, bütün bunlara daşıma əməliyyatlarını operativ və səmərəli yerinə yetirən, ekoloji cəhətdən müasir tələblərə uyğun nəqliyyat xidmətləri formalaşdırmadan nail olmaq qeyri-mümkündür. Bu mənada, yeni nəqliyyat sisteminin formalaşması, həm də milli iqtisadiy-yatın, milli sənayenin modernləşdirilməsindən irəli gələn bir zərurətdir. Nəzərə alsaq ki, milli iqtisadiy-yatın modernləşdirilməsi qarşıya qoyulan, eləcə də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən irəli gələn bir vəzifədir, onda müasir

nəqliyyat xidmətlərinin formalaşdırılmasını da bu konsepsiyanın tərkib hissəsi kimi qəbul edə bilərik. Təbii ki, çevik və səmərəli nəqliyyat sistemi rəqabətqabiliyyətli milli iqtisadiyyatın mühüm tərkib hissəsidir və rəqabətqabiliyyətliliyin zəruri şərtlərindən biridir. Bu mənada, konsepsiyada qarşıya qoyulmuş məqsəd və vəzifələr, həm də nəqliyyat sisteminin vəzifələri kimi qəbul edilməlidir. Belə ki, nəqliyyat sisteminin inkişaf etdirilməsi məqsədlərini aşağıdakı kimi ümumiləşdirə bilərik. Bu da sistemin sosial-iqtisadi mahiyyətini aydınlaşdırmağa imkan verir [5; 6; 8; 10]:

- Yük və sərnişin daşıma sifarişlərinin daşıyıcının və sifarişçinin tələbatına uyğun şəkildə yerinə yetirilməsi, istənilən konkret iqtisadi məkanın inkişafı üçün əmtəə dövriyyəsinin sürətləndirilməsi, istehlak məhsulları üzərində nəqliyyat xərclərinin azaldılması, əmtəə dövriyyəsi sistemində inzibati əngəllərin aradan qaldırılması, ayrı-ayrı regional nəqliyyat qovşaqlarının inkişafında tarazlılığın təmin olunması, eləcə də ölkədə vahid nəqliyyat şəbəkəsinin yaradılması, fasiləsiz, keyfiyyətli və təhlükəsiz nəqliyyat xidmətlərinin göstərilməsi mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar da inkişaf etmiş nəqliyyat xidmətlərinin formalaşdırılmasını zəruriləşdirir;
- Ayrı-ayrı regionlar arasında nəqliyyat xidmətləri səviyyəsində diskriminasiyanın aradan qaldırılması məqsədilə sənayenin və bütün əhali təbəqəsinin, o cümlədən ucqar ərazilərdə yaşayan insanların keyfiyyətli nəqliyyat xidmətləri ilə təmin olunması, xidmətlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, nəqliyyat proseslərinin ekoloji mühitə və canlı aləmə mənfi təsirlərinin azaldılması, sahə üzrə ixtisaslı kadr potensialının gücləndirilməsi yaxın hədəflər kimi dəyərləndirilməlidir;
- Statistik rəqəmlərdən aydındır ki, Azərbaycan Respublikasında son 15 ildə nəqliyyat vasitələrinin sayı 2 dəfədən də çox artmışdır. Bu baxımdan da cəmiyyətdə sürətlə baş verən avtomobilləşmənin yaratdığı əlverişli şəraitdən maksimum faydalanmaqla yanaşı, onun cəmiyyət üçün mənfi nəticələrini, xüsusilə mənfi ekoloji və digər təhlükləsizlik təsirlərini aradan qaldırmağa istiqamətləndirilmiş sistemli tədbirlərin həyata keçirilməsi qarşıda dayanan başlıca məqsədlərdən biridir;
- Azərbaycan Respublikasının qlobal iqtisadi məkana sürətli və məqsədyönümlü inteqrasiyası, xarici ticarətin genişləndirilməsi və s. ölkəmizin yol-nəqliyyat kompleksinin, nəqliyyat-tranzit xidmətləri infrastrukturunun da davamlı olaraq təkmilləşdirilməsini tələb edir. Bu da nəqliyyat sektoru ilə yanaşı, ümumilikdə ölkənin iqtisadi maraqlarından irəli gələn bir məsələdir;
- Aydındır ki, ölkəmizin ərazisi beynəlxalq nəqliyyat dəhlizləri ilə əhatə edilmişdir. Bu da ölkəmizdə zəngin tranzit potensialının formalaşmasına şərait yaratmışdır. Ona görə də nəqliyyat sisteminin qarşısında duran mühüm məsələlərdən biri də tranzit potensialının verdiyi bütün imkanlardan maksimum səmərəliliklə istifadəyə nail olmaqdır;
- Milli nəqliyyat sistemi üçün mühüm problemlərdən biri də, ölkə yükdaşıyıcılarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və nəqliyyat xidmətləri ixracının artırılmasıdır. Bu da nəqliyyat sisteminin başlıca məqsədi kimi qəbul edilməlidir;
- Azərbaycanın yeraltı və yerüstü sərvətlərlə zəngin əlverişli coğrafi-strateji mövqedə yerləşməsi, ölkənin qlobal məkana sürətli inteqrasiyası və s. səbəblərdən xarici amillərin milli təsərrüfatlara təsiri kəskin şəkildə artmışdır. Bu da etibarlı milli təhlükəsizlik sisteminin formalaşdırılmasını tələb edir. Eyni zamanda bu sistemin vacib bir elementi kimi nəqliyyat sektorunun qarşısında da bir sıra yeni tələblər yaranır;
- Dünyada tələbatların dolğun ödənilməsinə əsaslanan davamlı inkişafın aktuallaşması ölkəmizdə də təbii-iqtisadi resurslardan qənaətlə istifadə, ətraf mühitin mühafizəsi və yaşayış səviyyəsinin yaxşılaş-dırılması məqsədilə yol-nəqliyyat kompleksinin fəaliyyətinin və ümumilikdə nəqliyyat siyasətinin davamlı inkişaf konsepsiyasının və bazar iqtisadiyyatının çağırışlarına uyğun qurulmasını tələb edir;
- Təbii ki, yuxarıda qeyd edilənlər, cəmiyyətin tələbat və zövqündə baş verən sürətli dəyişikliklər daşıma proseslərindən də yan keçmir və bütün bunlar ölkəmizdə də yol-nəqliyyat

kompleksinin fəaliyyətinin təkmilləşdirilməsini və nəqliyyat xidmətlərinin davamlı inkişaf tələblərinə uyğun təşkilini tələb edir. Bunun üçün struktur dəyişikliklərinin davam etdirilməsi ilə özəl daşıyıcı şirkətlərin inkişafının stimullaşdırılması, bazar münasibətlərinə uyğun çevik strukturun formalaşdırılması, yol-nəqliyyat kompleksinin səmərəli fəaliyyətinin təmin olunması və uzunmüddətli dinamik inkişafa nail olunması məqsədilə nəqliyyat növləri arasında korporativ maraqların uzlaşdırılması, nəqliyyat sektorunda əsas fondların davamlı olaraq yenilənməsi bu istiqamətdə müasir dövrün tələblərinə uyğun sürətli texniki-texnoloji yeniləşmə və nəqliyyat xidmətlərinin rəqabətqabiliyyətliliyinin, keyfiyyət səviyyəsinin yüksəldilməsindən ibarətdir [5; 7; 10].

NƏTİCƏ

Təbii ki, qeyd edilənlərin hər biri xüsusi əhəmiyyət kəsb edir və bir məqsədin digərindən fərqləndirilməsi qeyri-mümkündür. Bütün bunlarla yanaşı, məqsədlər sırasında nəqliyyat sektorunun sosial-iqtisadi mahiyyətindən irəli gələn ölkə əhalisinin və milli sənayenin nəqliyyat xidmətlərinə olan tələbatının ödənilməsi səviyyəsinin maksimum yaxşılaşdırılması, daşıma xidmətləri bazarının inkişafı və genişləndirilməsi, inhisarçılığın aradan qaldırılması, sağlam-ədalətli rəqabət mühitinin formalaşdırılması, daşıma xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və s. kimi məsələlər daha mühüm yer tutur. Eyni zamanda nəqliyyat sisteminin inkişafının məqsəd və vəzifələri, davamlı iqtisadi artım mərhələsi ilə uzlaşan, qloballaşma və davamlı inkişaf tələblərindən irəli gələn prioritetlərin reallaşdırılması ilə əlaqədar olub bir sıra məsələləri özündə əhatə edir. Hansı ki, bütün bunlar həm də davamlı inkişaf konsepsiyasından irəli gələn başlıca tələblərdəndir.

44 günlük Vətən müharibəsində əldə edilən zəfər nəqliyyat sisteminin imkanlarını daha da genişləndirmişdir. İşğaldan azad edilmiş ərazilərdə istər yeni inşa olunan hava limanları, istərsə də bərpa edilməkdə olan avtomobil və dəmir yolları, yol ötürücüləri daha çevik xidmətlərin təşkilinə imkan yaradacaqdır. Zəngəzur dəhlizinin istifadəyə verilməsi isə nəinki yerli nəqliyyat xidmətləri üçün, o cümlədən beynəlxalq və tranzit daşınmalar üçün geniş imkanlar yaradacaqdır. Bu baxımdan da ölkəmizin nəqliyyat sistemində əldə olunan zəfərin yaratdığı perspektivlər də nəzərə alınmalıdır. Gələcəkdə işğaldan azad edilmiş rayonlarda da müvafiq nəqliyyat qovşaqlarının olması, yük daşıyıcı ilə sifarişinin görüşə biləcəyi virtual bir ünvanın yaradılması da məqsədəuyğun hesab edilir.

ƏDƏBİYYAT

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” https://president.az/ az/articles/view/50474
2. Azərbaycan Respublikasının Nəqliyyat Sektorunun İnkişafı Strategiyası https://silo.-tips/download/azrbaycan-respublikasnn-nqliyyat-sektorunun-nkiaf-strategiyas
3. Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı
4. Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsi və inkişafına dair Dövlət Proqramı (2006-2015-ci illər)
5. “Azərbaycanda nəqliyyat və turizm sektorlarının davamlı inkişafı: problemlər və perspektivlər”. Kol. monoqrafiya. Bakı, “Avropa” nəşr., 2011, 238 səh.
6. Əliyev E.Ə. “Bakı şəhərində hərəkətin təhlükəsizliyinə təsir edən amillər və onların aradan qaldırılması yolları” // E.Ə.Əliyev. “Nəqliyyat hüququ” elmi-təcrübi, publisistik jurnal, Bakı, 2006, №2, səh.25-31.

7. Əsədov A.M. "Avtomobil nəqliyyatı ilə daşıma xidmətləri göstərən təsərrüfat subyektlərinin rəqabət qabiliyyətliliyi". "İqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi yolları", SDU, 2017, oktyabr, səh.20-21;
8. Əsədov A.M. "Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafı: elmi-nəzəri əsasları və perspektivləri". Bakı: Monoqrafiya, 2013, "Avropa" nəşr., 352 səh.
9. Novruzov V., Allahverdiyev H. Və b. "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı". Bakı, Azərnəşr, 1998, 388 səh.
10. Rzayev A.Y. "Beynəlxalq nəqliyyat əməliyyatları". Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2020, 514 səh.
11. Асадов А.М. «Экологические проблемы создаваемые в транспорте и пути их решения». «Современные проблемы экологии и устойчивое развитие общества», Материалы межд. научно-практическая конференция, Казахстан, 30.09.2014-01.10.2014, стр.40-43
12. Əsədov A.M. "Heydər Əliyev və Azərbaycanın nəqliyyat strategiyası". 15.02.2023, https://azertag.az/xeber/Heyder_Aliyev_ve_Azerbaycanin_neqliyyat_strategiyasi____MAQALA-2490545
13. Hacızadə Y. "Zəfərə aparan yol" https://azertag.az/xeber/Zefere_aparan_yol-1923424
14. https://unikal.az/news/373596/azerbaycanda-buraxilis-ili-10-ilden-cox-olan-masinlarin-sayi-aciqlandi
15. Atmosfer havasına atılan zərərli maddələr haqqında https://stat.gov.az/news/index.php?lang=az&id=5471

"AZERBAIJAN 2030: NATIONAL PRIORITIES FOR SOCIO-ECONOMIC DEVELOPMENT" AND PROSPECTS FOR THE DEVELOPMENT OF THE TRANSPORT SYSTEM

Agil ASADOV

SUMMARY

The article was analyzed "Azerbaijan 2030: National Priorities for socio-economic development". The tasks arising from this document and facing the transport system have been clarified. The author researched transportation and environmental issues. In the article "Azerbaijan 2030: National Priorities for socio-economic development", the concept of sustainable development and the development prospects of the transport system based on the analysis of the current situation were proposed. According to the author, improvement of infrastructure provision, ensuring the operation of regional transport hubs along international transport corridors, formation of a joint virtual space of carriers and customers, mechanization of loading and unloading operations in order to improve transit services, development of warehousing can be considered as the development prospects of the transport system in our country. At the end of the article, the prospects of the Zangezur corridor are considered, and it is stated that the victory achieved in the 44-days war of the Motherland further increased the transport capabilities of Azerbaijan.

Key words: *Sustainable development, transport, transit, environment, TRASECA, Zangezur corridor, etc.*

«АЗЕРБАЙДЖАН 2030: НАЦИОНАЛЬНЫЕ ПРИОРИТЕТЫ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ» И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ТРАНСПОРТНОЙ СИСТЕМЫ

Агиль АСАДОВ

РЕЗЮМЕ

В статье анализируется «Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития». Уточнены задачи, вытекающие из этого документа и стоящие перед транспортной системой. Автор исследовал вопросы транспорта и окружающая среда. В статье были предложены перспективы развития транспортной системы на основе анализа «Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития», концепция устойчивого развития и текущей ситуации. По мнению автора, совершенствование инфраструктурного обеспечения, обеспечение работы региональных транспортных узлов на международных транспортных коридорах, формирование единого виртуального пространства перевозчиков и клиентов, механизация погрузочно-разгрузочных работ в целях повышения качества транзитных услуг, развитие складского хозяйства, и т. д. можно рассматривать как перспективы развития транспортной системы нашей страны. В конце статьи рассматриваются перспективы Зангезурского коридора и констатируется, что победа, достигнутая в 44-дневной войне Родины, еще больше повысила транспортные возможности Азербайджана.

Ключевые слова: *Устойчивое развитие, транспорт, транзит, окружающая среда, ТРАСЕКА, Зангезурский коридор*

Məqalə redaksiyaya daxil olub: 11.03.2023
Çapa qəbul olunub:14.04.2023

“İQTİSADİ İSLAHATLAR”
elmi-analitik jurnal

NEFT-QAZ SƏNAYESİNİN DAYANIQLI İNKİŞAFINDA EKOLOJİ PROBLEMLƏR

№ 1(6)-2023, səh. 15-21

Məhəbbət MƏMMƏDOV,
Azərbaycan Memarlıq və İnşaat
Universitetinin kafedra müdiri,
iqtisad elmləri doktoru, professor

Murad QASIMLI,
Azərbaycan Memarlıq və İnşaat
Universitetinin doktorantı

murad.gasimli.96@gmail.com

Neft-qaz sənayesinin dayanıqlı inkişafında ekoloji problemlər

Məhəbbət MƏMMƏDOV,
Azərbaycan Memarlıq və İnşaat Universitetinin
kafedra müdiri, i.e.d., prof.

Murad QASIMLI,
Azərbaycan Memarlıq və İnşaat Universitetinin doktorantı

XÜLASƏ

Qloballaşan dünya ölkələrinin müasir şəraitdə mühüm problemlərindən biri üzləşdikləri ekoloji, sosial və iqlimlə bağlı məsələlərdir. Bu problemlər bütün sənaye sahələrini gələcəkdə davamlı və dayanıqlı inkişaf məsələlərinin necə həll ediləcəyi barədə alternativlərin müəyyən edilməsini şərtləndirir. Bu baxımdan, ətraf mühitin mühafizəsi, sağlamlıq və təhlükəsizlik tədbirlərinin işlənib hazırlanması dərəcəsininin qiymətləndirilməsi və neft-qaz sektorunda davamlı və dayanıqlı inkişaf istiqamətinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Məqalədə neft-qaz sənayesinin dayanıqlı inkişafında tikintinin rolu geniş təhlil edilmişdir. Burada neft-qaz sənayesinin dayanıqlı inkişaf problemlərindən biri kimi ekoloji problemlər təhlil edilərək qiymətləndirilmişdir.

Açar sözlər: *Neft, tikinti, istehsal, istehlak, dayanıqlı inkişaf, emal sənayesi.*

JEL kodu: *Q01; Q40; Q57*

GİRİŞ

Ölkə iqtisadiyyatının əsasını təşkil edən neft sektorunda geoloji kəşfiyyat, qazma, hasilat, emal, eləcə də istehsal edilmiş neft-qaz sənayesi məhsullarının istehlakçılara çatdırılmasında yaranan ekoloji problemlər bu sektorun dayanıqlı inkişafına təsir edən amillərdən biridir.

Tədqiqatlar göstərir ki, qloballaşan dünya iqtisadiyyatında neft-qaz sənayesi məhsullarının istehlakına tələbin artması neft-qaz istehsalının artmasını şərtləndirərək neft-qaz emalı zamanı yaranan radon qazının həcminin artmasına geniş şərait yaratmışdır. 2019-cu ildə qlobal qaz istehlakı 2018-ci illə müqayisədə daha aşağı artım tempində olsa da (+2,6 %), bu artım sonrakı illərdə davam edərək +5,1% olmuşdur [3, 5]. Neft-qaz emalı zamanı yaranan CO2 emissiyaları dünya miqyasında artan dinamika ilə inkişaf edir. Çinin CO2 emissiyaları 2021-ci ildə artan enerji tələbi (+10%) bütün zamanlarda ən yüksək səviyyədə olmuşdur (+6,3%, 10,4 Gt CO2). 2021-ci ildə kömürlə işləyən elektrik stansiyaları Çin iqtisadiyyatında kömürün qazla əvəzlənməsi siyasətinin yumşalması səbəbindən qaz istehlakındakı artım iki dəfə azalmışdır (+8.6%). Çin tələb artımına görə dünyada ikinci sırada (+8.6%) olmaqla, qlobal artımın 24%-ni təşkil edir [3].

İspaniya, Almaniya və İtaliyada, eləcə də Rusiya, Avstraliya, İran, Əlcəzair və Misir kimi təbii qaz hasilatı ölkələrində tələbin yaxşılaşması sayəsində Avropa Birliyi ölkələrində istehlakın həcmi +3,1% artımla müşahidə edilmişdir [3, 5]. Dünya iqtisadiyyatında baş verən bu dəyişikliklər, eləcə də Rusiya, Avstraliya, İran, Cənubi Afrika kimi kömür və karbohidrogen istehsal edən ölkələrdə radon tullantıların artmasına şərait yaratmışdır.

AZƏRBAYCANDA TULLANTILARIN DİNAMİKASI

Statistik məlumatlara əsasən, Azərbaycan Respublikası üzrə də neft-qaz hasilatı zamanı yaranan bu tullantıların miqdarı artmışdır. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

Qrafik 1. Azərbaycan Respublikasında radon qazı tullantılarının 1970-2019-cu illər üzrə dinamikası, min tonla



Mənbə. (1) və (7) məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikası üzrə keçmiş SSRİ dövründə CO2 tullantılarının həcmi resublikamız müstəqillik qazandığı dövrdən sonrakı illərlə müqayisədə daha yüksək olmuşdur. CO2 tullantılarının həcmi 1970-1989-cu illəri əhatə edən dövrdə artaraq 1989-cu ildə 72,2 min ton olmuşdur. Bu da 1970-ci ilə nisbətən 2,23 dəfə artım deməkdir.

Qeyd etmək lazımdır ki, emal sənayesinin ümumi sənayedə ekoloji tullantılar üzrə payı digər fəaliyyət sahələri üzrə daha yüksəkdir. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

Qrafik 2. Azərbaycan Respublikasında emal sənayesinin ümumi sənayedə tullantılarının payı, %-lə



Mənbə. (7) məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, emal sənayesinin ümumi sənayedə tullantılarının payı 2010-2021-ci illər üzrə 41,6-81,6% intervalında dəyişmişdir. 2021-ci ildə bu göstərici 81,6% olmaqla, əvvəlki illərlə müqayisədə daha yüksəkdir. Tikinti sektorunda isə ekoloji tullantılar digər sahələrlə müqayisədə aşağıdadır. Statistik məlumatlar əsasında tərtib edilmiş aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

Qrafik 3. Azərbaycan Respublikasında emal sənayesi və tikinti sektoru üzrə ekoloji tullantıların miqdarı, min tonla



Mənbə: (7) məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasında emal sənayesində ekoloji tullantıların miqdarı 2012-ci ildə 868,8 min ton olmaqla bütün dövrlərlə müqayisədə daha yüksək olmuşdur. 2013-2014-cü illərdə azalmasına baxmayaraq, sonrakı illərdə artaraq 2021-ci ildə 791.8 min ton olmuşdur. Tikinti sektoru üzrə isə bu göstərici 2010-2021-ci illərdə 0,6-3,7 min ton intervalında dəyişmişdir. 2021-ci ildə tikinti sektorunda ekoloji tullantılar 2,1 min ton olmaqla, 2018-2021-ci illərə nisbətən azalmışdır.

TULLANTILARIN YARANMASINDA ƏSAS PAYI OLAN SEKTORLAR

Tədqiqatlar göstərir ki, ekoloji tullantıların emal sənayesində daha çox hissəsi neft-qaz sənayesinin payına düşür. Ölkə iqtisadiyyatının əsasını təşkil edən neft sektorunda geoloji kəşfiyyat, qazma, hasilat, emal, eləcə də istehsal edilmiş neft-qaz sənayesi məhsullarının istehlakçılara çatdırılmasında aparılan tikinti-quraşdırma işləri mühüm rol oynayır. İqtisadiyyatın digər sahələrində olduğu kimi, neft-qaz sənayesinin tikinti sektorunda yaranan ekoloji problemlər bu sektorun dayanıqlı inkişafını ləngidən amillərdəndir. Neft-qaz sənayesində tikinti-quraşdırma işləri zamanı yaranan ekoloji tullantıların ətraf mühitə dəyən ziyanının minimumlaşdırılması əsasən layihələndirilmə işlərində nəzərə alınmalıdır. Təbii ki, bu zaman hər bir müəssisədə ən yaxşı üsullar müəyyən edilərək ətraf mühitə dəyən ziyanın azaldılması istiqamətində tədbirlər planı hazırlayır. Hazırda sənaye istehsalının inkişafı çoxlu miqdarda xammalın çıxarılmasının təşkilini, güclü enerji mənbələrinin yaradılmasını tələb edir. Bu da bir sıra faydalı qazıntıların, o cümlədən karbohidrogen ehtiyatlarının tükənməsinə səbəb olur. Bundan əlavə, sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti tullantıları ətraf mühitin çirklənməsi problemini yaradır. Nəticədə3 atmosfer, su, torpaq intensiv çirklənməyə məruz qalır. Tədqiqatlar göstərir ki, insan fəaliyyəti nəticəsində təbiətdə baş verən dəyişikliklər qlobal xarakter almış və təbii tarazlığın pozulması ilə bağlı ciddi təhlükə yaratmışdır. Belə bir vəziyyət insan cəmiyyətinin gələcək inkişafı üçün maneə ola bilər. Bu isə ümumilikdə onun mövcudluğu məsələsini gündəmə gətirir. Mənfi dəyişikliklər insan və təbiət arasındakı münasibətlərə yenidən baxılması zərurətini yaradır. Bu baxımdan, təbii sərvətlərin qorunması və onların istifadəsinin yaxşılaşdırılması üçün müvafiq tədbirlərin aparılması məqsədilə statistik məlumatlara görə, dünya miqyasında hər il orta hesabla ÜDM-in 1-2%-i həcmində vəsait

xərclənir.

İqtisadiyyatın ən mühüm sahəsi kimi tikinti işlərinin inkişafı, tikinti sənayenin inkişaf səviyyəsi ilə xarakterizə edilir. Tikinti sənayesi tikinti sektorunun inkişafını şərtləndirməklə yanaşı, müxtəlif xammallara, tikinti materiallarına, enerjiyə, suya və istehsalı ətraf mühitə güclü təsir göstərən digər resurslara ehtiyac duyur. Landşaftların ciddi şəkildə pozulması və ətraf mühitin çirklənməsi işlərin bilavasitəg tikinti meydançasında aparılması ilə bağlıdır. Bu pozuntular tikinti sahəsinin təmizlənməsi, bitki qatının götürülməsi və torpaq işlərinin aparılması ilə başlayır. Tikintinin inkişafı üçün istifadə edilən tikinti sahəsinin təmizlənməsi zamanı yandırıldıqda ətraf mühiti çirkləndirən və ya zibillikləri dağıdan, sahələrin morfologiyasını dəyişdirən, hidroloji şəraiti pisləşdirən və eroziyaya səbəb olan əhəmiyyətli miqdarda tullantı əmələ gəlir. Ətraf mühitə təsir dərəcəsi tikinti üçün istifadə olunan materiallardan, bina və tikililərin texnologiyasından, tikinti sənayesinin texnoloji avadanlıqlarından, tikinti maşınlarının, mexanizmlərinin, nəqliyyat vasitələrinin növündən, keyfiyyətindən və digər amillərdən asılıdır. Tikinti sahələrinin ərazisi qonşu ərazilərin çirklənməsi mənbəyinə çevrilir. Qeyd etmək lazımdır ki, tikinti proseslərində geniş istifadə olunan su əsasən tikinti məhlulların komponentləri kimi, istilik şəbəkələrində soyuducu kimi istifadə edildikdən sonra boşaldılır, yeraltı suları və torpağı çirkləndirir. Bütün bunlarla yanaşı, tikintinin özü nisbətən qısa bir prosesdir. Tikinti məhsulu olan obyektlərin - binaların, tikililərin və onların komplekslərinin - urbanizasiyalaşmış ərazilərin təbiətinə təsiri ilə vəziyyət daha mürəkkəbdir. Onların ətraf mühitə təsiri hələ kifayət qədər öyrənilməmişdir, ona görə də demək olar ki, bütün ətraf mühit tədbirləri bilavasitə məsləhət xarakteri daşıyır. Hazırkı şəraitdə neft sənayesində yaranan tullantılar səbəbindən su və torpaq çirklənir və məişət tullantılarının yığılması, toz, qaz və istilik havasının çirklənməsi baş verir ki, bu da radiasiya səviyyəsinin dəyişməsinə səbəb olur. Havanın kimyəvi tərkibindəki dəyişiklik, tərkibindəki qazların yüksək konsentrasiyası da insana mənfi təsir göstərir. Hazırda tullantıların tərkibini, adambaşına gün ərzində 1,5-2,5 kq bərk və 8 litrə qədər maye tullantılar təşkil edir və onların tərkibində yuyucu vasitələr və digər birləşmələr kimi zəhərli maddələr vardır ki, onların azaldılması üçün çoxlu miqdarda təmiz su tələb olunur. Bütün bunlar tikinti işlərində tikinti layihələrində nəzərə alınmaqla müəyyənləşdirilir [2]. Urbanizasiyalaşmış ərazilərin ətraf mühitə təsiri və bu sahədə ətraf mühitin keyfiyyəti ilk növbədə layihədə müəyyən edilmiş qərarlarla, sonra isə müvafiq olaraq həmin qərarların icra keyfiyyəti və obyektlərin istismar şərtləri ilə müəyyən edilir [3].

EKOLOJİ PROBLEMLƏRİN HƏLLİ İSTİQAMƏTLƏRİ

Layihələndirmə mərhələsində obyektlə təbii mühit arasındakı əlaqənin gələcək xarakteri müəyyən edilir. İnsan həyatı və fəaliyyəti üçün süni mühitin yaradılması təbiətə uyğun və ya əksinə baş verə bilər. Beləliklə, layihələrin ekoloji əsaslılıq və nəzərə alınma dərəcəsi əsasən ətraf mühitin gələcək vəziyyətini deyil, həm də gələcək sosial zəruri əməyin və pozulmuş təbii şəraitin bərpası üçün vəsaitin həcmini müəyyən edir. Neft-qaz hasilatının inkişafının texniki və ekoloji əsaslarının işlənib hazırlanmasında təbiətin mühafizəsi və urbanizasiya mühitinin yaxşılaşdırılması, ekoloji zərərlərin aradan qaldırılmasına əsaslanan normalara əsasən planlaşdırılma və tikinti-quraşdırma işlərinin layihəsinə üzvi şəkildə daxil edilməlidir. Bu normalara uyğun olaraq sənaye təyinatlı müəssisələrin, binaların və tikililərin layihələndirilməsi nəzərə alınmaqla yaşayış və mülki əhəmiyyətli obyektlər ətraf mühitin mühafizəsi tələbləri, təsdiq edilmiş planlaşdırılmış sxemləri və layihələri əsasında həyata keçirilir. Layihə sənədlərinin hazırlanmasının bütün mərhələlərində, tikinti sahəsinin seçilməsindən, seçilmiş sahə üzrə planlaşdırılan qərarların aidiyyəti orqan və təşkilatlarla razılaşdırılmasından, layihə tapşırıqlarının hazırlanmasından və öz layihə-smeta sənədlərinin hazırlanmasına qədər bütün obyektlər üzrə qəbul edilən qərarlar torpaqlardan səmərəli istifadəyə, obyektlər tikildikdən sonra meliorativ torpaq sahələrinə, münbit torpaq qatından istifadəyə, ətraf mühitin mühafizəsinə, təbii sərvətlərdən səmərəli istifadəyə və təbii ehtiyatlardan qənaətlə istifadəyə dair tələblərlə müəyyən edilməlidir. Ətraf mühitin mühafizəsi bütün tikinti məsələlərinin işlənib

hazırlanmasında nəzərə alınmalı və layihə sənədlərinin bütün bölmələrində, o cümlədən layihənin ümumi izahat qeydində, texnoloji hissəsində, tikinti işlərinin yerinə yetirilmə mərhələlərində, xərclər smetalarında öz əksini tapmalıdır [5, 6]:

Layihələndirmə işlərində layihələrin ekoloji ekspertizası da böyük əhəmiyyət kəsb edir. İri neft-qaz obyektlərinin tikintisi və yenidən qurulması layihələrinin həyata keçirilməsinin bütün mümkün ekoloji və sosial-iqtisadi nəticələrinin kompleks qiymətləndirilməsi sistemi, ətraf mühitin qorunması və ən az resurs sərfi və minimum arzuolunmaz nəticələrlə qarşıya qoyulan vəzifələrin həllində əhəmiyyətli rola malikdir. Ekoloji ekspertizanın məqsəd və vəzifəsi yerin və onun təkinin, su ehtiyatlarının, flora və faunanın mühafizəsini, elmi əsaslarla rasional istifadəsini, təmiz havanın və suyun qorunmasını, təbii sərvətlərin bərpasını və insanların sağlamlığının yaxşılaşdırılması ilə ətraf mühiti indiki və gələcək nəsillərin maraqlarına uyğun təmin etməkdən ibarətdir. O, hətta obyektin planlaşdırılması və layihələndirilməsi mərhələsində təbiətdən istifadənin və təbiətin mühafizəsinin təşkilində səhvləri müəyyən etməyə və aradan qaldırmağa imkan verməklə, tikinti sənədlərinin layihələndirilməsinin bütün mərhələlərində həyata keçirilməlidir. Sənaye komplekslərinin layihələndirilməsi üzrə tapşırıqlar hazırlanarkən müvafiq kəmiyyət və keyfiyyət meyarlarından istifadə edilməklə, proqnozlaşdırmanın nəticələrinə əsasən obyektlərin fəaliyyəti üçün ekoloji tələblərin mövcudluğuna və onlara əməl olunmasına nəzarət edilir. Layihə təşkilatları obyektlərin yerləşdirilməsi üçün torpaq sahələrinin seçilməsi, onların tikintisi üçün ekoloji cəhətdən təmiz şəraitin seçilməsi ilə bağlı ekoloji ekspertiza materialları ilə əvvəlcədən razılaşdırılmalıdır. Tikinti sahələrinin seçilməsi mərhələsində ilk növbədə kənd təsərrüfatına yararlı olmayan və ya tikinti üçün səmərəsiz torpaqlardan istifadənin mümkünlüyü, xammaldan kompleks istifadə imkanları, su ehtiyatlarından ən səmərəli istifadə, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması imkanları, hava hövzəsi, su, torpaq sənaye emissiyaları və digər tullantılar nəzərə alınmalıdır. Ekoloji məsələlərin kompleks həlli, istehsalın yüksək səmərəli texnoloji sxemlərinin, qapalı sudan istifadə sistemlərinin tətbiqi, yerli və xarici elmi təcrübələrin ən son nailiyyətlərindən istifadə təmin edilməlidir.

NƏTİCƏ

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, ekoloji tullantıların emal sənayesində daha çox hissəsi neft-qaz sənayesinin payına düşdüyündən neft-qaz istehsalının, eləcə də bu sektorda tikinti-quraşdırma müəssisələrinin ətraf mühitə təsiri ilə bağlı ekoloji nəticələr ekoloji mütəxəssislər tərəfindən neft-qaz hasilatı və emalı obyektlərinin ətraf mühitə zərərli təsirlərinin kompleks qiymətləndirilməsinin üsulları və meyarları "Tikinti normaları və normativləri"ndə müəyyən edilmiş qaydalara uyğun olaraq ciddi layihələr əsasında tərtib edilməlidir. Həmçinin ətraf mühitdə mümkün mənfi dəyişikliklərin proqnozlaşdırılması üsulları və insan fəaliyyətinin ekosferə zərərli təsirlərinin vaxtında qarşısının alınması üçün yaşayış məntəqəsinin ekologiyası ekoloji tarazlığın yaradılması məqsədi ilə tədqiq edilməlidir.

ƏDƏBİYYAT

1. ARDSK 2021. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/industry/. İstinad tarixi: 05 aprel 2022.
2. BP Azərbaycanda, Davamlı İnkişaf haqqında hesabat: [Elektron resurs] / Bakı - 2019, 52 səh. https://www.bp.com/content/dam/bp/countrysites/az_az/azerbaijan/home/pdfs/sustainability-reports/sr_2019_az.pdf
3. https://www.bp.com/content/dam/bp/business-sites/en/global/corporate/pdfs/energy
4. Режеп В.Е. Проблемы экологии в строительстве и реконструкции. Национальный научно исследовательский институт «Урбан Проект». г.Кишинэу, республика Молдова, 2009г.
5. Кутузова Т.Н. Проблема подхода к оценке объектов экологической архитектуры

www. nbuv.gov.ua/kutuzova
6. https://www.stat.gov.az/source/environment/ [Elektron resurs] Ətraf mühitin mühafizəsi.

ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ В УСТОЙЧИВОМ РАЗВИТИИ НЕФТЕГАЗОВОЙ ОТРАСЛИ

Махаббат МАМЕДОВ,
Мурад Гасымлы

РЕЗЮМЕ

Одной из важных проблем стран глобализированного мира в современных условиях являются экологические, социальные и климатические проблемы, с которыми они сталкиваются. Эти проблемы требуют от всех отраслей определить альтернативы решения проблем устойчивого развития в будущем. В связи с этим важно оценить степень развития мероприятий по охране окружающей среды, здоровья и безопасности и изучить направление устойчивого развития в нефтегазовом секторе. В статье подробно анализируется роль строительства в устойчивом развитии нефтегазовой отрасли. Здесь экологические проблемы, анализируются и оцениваются как одна из проблем устойчивого развития нефтегазовой отрасли.

Ключевые слова: *нефть, строительство, добыча, потребление, устойчивое развитие, отходы, перерабатывающая промышленность.*

ENVIRONMENTAL PROBLEMS IN SUSTAINABLE DEVELOPMENT OF THE OIL AND GAS INDUSTRY

Mahabbat MAMMADOV
Murad GASIMLI

ABSTRACT

One of the important problems of the countries of the globalized world in modern conditions are the ecological, social and climatic problems they face. These problems require all industries to determine alternative solutions to the problems of sustainable development in the future. In this regard, it is important to estimate the degree of development of environmental, health and safety measures and study the direction of sustainable development in the oil and gas sector. In the article, the role of construction in the sustainable development of the oil and gas industry is analyzed in detail. Here, environmental problems are analyzed and evaluated as one of the problems of sustainable development of the oil and gas industry.

Key words: *oil, construction, mining, consumption, sustainable development, waste, recycling industry.*

Məqalə redaksiyaya daxil olub: 06.03.2023
Təkrar işlənməyə göndərilib: 28.03.2023
Çapa qəbul olunub:17.04.2023

“İQTİSADİ İSLAHATLAR”
elmi-analitik jurnal

AZƏRBAYCANDA İNVESTİSİYA FƏALLIĞININ ARTIRILMASININ BƏZİ ASPEKTLƏRİ

№ 1(6)-2023, səh. 22-34

Bağış ƏHMƏDOV,
Azərbaycan Dövlət İqtisadi Universitetinin
“İqtisadiyyat və texnoloji elmlər”
kafedrasının dosenti, i.e.n.

bahmadov@gmail.com

Azərbaycanda investisiya fəallığının artırılmasının bəzi aspektləri

Bağış ƏHMƏDOV
Azərbaycan Dövlət İqtisadi Universitetinin
"İqtisadiyyat və texnoloji elmlər" kafedrasının dosenti, i.e.n.

XÜLASƏ

Məqalədə milli iqtisadiyyatda investisiya fəallığına təsir edən amillər araşdırılmışdır. Həmçinin Azərbaycanda investisiya resurslarının formalaşması, buna neft gəlirlərinin təsiri məsələləri tədqiq edilmişdir. Xüsusilə milli qənaətin həcminin dəyişməsi perspektivləri qiymətləndirilmişdir. Burada ortamüddətli dövrdə həm dövlət qənaətinin, həm də korporativ və ev təsərrüfatlarının qənaətlərinin dinamikası araşdırılmışdır. Habelə məqalədə ölkədə investisiya fəallığının artırılmasına dair təkliflər irəli sürülmüşdür. Bu təkliflər əsasən faiz dərəcəsinin azaldılması, vergi güzəştlərinin verilməsi və risk səviyyəsinin aşağı salınması məsələlərini əhatə edir.

Açar sözlər: *Azərbaycan, investisiya, milli qənaət, neft gəlirləri, faiz dərəcəsi*
JEL kodu: *E22; R42*

GİRİŞ

Ölkədə iqtisadi subyektlər etdikləri qənaəti adətən ehtiyat və ya nağd vəsait kimi saxlamır, müəyyən aktivlərin əldə edilməsinə yönəltməyə meyilli olurlar. Həm neoklassik, həm də neokeyns nəzəriyyəsinə əsasən, qənaətin həcminin artması iqtisadi artım tempini müəyyən edən əsas amildir [7, s. 518-548]. Bununla belə, bir çox hallarda ölkədə qənaətin artımı avtomatik olaraq investisiyanı artırmır. Çünki gəlirlərin qənaət edilən hissəsinin investisiyaya çevrilməsi üçün idarəetmə, texnoloji və bazar bilikləri tələb olunur. Belə biliklər olmadığı halda, qənaətin milli iqtisadiyyatda mənimsənilməsi məhdud olur və bu kapital xaricə axır.

NƏZƏRİ YANAŞMALAR

Kifayət qədər sübutlar mövcuddur ki, investisiya uzunmüddətli iqtisadi artımın ən vacib determinantlarından biridir [11]. B.Bosvöz və S.Kolinsin 86 ölkə üzrə apardığı hesablamalara görə, iqtisadi artımın 45 faizi kapitalın artımı, 41 faizi ümumi amil məhsuldarlığının artımı, 14 faizi isə təhsil səviyyəsinin artımı hesabına baş vermişdir [12]. Adam Smit qeyd edirdi ki, cari dövrdə hansısa millətin torpaq və əməyinin hazır məhsulu əvvəlki dövrə nisbətən artırsa, onda biz əmin ola bilərik ki, bu iki dövr arasında kapital da artmışdır [9, c.369]. Göründüyü kimi, investisiya kapital yığımı prosesi olduğundan onun iqtisadi artımda əhəmiyyətli rol oynadığı qeyd edilir. C.Milə görə, istehsal fəaliyyəti kapitalın həcmi ilə məhdudlaşır [6, s.159]. Onun fikrincə, kapitalın hər artımı istehsalın genişlənməsinə səbəb olur və ya səbəb ola bilər [6, s.163]. C.Keyns də qeyd edirdi ki, məşğulluq yalnız investisiya ilə birgə arta bilər [20, s. 113].

İqtisadi subyektlər investisiyanın hara qoyulması ilə yanaşı, həm də onun maliyyələşdirilmə mənbələrinə dair qərarlar qəbul edirlər. İnvestisiyanın səmərəliliyini yüksəltmək üçün kapital minimum qiymətə cəlb edilməlidir. Ölkədə investisiya qoyuluşları mənfəət, amortizasiya ayırmaları, nizamnamə kapitalının artırılması, borc vəsaitləri və s. hesabına maliyyələşdirilə bilər. Hər bir mənbədən cəlb edilən kapitalın qiyməti riskin səviyyəsi və cəlb edilmə xərcləri ilə əlaqədar fərqli olur. İnvestisiyaya tələb edilən gəlirlilik norması (diskont dərəcəsi) ayrı-ayrı mənbələrdən cəlb edilən vəsaitlərin qiymətlərinin orta çəkili ölçüsüdür və onu formalaşdıran əsas amil isə faiz dərəcəsidir.

Milli iqtisadiyyatda qeyri-müəyyənlik investisiyanın həm həcminə, həm də vaxtına təsir edə bilər. V.Qosal və P.Launqaniyə görə, əldə ediləcək mənfəətlə bağlı qeyri-müəyyənlik sahəyə investisiya qoyuluşlarını azaldır [15]. R.Makdonald və D.Siqel görə, əksər iri sənaye layihələri

üçün xarakterik olan qeyri-müəyyənliyin orta səviyyəsi qaytarılmayan investisiya üzrə tələb edilən gəlirlilik normasını iki dəfə artıra bilər [22]. L.Severn də inkişaf etməkdə olan ölkələrdə qeyri-müəyyənliklə özəl investisiya qoyuluşları arasında əhəmiyyətli mənfi əlaqənin olduğunu müəyyən etmişdir [25].

F.Nayta görə, gələcəyin bilinmədiyi, lakin mümkün gələcək variantlarının ehtimalının paylanmasının müəyyən edildiyi hal riski, ehtimalın paylanmasının müəyyən edilməsi mümkün olmadığı hallar isə qeyri-müəyyənliyi əks etdirir [14, s. 297-232]. Bu baxımdan, risk ölçülə bilən qeyri-müəyyənliyi əks etdirir. Bununla belə, E.Miller qeyd edir ki, hazırda belə fərqə çox diqqət yetirilmir, çünki hər iki halda gələcək naməlumdur və qərarlar ehtimallara dair subyektiv qiymətləndirmələrdən istifadə edilməklə qəbul edilir [13]. Beləliklə, qeyd edilən yanaşmalara görə qeyri-müəyyənlik (risk) investisiya həcmini azaltmaqla yanaşı, potensial investisiyanın təxirə salınmasına səbəb olur.

Həm keyns, həm də neoklassik nəzəriyyələrinə görə investisiya gözlənilən gələcək gəlirlərin cari dəyəri kapitalın alternativ dəyərinə bərabərləşənə qədər həyata keçirilir. A.Marşal göstərirdi ki, “istənilən şəxs öz xüsusi vəsaitlərini nəzərə alaraq kapital qoyuluşlarının mənfəətliliyinin xarici sərhəddinə və ya həddinə, yəni konkret istehsal sahəsinə hər bir yeni qoyuluşun faydası onun xərclərini ödəyən həddə qədər kapital qoyuluşunu istehsalın bütüm fərqli sahələrinə istiqamətləndirir” [8, s.40]. İ.Fişerə görə, xərclərə münasibətdə rentabellik norması xərclərin cari dəyərini gəlirlərin cari dəyərinə bərabərləşdirən normadır [18, s.168]. Onun fikrincə, yeni investisiya üçün xərclərə münasibətdə rentabellik norması faiz dərəcəsini üstələməlidir [18, s. 159]. C.M. Keynsə görə də, investisiyanın həcmi investisiyaya tələb əyrisində məcmu kapitalın son hədd səmərəliliyinin bazar faizi dərəcəsinə bərabərləşən nöqtəyə qədərə dəyişir [20, s. 136-137]. Onun fikrincə, qiymətlərin gözlənilən artımının investisiya qoyuluşuna stimullaşdırıcı təsiri faiz dərəcəsinin artımı hesabına deyil, kapital ehtiyatlarının son hədd səmərəliliyinin artımı hesabına baş verir [20, s.142]. C.M.Keyns də hesab edirdi ki, “xərclərə münasibətdə rentabellik norması” və “kapitalın son hədd səmərəliliyi” anlayışları oxşardır [20, s. 140]. C.Xiksə görə, faiz dərəcəsinin (diskont dərəcəsinin) aşağı düşməsi istənilən investisiya layihəsində kapitalın dəyərini artırır, artması isə əksinə azaldır [17, s. 20-21].

AZƏRBAYCANDA İNVESTİSİYA FƏALLIĞI

Milli iqtisadiyyatda işləyənlərin fondla silahlanması səviyyəsi yüksəldikcə əmək məhsuldarlığı artır. Hazırda adambaşına düşən əsas fondların dəyərinə görə, Azərbaycan inkişaf etmiş ölkələrdən əhəmiyyətli dərəcədə geri qalır. Belə ki, Azərbaycanda 2021-ci ildə adambaşına düşən əsas fondların dəyəri 24,7 min manata, qeyri-neft sektorunda isə 12,0 min manata bərabər olduğu halda, Danimarkada təqribən 672.7 min manata, Çexiyada təqribən 300,4 min manata, Qazaxıstanda təqribən 31,6 min manata bərabərdir [30]. Göründüyü kimi, inkişaf etmiş ölkələrdə adambaşına düşən əsas kapitalın həcmi yüksəkdir. 2021-ci ildə Azərbaycanda adambaşına düşən ÜDM Danimarkadan cari ABŞ dolları ilə 12,6 dəfə və paritet alıcılıq qabiliyyəti ilə 4,1 dəfə, Çexiyadan müvafiq olaraq 5,0 dəfə və 2,8 dəfə, Qazaxıstandan isə müvafiq olaraq 1,9 dəfə və 1,8 dəfə az olmuşdur. Buna görə də ölkədə istehsalın həcminin artırılması və əmək məhsuldarlığının yüksəldilməsi üçün qənaət normasının yüksək olması və bu qənaətin ölkə daxilində əsas fondların yaradılmasına yönəldilməsi zəruridir.

Qrafik 1. Əsas kapitala investisiya qoyuluşlarının dinamikası (2000=100)



Qrafik 1-dən göründüyü kimi, Azərbaycanda 2000-2013-cü illərdə əsas kapitala investisiya qoyuluşları 2009-cu il istisna olmaqla davamlı şəkildə artmış, 2013-cü ildən sonra isə azalma trendinə malikdir. Belə ki, 2021-ci ildə bu göstərici 2000-ci ilə nisbətən 11 dəfə, 2010-cu ilə nisbətən 1,6 dəfə artdığı halda, 2013-cü ilə nisbətən 1,1 dəfə azalmışdır. Bu hal əsasən mədənçıxarma sənayesində investisiya qoyuluşlarının azalması hesabına baş vermişdir.

2000-2021-ci illərdə əsas kapitala investisiyanın ÜDM-də payı 16,6 faizlə 57,7 faiz, qeyri-neft sektorunda ÜDM-də payı 13,3 faizlə 39,5 faiz arasında dəyişmişdir (qrafik 2).

Qrafik 2. Əsas kapitala investisiya qoyuluşunun (ƏKİQ) ÜDM-də payı (faizlə)



Qrafik 2-dən göründüyü kimi, ÜDM-də investisiyanın payı 2004-cü ilə qədər artmış sonra isə azalmağa başlamışdır. Belə hal 2004-2010-cu illərdə investisiya qoyuluşlarının artım tempinə nisbətən ÜDM-in artım tempinin yüksək olması ilə əlaqədar olmuşdur. Belə ki, qeyd edilən dövrdə neft sektoruna qoyulmuş investisiyalar hesabına əsas fondların istifadəyə verilməsi neft və qaz hasilatının artmasına və nəticədə ÜDM-in yüksək templə artımına səbəb olmuşdur. Habelə 2005-2014-cü illərdə qeyr-neft sektoru üzrə investisiya norması yüksək olmuşdur. Bu da əsasən dövlət investisiyalarının artımı hesabına baş vermişdir. Bununla belə, son illərdə investisiya normasının azalması iqtisadi artımın təmin edilməsi baxımından mənfi haldır. Habelə investisiya norması illər üzrə dəyişkən olmuşdur. Məsələn, Avstriyada 2010-2021-ci illərdə investisiya norması 23 faizlə 28 faiz, Danimarkada 18 faizlə 23 faiz, Çexiyada 25 faizlə 30 faiz arasında dəyişdiyi halda, Azərbaycanda qeyri-neft sektorunda 17,9 faizlə 39,9 faiz arasında dəyişmişdir [28]. Belə dəyişkənlik daxili tələbdə də dəyişikliklərə səbəb olmaqla iqtisadi artımın davamlılığına mənfi təsir edə bilər.

AZƏRBAYCANDA İNVESTİSİYA RESURSLARININ FORMALAŞMASI PERSPEKTİVLƏRİ

Azərbaycanda investisiya resurslarının əhəmiyyətli hissəsi dövlətin qənaəti hesabına formalaşır. Belə ki, milli qənaətin 2019-cu ildə 63,4 faizi, 2020-ci ildə isə 28,2 faizi dövlət idarəetməsinin payına düşmüşdür. Habelə ölkədə əsas kapitala investisiya qoyuluşlarının 2019-cu ildə 62,4 faizi, 2020-ci ildə isə 54,5 faizi dövlətin birbaşa investisiyaları və əsaslı transferləri hesabına təmin edilmişdir. Dövlətin qənaətinin həcminə təsir göstərən əsas amil neft gəlirləri olduğundan ortamüddətli dövrdə neft-qaz sektorunda istehsalın həcmi və neft və qazın qiyməti ölkədə investisiya resurslarının formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir.

Dövlət Neft Fondunun gəlirlərinin 2021-ci ildə 85,3 faizi Azəri-Çıraq-Günəşli yatağından hasil edilən mənfəət neftinin payına düşmüş, bu göstəricinin 2023-cü ildə 79,0 faizə bərabər olması gözlənilir [2, 29].

Qrafik 3. Azəri-Çıraq-Günəşli yatağından neft hasilatının həcmi (mln. barel) [2, s.9]



Qrafik 3-dən göründüyü kimi, 2023-cü ildə Azəri-Çıraq-Günəşli yatağından neft hasilatının 2021-ci ilə nisbətən 22,2 faiz, 2022-ci ilə nisbətən isə 14,5 faiz azalacağı gözlənilir. Bu da ölkənin neft gəlirlərinə azaldıcı təsir göstərəcəkdir. Bununla yanaşı, 2023-2026-cı illərdə dövlət büdcəsində neftin 1 barelinin qiyməti 50 ABŞ dollarına bərabər müəyyən edilmişdir ki, bu da nisbətən ehtiyatlı yanaşmanı əks etdirir. Belə ki, ABŞ Enerji İnformasiyası Adminstrasiyası 2023-cü ildə Brent neftinin 1 barelinin qiymətinin 83,1 ABŞ dollarına, Qərbi Texas neftinin 1 barelinin qiymətinin 77,18 ABŞ dollarına, 2024-cü ildə isə müvafiq olaraq 77,57 ABŞ dollar və 71,57 ABŞ dollarına bərabər olacağını proqnozlaşdırır [31]. Habelə Beynəlxalq Valyuta Fondunun qiymətləndirmələrinə əsasən, Brent, Dubay Fateh və Qərbi Texas markalı neftlərin orta qiyməti 2023-cü ildə 81,13 ABŞ dollarına, 2024-cü ildə isə 75,36 ABŞ dollarına bərabər olacaqdır [27, s.6]. Bununla yanaşı, 2023-cü ilin yanvar ayında dünya bazarında Brent neftinin 1 bareli 83,09 ABŞ dollar, Qərbi Texas neftinin qiyməti isə 78,11 ABŞ dollar, fevral ayında müvafiq olaraq 82,71 ABŞ dolları və 76,85 ABŞ dolları, mart ayında isə müvafiq olaraq 78,53 ABŞ dolları və 73,37 ABŞ dolları təşkil etmişdir [32]. Göründüyü kimi, dövlət büdcəsi zərfində 2023-cü il üzrə neftin 1 barelinin proqnozlaşdırılan qiyməti beynəlxalq təşkilatların verdiyi proqnozlardan təqribən 1,6 dəfə azdır. Belə hal ölkənin neft gəlirlərinin proqnozlaşdırılandan çox olacağını göstərir. Ölkədə neft gəlirləri hesabına maliyyələşən xərclərin azalması nəticəsində daxili tələbin azalması investisiya fəallığına mənfi təsir göstərə bilər. Belə ki, 2021-ci ildə dövlət büdcəsinin neft gəlirləri qeyri-neft ÜDM-nin 23,4 faizini təşkil etdiyi halda, 2023-cü ildə bu göstəricinin 22,2 faiz olacağı gözlənilir.

Dövlət büdcəsi vasitəsilə xərclənən neft gəlirlərinin qeyri-neft ÜDM-nə təsirinin qiymətləndirmək üçün 2000-2021-ci illər üzrə real qeyri-neft ÜDM-nin laqorifmi (y) ilə büdcəsi vasitəsilə xərclənən real neft gəlirlərinin (qeyri-neft ÜDM-nin deflyatoru əsasında) loqarifmi (b) arasında asılılıq araşdırılmışdır. İlkin olaraq bu zaman sıralarının stasionarlığı qiymətləndirilmiş və sabitlə y-nin I(0), b-nin isə I(1) olduğu müəyyən edilmişdir. Buna görə də ARDL yuxarı hədd testi əsasında kointeqrasiya əlaqəsi araşdırılmışdır. Bunun üçün aşağıdakı reqresiya tənliyindən

istifadə edilmişdir [24]:

$$\Delta y_t = \alpha_t + \sum_{i=1}^{p} \beta_{1i} \Delta y_{t-i} + \sum_{i=0}^{q} \beta_{2i} \Delta b_{t-i} + \gamma_1 y_{t-1} + \gamma_2 b_{t-1} + \varepsilon_t \qquad (1)$$

(1) reqresiya tənliyi əsasında aparılmış ARDL yuxarı hədd testi (F statistika 6,27-ə bərabər olmuşdur ki, bu da I(1) halında da 1%-lik əhəmiyyətlilik səviyyəsindəki dəyərdən yüksəkdir) qeyd edilən göstəricilər arasında kointeqrasiya əlaqəsinin olduğunu göstərmişdir. Kointeqrasiya əlaqəsinin olduğu müəyyən edildikdən sonra tam modifikə edilmiş ən kiçik kvadratlar üsulu (FM-OLS), dinamik ən kiçik kvadratlar üsulu (DOLS) və kanonik kointeqrasiya reqresiyası (CCR) üsullarından istifadə edilməklə y və b arasında müəyyən edilmiş asılılıq aşağıdakı kimi olmuşdur.

Cədvəl 1. Kointeqrasiya tənliyinin parametrləri (y asılı dəyişən)

	FM-OLS				DOLS				CCR			
	əmsal	Standart səhv	t-statistika	ehtimal	əmsal	Standart səhv	t-statistika	ehtimal	əmsal	Standart səhv	t-statistika	ehtimal
b	0,358	0,053	6,815	0	0,32	0,057	5,652	0,0001	0,368	0,0453	8,111	0
sabit	4,987	0,288	17,324	0	5,218	0,325	16,076	0	4,934	0,244	20,236	0
R^2	0,805				0,91				0.807			

Cədvəl 1-dən göründüyü kimi, büdcənin neft gəlirləri hesabına xərclərinin 1 faiz dəyişməsi qeyri-neft ÜDM-nin təqribən 0,35 faiz dəyişməsinə səbəb olur.

Qeyd edilənlərlə yanaşı, 2023-cü ilin yanvarın 1-də Dövlət Neft Fondunun aktivlərinin dəyəri 49033,6 mln. ABŞ dolları və ya 83357.1 mln. man. məbləğində təşkil etmişdir. Bu vəsait də ən azı 8 il ərzində 2023-2026-cı illərdə Dövlət Neft Fondundan büdcəyə proqnozlaşdırılan transferlərin orta illik məbləğinə bərabər həcmdə transferləri təmin etməyə imkan verir. Habelə dövlət büdcəsində neftin proqnozlaşdırılan qiymətinin onun faktiki qiymətindən aşağı olması Dövlət Neft Fondunun aktivlərinin artımına səbəb olur. Bu baxımdan, 2023-cü ildə Azəri light neftinin dünya bazarında qiymətinin proqnozlaşdırılan qiymətinin dövlət büdcə zərfində proqnozlaşdırılandan 30 ABŞ dolları çox olması Dövlət Neft Fonduna təqribən 3 mlrd. ABŞ dolları məbləğində əlavə vəsaitin daxil olmasına səbəb olacaqdır. Bu da təqribən Dövlət Neft Fondunun büdcəsinin 2023-2026-cı illər üzrə cəmi kəsrinə bərabərdir. Beləliklə, orta müddətli dövrdə ölkədə neft gəlirləri azaldığı halda belə, investisiya qoyuluşlarının maliyyələşdirilməsi imkanları mövcuddur. Xüsusilə son illərdə ölkədə əhəmiyyətli infrastruktur obyektlərin yaradılması bu istiqamətdə investisiya resurslarına tələbatın azalmasına, digər sahələrin inkişafına investisiya resurslarının sərf edilməsinə əlverişli şərait yaradır.

Son illərdə dövlətin neft gəlirlərinin xərclənməsində əsas amil dövlət büdcəsində neftin proqnozlaşdırılan qiyməti olmuşdur. Bununla bağlı bir sıra ölkələrdə fiskal qayda tətbiq edilir. Bu da hökumətin illik borclanma həcminə, xərclərinə və dövlət borcuna qoyulan məhdudiyyətlərdir. Azərbaycanda 2022-ci ildən ortamüddətli dövr üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə və dövlət borcunun ÜDM-ə nisbətlərinin yuxarı hədlər müəyyən edilir [4]. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin hədəflənən yuxarı həddi ortamüddətli dövr üzrə 20,0 faiz, dövlət borcunun ÜDM-ə nisbətinin hədəflənən yuxarı həddi 20,0 faiz müəyyən edilmişdir [5]. Bununla belə, bu məsələdə Norveç təcrübəsinin nəzərə alınması və dövlət büdcəsinin struktur kəsrinin neft gəlirləri hesabına maliyyələşdirilməsi təklif edilir. Belə ki, neft gəlirlərinin xərclənməsinə məhdudiyyətlər iqtisadi artım tempinin azalmasına və ya investisiya fəallığının aşağı düşməsinə səbəb ola bilər.

Qeyd edilənlərlə yanaşı, ev təsərrüfatlarının qənaətə meyilliliyi aşağı olacağı proqnozlaşdırılır. Belə hal əhalinin gəlirlərinin və istehlak həcmlərinin azlığı ilə əlaqədardır. 2017-2021-ci illərdə Azərbaycanda əhalinin adambaşına düşən gəlirləri ABŞ-da yoxsulluq həddinə yaxın olmuşdur. Belə hal 2014-cü ildən sonra əhalinin paritet alıcılıq qabiliyyətinə görə gəlirlərinin azalması ilə əlaqədardır. Bütövlükdə 2021-ci ildə Azərbaycanda əhalinin paritet alıcılıq qabiliyyəti ilə adambaşına düşən gəlirləri 7120,5 ABŞ dollarına bərabər olmuşdur. Bu da yoxsulluq həddini təqribən 1,5 dəfə, ABŞ-dakı yoxsulluq həddini isə təqribən 1,1 dəfə üstə-

ləmişdir. Qeyd edilən ildə ABŞ-da ev təsərrüfatlarının adambaşına düşən sərəncamda qalan gəlirləri yoxsulluq həddindən 9,4 dəfə çox olmuşdur [30]. Bütövlükdə 2021-ci ildə paritet alıcılıq qabiliyyəti ilə ev təsərrüfatlarının adambaşına düşən sərəncamda qalan gəlirləri ABŞ-da 62334,2 ABŞ dolları, Avstriyada 41841,9 ABŞ dolları, Çexiyada 30811,5 ABŞ dolları, Norveçdə 44285,2 ABŞ dolları təşkil etmişdir [30]. Göründüyü kimi, Azərbaycanda əhalinin adambaşına düşən gəlirləri inkişaf etmiş ölkələrlə müqayisədə əhəmiyyətli dərəcədə geri qalır. Qeyd etmək lazımdır ki, dövlət büdcəsi zərfinə əsasən, 2026-cı ildə əhalinin real gəlirlərinin 2021-ci ilə nisbətən təqribən 17,2 faiz artacağı proqnozlaşdırlmışdır. Bu da qeyd edilən nisbətin əhəmiyyətli dəyişməsinə səbəb olmayacaqdır. Beləliklə, ev təsərrüfatlarının gəlirlərinin səviyyəsinin aşağı olması onların ortamüddətli dövrdə qənaət imkanlarını məhdudlaşdıracaqdır.

Korportaiv sektorun qənaəti ölkədə iqtisadi fəallıqdan və dövlətin investisiya siyasətindən asılıdır. Belə ki, Dövlət İnvestisiya Proqramı çərçivəsində həyata keçirilən investisiya qoyuluşları nəticəsində yaradılan aktivlər adətən dövlət müəssisələrinin balansına verilir. Bu da onların ümumi gəlirlərinin artımına təsir göstərir. Bununla yanaşı, ölkədə işğaldan azad edilmiş ərazilərin məskunlaşması ilə bağlı tədbirlər çərçivəsində dövlət büdcəsindən 2023-cü ildə 3,0 mlrd. manat, 2024-2026-cı illərdə isə illik 2,4 mlrd. manat xərclənməsi nəzərdə tutulmuşdur. Bu xərclər ölkədə iqtisadi fəallığa müsbət təsir göstərəcəkdir.

Cədvəl 2. Əsas kapitala investisiyanın proqnozlaşdırılan həcmi [3, s.7] (mln. manat)

	2021 (fakt)	2022 (fakt)	2023	2024	2025	2026
Cəmi	16815.5	18272.3	18703	19483.1	20419.6	21437.4
Neft sektoru	5809.2	5400.4	5718.1	5743.7	5249.3	4773.4
Qeyri-neft sektoru	11006.2	12871.9	12984.8	13739.4	15170.3	16664

Əsas fondların istifadəyə verilməsi ilə investisiya qoyuluşları arasında 1 il laq olduğunu hesab etsək, onda cədvəl 1-dən göründüyü kimi, 2022-2026-cı illərdə qeyri-neft sektorunda 65772,6 mln. manat dəyərində yeni əsas fondların istifadəyə verilməsi gözlənilir. Habelə, 2017-2021-ci illərdə qeyri-neft sektorunda əsas fondların istehlakının onların ilin sonuna dəyərinə nisbəti (amortizasiya ayırmaları) 4 faizə bərabər olmuşdur. Bu göstəricini nəzərə almaqla aparılan hesablamalar göstərir ki, cədvəl 1-də proqnozlaşdırlan əsas kapitala investisiyalar hesabına 2026-cı ildə bu sektorda yaradılan əsas fondların həcmi 2021-ci ilə nisbətən 32,3 faiz artaqcaqdır ki, bu da qeyri-neft ÜDM-nin proqnozlaşdırılan həcmi baxımından kifayətdir.

2023-2026-cı illərdə ölkədə əsas kapitala investisiya qoyuluşlarının 13 faizlə 14,2 faizinin xarici investisiya hesabına maliyyələşdiriləcəyi nəzərdə tutulur. Göründüyü kimi, ölkədə əsas kapitala investisiya qoyuluşları əsasən daxili mənbələr hesabına maliyyələşdiriləcəkdir.

Qrafik 4. Dövlət büdcəsinin əsaslı xərclərinin dinamikası (mln. man) [30]



Qrafik 4-dən göründüyü kimi, dövlət büdcəsinin əsaslı xərcləri 2023-2026-cı illərdə 2022-ci ilin faktiki göstəricisinə nisbətən azalacağı proqnozlaşdırılır. 2022-ci ildə əsas kapitala investisiya qoyuluşlarının artımı əsasən dövlət büdcəsinin əsaslı xərclərinin artımı hesabına təmin edilmişdir. Bununla belə, dövlət büdcəsinin əsaslı xərclərinin azaldılması şəraitində qeyri-neft sektorunda əsas kapitala investisiya qoyuluşlarının maliyyələşdirilməsi mənbələri qeyri-müəyyəndir. Belə ki, 2026-cı ildə qeyri-neft ÜDM-nin 2021-ci ilə nisbətən 1,3 dəfə artımı proqnozlaşdırılsa da, dövlət büdcəsinin xərclərinin əsas hissəsi qeyri-neft sektorunda xərcləndiyindən bu xərclər qeyri-neft ÜDM-in artımına birbaşa təsir göstərir. Bununla yanaşı, dövlət büdcəsinin əsaslı xərclərinin əsas kapitala investisya qoyuluşlarına nisbəti 2021-ci ildə 51,4 faiz, 2022-ci ildə 68,6 faiz təşkil etdiyi halda, 2023-cü ildə 51,6 faiz, 2024-cü ildə 45,1 faiz, 2025-ci ildə 44,0 faiz, 2026-cı ildə isə 40,4 faiz səviyyəsində nəzərdə tutulmuşdur.

Azərbaycan nisbətən kiçik ölkə olduğundan idxalın əvəz edilməsi siyasətinin uzunmüddətli inkişafa təsiri məhduddur. Bununla yanaşı, 2021-ci ildə qeyri-neft sektorunda məhsul idxalı qeyri-neft ÜDM-in 25,9 faizini, məhsul və xidmətlər idxalı isə 35,6 faizini təşkil etmişdir. Bu göstərici nisbətən kiçik ölkələrin əksəriyyətində yüksəkdir. Belə ki, 2021-ci ildə Avstriyada məhsul və xidmətlər idxalının ÜDM-də payı 55,3 faizə, Danimarkada 52,5 faizə, Çexiyada 69,8 faizə, Belarusda 66,6 faizə, Gürcüstanda 59,6 faizə bərabər olmuşdur [28]. Kiçik ölkənin daxili bazarının həcmi əksər sənaye məhsulları üzrə istehsalın minimal səmərəli ölçüsünü təmin etmir. Bununla yanaşı, araşdırmalar göstərmişdir ki, nisbətən kasıb ölkələr iqtisadiyyatın şaxələndiririlməsinə meyillidirlər və onlar adambaşına düşən gəlirlərin nisbətən yüksək səviyyəsinə çatdıqda ixtisaslaşma üçün stimullar dominant iqtisadi güc halına gəlir [19, s.84]. Yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər və bunun üçün əsas məqsəd iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır [1]. Bu baxımdan, ölkədə idxalın əvəz edilməsi hesabına milli iqtisadiyyatın şaxələndirilməsi imkanlarının müəyyən edilməsi əhəmiyyətlidir.

2015-2021-ci illərdə qeyri-neft sektoru üzrə cari əməliyyatlar balansının kəsri qeyri-neft daxilolmalarının 73,2 faizi ilə 92,0 faizi arasında dəyişmişdir. Neft gəlirlərinin azalması halında qeyri-neft sektorunun mövcud inkişaf səviyyəsi gələcəkdə mövcud həcmdə idxalı təmin etmək imkanlarına malik olmayacaqdır. Belə halda, neft gəlirlərinin azaldılması hesabına deyil, əsasən qeyri-neft sektorunun inkişaf etdirilməsi hesabına neft sektorunun idxalın maliyyləşdirilməsində payının artırılması istiqamətində tədbirlərin görülməsi zəruridir. Bu baxımdan, idxalı əvəzetmə sahələrinin inkişafı ilə yanaşı, ixracyönümlü qeyri-neft sahələrinin inkişaf etdirilməsi məqsədəuyğundur. Bu baxımdan, 2026-cı ilə qədər iqtisadi artımın əsas amillərindən biri kimi ixracın artımı nəzərdə tutulur. Belə ki, qeyri-neft ixracının həcminin 2021-ci ildə 2,7 mlrd. ABŞ dollarından 2026-cı ilə 1,8 dəfə artırılaraq 5,0 mlrd. ABŞ dollarına qədər artırılması nəzərədə tutulmuşdur. Qeyd etmək lazımdır ki, bu artım yalnız yerli resurslardan (idxal aralıq məhsulları olmadan) istifadə hesabına istehsalın artımı hesabına həyata keçirilirsə, onda qeyr-neft ÜDM-in

30 faizlik artımının 7,7 faizi ixrac hesabına, qalan hissəsi isə daxili tələbin artımı hesabına təmin ediləcəkdir. Daxili tələbin təqribən 22,3 faiz artımı həm istehlakın, həm də investisiya xərclərinin artımı hesabına təmin edilməsi mümkündür. Bununla yanaşı, qeyri-neft sektoruna birbaşa xarici investisiyanın hər il 10-15 faiz artımı halında, 2026-cı ildə birbaşa xarici investisiayanın 1.4 mlrd. ABŞ dollarına çatdırılması gözlənilir. İnvestisiya qoyuluşlarının istehsalın həcminə laqla təsir göstərdiyini nəzərə alsaq və bu laqın 1 il qəbul etsək, onda 2022-2025-ci illərdə birbaşa xarici investisiya hesabına yaradılacaq əsas fondların dəyərinin təqribən 4,2 mlrd. ABŞ dolları dəyərində qiymətləndirmək olar. Bunun da hesabına təqribən 2,4 mlrd. man. və ya 2021-ci ilə nisbətən təqribən 4,6 faiz çox əlavə dəyər yaradılması gözlənilir.

Qrafik 5. Azərbaycanda inflyasiya, faiz dərəcələri, kredit və depozit faizləri arasında marja (faizlə) [28]



Qrafik 5-dən göründüyü kimi, ölkədə 2000-2021-ci illərdə real faiz dərəcəsi və inflyasiya səviyyəsi dəyişkən olmuşdur. Bununla yanaşı, nominal borclanma və marjanın səviyyələri nisbətən sabit olsalar da, bu göstəricilər inkişaf etmiş ölkələrdəki səviyyədən əhəmiyyətli dərəcədə yüksəkdir. Belə ki, 2021-ci ildə Azərbaycanda orta borclanma faizi 16,4 faizə bərabər olduğu halda, bu göstərici Belarusda 10,1 faizə, Gürcüstanda 12,5 faizə, Çexiyada 3,2 faizə, Cənubi Koreyada 2,9 faizə, Çində 4,3 faizə bərabər olmuşdur [28]. Ölkədə faiz dərəcəsinin yüksək olması investisiya fəallığını məhdudlaşdıran əsas amillərdən biridir. Bununla yanaşı, qeyd edilən ildə marja Azərbaycanda 7,7 faizə, Belarusda 1,8 faizə, Gürcüstanda 2,2 faizə, Çexiyada 3,0 faizə, Koreyada 1,7 faizə, Çində 2,9 faizə bərabər olmuşdur. Bu göstərici həm də maliyyə bazarlarının inkişaf səviyyəsini əks etdirdiyindən, ölkədə maliyyə institutlarının təkmiləşdirilməsinə ehtiyacın olduğunu göstərir.

Azərbaycanda gəlirlərin əsas mənbəyi xalis mənfəət olmuşdur. Bunun da əhəmiyyətli hissəsini təbii resurslardan renta təşkil edir. Belə ki, Dünya Bankının hesablamalarına əsasən, 2000-2021-ci ilərdə Azərbaycanda təbii resurslardan rentanın ÜDM-də payı 14,5 faizlə 42,1 faiz arasında dəyişmişdir [30]. Milli iqtisadiyyatda əlavə dəyərdə renta nəzərə alınmadan mənfəətin payı yüksək, əmək ödənişlərinin payı isə nisbətən aşğıdır. Belə ki, ölkədə kapitaldan gəlirlərin (renta nəzərə alınmadan) əlavə dəyərdə payı 2015-2020-ci ilərdə 37,8 faizlə 54,0 faiz arasında dəyişmişdir. Bununla yanaşı, Avstriyada 2015-2021-ci illərdə xalis mənfəətin (renta da daxil olmaqla) ÜDM-də payı 20,8 faizlə 21,9 faiz arasında olmuş, Çexiyada 2015-ci ildə 29,0 faizdən 2020-ci ildə 24,6 faizə qədər azalmış, 2021-ci ildə 25,3 faiz təşkil etmişdir [30]. Belə hal əsas fondlara düşən mənfəət normasının və ya faiz dərəcəsinin aşağı olması nəticəsində olmuşdur. Məsələn, Avstriyada 2015-2020-ci illərdə əsas fondlara düşən mənfəət norması 3,0 faizlə 3,4 faiz arasında, uzunmüddətli faiz dərəcəsi isə -0,22 faizlə 1,72 faiz arasında, Çexiyada 2015-2021-ci illərdə 3,7 faizlə 4,4 faiz arasında, uzunmüddətli faiz dərəcəsi isə 0,43 faizlə 1,9 faiz arasında dəyişmişdir [30]. Qeyd etmək lazımdır ki, faiz dərəcələrinin aşağı olması əmək haqqının

artımının təmin edilməsinin mühüm amillərindən biridir. Belə ki, 2015-2020-ci illərdə Azərbaycanda əsas kapitala mənfəət norması (rentasız) 10,4 faizlə 21,5 faiz arasında dəyişmişdir. Borclanma faiz dərəcəsinin yüksək olması milli iqtisadiyyatda investisiyaya tələb edilən daxili rentabellik normasının yüksək olmasına, bu da iqtisadi fəallığa mənfi təsir göstərməklə yanaşı, əmək haqqının artımını da məhdudlaşdırmışdır. Belə ki, 2021-ci ildə ölkədə əsas fondların dəyəri 247,6 mlrd. manat və nominal borclanma faizi isə 16,4 faiz olmuşdur. Ölkədə tələb edilən gəlirlilik normasını nominal borclanma faizinə bərabər götürsək, onda əsas fondlara düşən gəlirlərin həcmi 40,6 mlrd. manat təşkil edir. Qeyd edilən ildə ölkədə əmək ödənişlərinin məbləği 22,2 mlrd. manata bərabər olduğunu nəzərə alsaq, onda ölkədə faiz dərəcəsinin 2 dəfə azaldılması hesabına qiymətlərin səviyyəsinə təsir etmədən əmək haqqını 91,5 faiz artırmaq mümkündür. Beləliklə, ÜDM-də əmək haqqının payının artımına nail olmaq və investisiya fəallığının artırmaq üçün kapitalın qiymətinin azaldılmasına ehtiyac vardır. Bununla yanaşı, faiz dərəcələrinin azaldılması ölkədə təkcə investisiya fəallığına deyil, həm də istehlakın artmasına da təsir göstərir. Belə ki, Z.Qilfasona görə, faiz dərəcəsi ilə istehlakın həcmi arasında əks əlaqə mövcuddur [16, s. 235-236]. Yəni faiz dərəcəsi azaldıqca, istehlakın da həcmi artır. Habelə C.Ostri və K.Reinhaata qeyd edirlər ki, qənaət edə bilmək üçün ev təsərrüfatları ilk növbədə yaşayış minimumuna uyğun istehlak səviyyəsinə nail olmalıdırlar, əhalinin böyük hissəsinin yaşayış minimumu səviyyəsində və ya ona yaxın səviyyədə yaşadığı ölkələrdə qənaətin faiz dərəcəsinə həssaslığı sıfıra yaxın olacaqdır [23, s.16]. Yuxarıda qeyd edildiyi kimi, əhalinin adambaşına düşən gəlirlərinin yoxsulluq səviyyəsinə yaxın olması və ev təsərrüfatlarının qənaətinin nisbətən kiçik həcmi faiz dərəcələrinin azaldılmasının qənaətin həcminə təsirini məhdudlaşdıracaqdır. Bununla yanaşı, hazırda borc vəsaitlərinin əsas kapitala investisiya qoyuluşlarının maliyyələşdirilməsində payı kiçikdir. 2021-ci ildə ölkədə 17119,8 mln. manat (kumlyativ) kredit verildiyini, əsas fondların isə 247624,5 mln. manat olduğunu nəzərə alsaq, onda verilmiş kreditlərin mövcud əsas fondların dəyərinə nisbəti 6,9 faizə bərabər olar. Habelə Azərbaycanda 2020-ci ildə maliyyə sektoru tərəfindən verilmiş kreditlərin ÜDM-ə nisbəti 15,4 faizə bərabər olduğu halda, bu göstərici Belarusda 44,9 faizə, Çilidə 147,8 faizə, Gürcüstanda 83,3 faizə, Qazaxıstanda 40,2 faizə, Norveçdə 165,8 faizə bərabər olmuşdur (30). Bütövlükdə inkişaf etmiş ölkələrdə qeyd edilən göstərici yüksək olmuşdur ki, bu da maliyyə bazarlarının inkişafı və faiz dərəcəslərinin aşağı olması ilə bağlıdır. Qeyd edilənləri nəzərə alaraq investisiya fəallığının artırılması üçün faiz dərəcəsinin azaldılması üçün dövlət tərəfindən aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilə bilər:

- Dövlət Neft Fondunun vəsaitlərinin bir hissəsinin müəyyən meyarlara cavab verən yerli banklarda yerləşdirilməsi;
- Dövlət Neft Fondunun vəsaitləri hesabına müəyyən meyarlara cavab verən kommersiya banklarının səhmlərinin alınması ilə onların kredit imkanlarının artırılması;
- İnkişaf institutları vasitəsilə ünvanlı şəkildə güzəştli kreditlərin verilməsi.

Ölkədə kommersiya kreditlərinin faiz dərəcəsinin yüksək olması milli qənaətə müsbət təsir göstərə bilər, bununla yanaşı, istehlak xərclərini məhdudlaşdırır. 2010-2020-ci illərdə ev təsərrüfatlarının real qənaəti ilə nominal depozit faizi arasında korrelyasiya əmsalı 0,27-yə, nominal borclanma faizi ilə real istehlak xərcləri arasında korrelyasiya əmsalı isə -0,86-ya, mədənçıxarma sənayesi istisna olmaqla digər sahələrə real investisiya qoyuluşları ilə nominal borclanma faizi arasında korrelyasiya əmsalı isə -0,35-ə bərabər olmuşdur. Göründüyü kimi, faiz dərəcəsinin azalması istehlak xərclərinin artımına daha əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. Buna görə də ölkədə daxili tələbin stimullaşdırılması üçün faiz dərəcəsinin azaldılması ilə yanaşı, investisiya qoyuluşlarının inkişaf institutları xətti ilə güzəştli şərtlərlə maliyyələşdirilməsinin genişləndirilməsi də məqsədəuyğundur.

İnvestisiya qoyuluşlarının gəlirliliyinin artırılmasına vergi dərəcələri əhəmiyyətli dərəcədə təsir göstərir. F. van der Ploeg and A.Veneybles ölkədə investisiya fəallığının artırmaq məqsədilə resurslardan gözlənilməz gəlirlərin ictimai kapitala qoyulmasını və ya özəl investisiyanı artıran vergi güzəştləri hesabına büdcənin azalan gəlirlərinin maliyyələşdirilməsinə yönəltməyi təklif edirlər [26]. Belə ki, iqtisadiyyatda əsas kapitalın artması əmək haqqının yüksəlməsinə, bu da

istehlakın artmasına səbəb olur. Habelə, firmaların kapitalı ilə bağlı vergilərin azaldılması onların rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından əhəmiyyətlidir. Xüsusilə kiçik ölkələrin firmalarının xarici rəqbətin təsirinə daha çox məruz qaldıqlarından belə ölkələrdə istehlaka vergilərin yüksək, istehsala isə aşağı müəyyən edilməsi yerli məhsul və xidmətlərinin qiymət baxımından rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olar. Belə ki, istehlaka tətbiq edilən vergilər hesabına istehsalla bağlı vergilərin azaldılması yerli məhsulların ucuzlaşmasına, daxili bazarda idxal məhsullarının isə qiymətinin yüksəlməsinə səbəb olur. Bu baxımdan, İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatının vergi daxil olmalarına dair stasitik bazasına əsasən, 2020-ci ildə Çexiyada məhsul və xidmətlərə vergilərin məbləği şirkətlərin mənfəət vergisinin məbləğindən 3,3 dəfə, Danimarkada 5,0 dəfə, Avstriyada 5,3 dəfə, Almaniyada 6,0 dəfə çox olmuşdur [30]. Azərbaycanda bu nisbət 2021-ci ildə 2,5 dəfə təşkil etmişdir. Araşdırmalar Azərbaycanda firmaların vergi yükünün mənfəət vergisinin və vergi amortizasiya normasının səviyyəsinə nisbətən həssas olduğunu, habelə inflyasiya səviyyəsi 0,292 faizdən böyük olduqda vergi amortizasiya norması sənayedə investisiya qoyuluşları üçün əlavə stimullar yaratmadığını göstərmişdir [10, s. 225]. Belə ki, amortizasiya ayırmaları əsas fondların tarixi dəyərindən hesablandığından, inflyasiya amortizasiya ayırmalarının real dəyərini azaldır. Vergi amortizasiya ayırmalarının diskonlaşdırılmış dəyəri ilə iqtisadi amortizasiya ayırmalarının diskontlaşdırılmış dəyəri arasındakı fərq aşağıdakı düsturla hesablanır (10, s. 220 və s. 225):

$$PV(\delta_{tax} - \delta_e) = \frac{\delta_{tax}((1+\rho)^T - (1-\delta_{tax})^T)}{(\rho+\delta_{tax})(1+\rho)^T} - \frac{\delta_e(1+\pi)((1+\rho)^L - (1-\delta_e)^L(1+\pi)^L)}{(\rho+\delta_e+\delta_e\pi-\pi)(1+\rho)^L} \quad (1)$$

(1) düsturu əsasında aparılmış hesablamalar göstərir ki, emal sənayesində inflyasiya səviyyəsi 0,32 faizdən yüksək olduqda iqtisadi amortizasiya ayırmalarının diskontlaşdırılmış məbləği vergi amortizasiya ayırmalarının diskontlaşdırılmış məbləğini üstələyir. Bu baxımdan, 2023-2026-cı illərdə ölkədə inflyasiya səviyyəsinin 2-4 faiz arasında hədəfləndiyini nəzərə alaraq mövcud vergi amortizasiya normalarının iqtisadi amortizasiya normalarına yaxınlaşdırılması üçün Vergi Məcəlləsində 114.3.2-ci maddəsində maşın və avadınlıqlara amortizasiya normasının 20 faizdən 25 faizə qədər artırılması təklif edilir. Bu hal inflyasiyanın vergi amortizasiya ayırmalarının diskontlaşdırlmış məbləği ilə iqtisadi amortizasiya ayırmalarının diskontlaşdırlmış dəyəri arasındakı fərqin mənfi həddinə uyğun olan səviyyəsini qismən artırsa da, mənfəət vergisinə cəlb edilən vergi bazasının azalmasına səbəb olacaqdır.

NƏTİCƏ

Beləliklə, ölkədə iqtisadi fəallığı artırmaq üçün investisya normasının yüksəldilməsinə ehtiyac vardır. Xüsusilə özəl bölmədə investisiya fəallığının artırılması mövcud infrastrukturun istifadə səviyyəsinin artımına səbəb olmaqla, həm də dövlət investisiyalarının səmərəliliyini yüksəldər. Bunun üçün isə mühüm addımlardan biri iqtisadi parametrlərin sabitliyinə nail olmaqla yanaşı, faiz dərəcələrinin azaldılması və investisiya fəaliyyəti üçün əlavə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı.
2. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi. Bakı: 2022.
3. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin zərfi II. Bakı, 2022.
4. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanunu.
5. "İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin

ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədləri, habelə 2022-ci ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 28 mart 2022-ci il tarixli 1637 nömrəli Fərmanı.

6. Дж.С.Милль. Основы политической экономии I. Москва: Прогресс, 1980.
7. Л.С. Тарасевич, П.И.Гребенников, А.И. Леусский. Макроэкономика. М., Высшее образование, 2006.
8. Маршалл А., Принципы экономической науки. Том 2. М.: Прогресс, 1984.
9. Смит А. Исследование о природе и причинах богатства народов. М.: Эксмо, 2007.
10. Ahmadov B. Comparative assessment of capital income taxation in Azerbaijan, Kazakhstan, Georgia, and Belarus // Journal of Eastern European and Central Asian Research, 2022, 9(2), pp. 217-228.
11. Barro R.J. Economic growth in a cross section of countries / Quarterly Journal of Economics, 106(2), 1991, pp. 407-43.
12. Bosworth B., Susan M. C. The Empirics of Growth: An Update. Washington: The Brookings Institution, 2003.
13. Edward M. Miller. Risk, Uncertainty, and Divergence of Opinion // The Journal of Finance, Vol. 32, No. 4 (Sep., 1977), 1151-1168.
14. Frank H. Knight. Risk, Uncertainty, and Profit. New York: The Riverside Press, 1921.
15. Ghosal V., P. Loungani. The differential impact of uncertainty on investment in small and large businesses // Review of Economics and Statistics, 2000, 82(2), pp. 338-349.
16. Gylfason T. Interest Rates, Inflation, and the Aggregate Consumptior Function // Review of Economics and Statistics, LXIII, May 1981, pp. 233-45.
17. Hicks J.R. Capital and Time. Oxford: Clarendon Press, 1973.
18. I.Fisher. Theory of interest. New-York: Macmillan, 1930.
19. Imbs J., Wacziarg R. Stages of diversification // American economic review, 2003, 93(1), pp. 63-86.
20. Keynes J.M. The general theory of employment, interest and money. London: Macmillan, 1936.
21. Levine R., Renelt D. A sensitivity analysis of cross-country growth regressions // American Economic Review, 1992,82(4), pp. 942-63.
22. McDonald R., D.R. Siegel. The value of waiting to invest // Quarterly Journal of Economics 1986, 101, pp. 707-72
23. Ostry J.D., Reinhart C.M. Saving and the real interest rate in developing countries // Finance and Development, 1995, 32, pp. 16-19.
24. Pesaran M. H., Shin Y., Smith R.J. Bounds testing approaches to the analysis of level of relationship // Journal of Applied Econometrics, 2001, 16 (3), pp. 289-326.
25. Servén L. Macroeconomic Uncertainty and Private Investment in Developing Countries: An Empirical Investigation. Policy Research Working Paper, No. 2035, World Bank, 1998.
26. van der Ploeg F., A.J. Venables. Harnessing Windfall Revenues: Optimal Policies for Resource-Rich Developing Economies // The Economic Journal, 2011, 121(551), pp. 1-30.
27. World Economic Outlook Update, January 2023: Inflation Peaking amid Low Growth. İMF, 2023.

28. https://data.worldbank.org/indicator
29. https://oilfund.az/report-and-statistics/report-archive
30. https://stats.oecd.org
31. https://www.eia.gov/outlooks/steo/tables/pdf/2tab.pdf
32. https://www.worldbank.org/en/research/commodity-markets

SOME ASPECTS OF INCREASING INVESTMENT ACTIVITY IN AZERBAIJAN

Baghish AHMADOV

SUMMARY

The article discusses the factors influencing investment activity in the national economy. The formation of investment resources in Azerbaijan and the impact on it of the volume of oil revenues were also studied. In particular, the prospects for changes in the volume of national savings were assessed. Here, in the medium term, the dynamics of both government savings and savings of the corporate sector and households was studied. There are also proposals to increase investment activity. These proposals mainly include interest rate cuts, tax breaks and risk reduction.

Key words: *investments, national savings, oil revenues, interest rate*

Məqalə redaksiyaya daxil olub: 01.03.2023
Çapa qəbul olunub:17.04.2023

“İQTİSADİ İSLAHATLAR”
elmi-analitik jurnal

GƏLİRLƏR VƏ SOSİAL SİYASƏTİN TƏNZİMLƏNMƏSİNİN ELMİ-PRAKTİKİ MƏSƏLƏLƏRİ

№ 1(6)-2023, səh. 35-42

Vahid ABBASOV,
Bakı Dövlət Universiteti,
İqtisadiyyat kafedrasının müdiri,
iqtisad elmləri doktoru, professor

Seyran MİRCƏFƏROV,
Bakı Dövlət Universiteti,
İqtisadiyyat kafedrasının magistrantı

vahid.abbasov.56@mail.ru

Gəlirlər və sosial siyasətin tənzimlənməsinin elmi-praktiki məsələləri

i.e.d., prof. Vahid ABBASOV,
Bakı Dövlət Universiteti,
İqtisadiyyat kafedrasının müdiri

Seyran MİRCƏFƏROV,
Bakı Dövlət Universiteti,
İqtisadiyyat kafedrasının magistrantı

XÜLASƏ

Məqalədə gəlirlər və sosial siyasətin tənzimlənməsinə dair normativ-hüquqi mənbələr və iqtisadi məktəblərin elmi-nəzəri yanaşmalarına istinadən iqtisadi tənzimlənmənin bazar və dövlət mexanizmlərindən istifadənin prioritetləri xülasə olunmuşdur. Əmək fəaliyyətlərindən əldə olunan gəlirlər arasında diferensiallaşma səviyyəsinin yaranma səbəbləri, işsizlik və məşğulluğa təsiri nəzərə alınaraq ölkəmizdə yoxsulluğun müəyyən edilməsi və gələcəkdə bu istiqamətdə praktiki addımlar atılması zərurətləri nəzərdən keçirilmişdir. Bu məqsədlə stabil iqtisadi artımın təmin edilməsində əsas göstəricilərdən biri olan əhalinin ümumi sayında yoxsul əhalinin xüsusi çəkisinin beynəlxalq təcrübədə müəyyənləşmiş həddən yuxarı olmamasına nail olmağın şərtləri və yolları müəyyənləşdirilmişdir.

***Açar sözlər**: gəlirlər, sosial siyasət, məşğulluq, yoxsulluq, tənzimləmə, sosial qruplar*

***JEL kodu:** B55; D31; H55*

GİRİŞ

Milli iqtisadi təhlükəsizliyin və stabil iqtisadi artımın təmin edilməsində əsas hədəflərdən biri, əhalinin ümumi sayında yoxsul əhalinin xüsusi çəkisinin beynəlxalq təcrübədə müəyyənləşmiş həddən yuxarı olmamasına nail olmaqdan ibarətdir. Dövlətin həyata keçirdiyi xüsusi sosial tədbirlərin hazırlanması və həyata keçirilməsinin nəticəsidir ki, ölkədə təmsil olunan sosial qruplar üzrə yoxsulluğun səviyyəsinin aşağı salınması istiqamətində xeyli dərəcədə müsbət irəliləyişlərə nail olunmasına baxmayaraq, sosial ədalətliliyin təmin olunması istiqamətində hələ də görülməsi vacib olan məsələlər öz həllini gözləməkdədir.

Bütövlükdə dünya təsərrüfatçılığında və ayrı-ayrı ölkələrin milli iqtisadi sistemində vaxtaşırı baş verən tsiklik proseslər, resurslar bazarında qiymət dəyişiklikləri, elmi-texniki tərəqqinin sürətlənməsi nəticəsində innovativ proseslərin intensiv xarakter alması tələblə təklif arasında, gəlirlərlə xərclər arasında, əmtəə və pul bazarında, əmək bazarında makroiqtisadi tarazlıqların pozulmasına səbəb olur ki, bu da inflyasiya proseslərinə, işsizlik və məşğulluğa, müxtəlif sosial qrupların gəlirlərindəki balanslaşmanın pozulması ilə meydana çıxan təbəqələşməyə, yoxsulluğun artmasına, büdcə kəsirinin yaranması ilə müşaiyət olunan dövlət borclarının artması kimi məsələlərin meydana çıxmasına səbəb olmaqla mikroiktisadi, makroiqtisadi, mezoiqtisadi və meqoiqtisadi səviyyələrdə formalaşan gəlirlərin və sosial siyasətin iqtisadi tənzimlənmə məsələlərini aktuallaşdırır.

GƏLİRLƏR VƏ SOSİAL SİYASƏTİN TƏNZİMLƏNMƏSİNİN MİLLİ İQTİSADİ SİSTEMDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

Gəlirlər və sosial siyasətin tənzimlənməsi mikro, mezo və makro səviyyələrdə iqtisadi problemlərin öyrənilməsinin nisbətən gənc və yeni bir bölməsi olub, bütövlükdə ölkənin milli iqtisadi sisteminin mövcud vəziyyətinin tədqiqi və inkişaf meyilləri ilə müəyyən olunan mürəkkəb iqtisadi problemlərin əhatə dairəsini, milli və beynəlxalq səviyyələrdə qarşılıqlı yanaşma üsulları, habelə həlli vacib problemlərin aradan qaldırılması, bu məqsədlə bazar və

dövlət tənzimlənməsi mexanizmlərindən necə istifadə olunması barəsində müxtəlif fikirləri əhatə edir. Bu fikirləri bölüşən iqtisadçıların bir qrupu, əsasən də klassiklər və neoklassiklər makroiqtisadi səviyyədə hər bir ölkənin ən vacib iqtisadi resurslarla təmin olunma səviyyəsindən asılığını nəzərə almadan, dövlətin ölkənin təsərrüfat həyatına müdaxiləsinin əleyhinə çıxaraq bu siyasət nəticəsində milli təsərrüfatçılıq subyektlərinə gözlənilən müsbət dəyişikliklərdən çox, zərərli nəticələrə səbəb ola biləcəyi fikirlərini əsaslandırmağa çalışırlar (1). Başqa bir qrup, keynsçilər və neokeynsçilər isə əksinə, dövlətin makroiqtisadi bütövlükdə iqtisadiyyatın tarazlı inkişafının tənzimlənməsi prosesinə müsbət təsir göstərəcəyini irəli sürmüşlər. Eyni zamanda makroiqtisadi siyasət səviyyəsində dövlətin ölkənin təsərrüfat həyatının hansı problemləri ilə və hüdudlar daxilində məşğul olması məsələləri də ciddi mübahisələr doğurmuşdur. C.M.Keyns “iqtisadiyyatın dövlət tənzimlənməsi” konsepsiyasını irəli sürüb əsaslandırmışdı. İqtisadiyyatda baş verən yeni proseslər və perspektiv meyillərə dair keynsçi ideyalar onun “Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi” (1936) kitabında hərtərəfli təhlil olunmuşdur. O göstərirdi ki, daxili-xarici təsərrüfat əlaqələrinin mürəkkəbləşdiyi bir şəraitdə sərbəst bazar vasitəsilə məşğulluq, maliyyə resurslarından səmərəli istifadə, iqtisadiyyatın dinamik inkişafını təmin etmək mümkün deyildir. Ona görə də iqtisadiyyatda bazar münasibətləri prinsiplərini saxlamaqla yanaşı, bu münasibətlər sistemini hökmən tənzimləmək lazımdır. Bu mənada C.Keynsin iqtisadi təlimi dövlət tənzimlənməsi sisteminə əsaslanan makroiqtisadi nəzəriyyədir ki, 1929-1933-cü illərdə yaranmış iqtisadi böhrandan çıxış yollarına dair arqumentləşdirilmiş fikirlər geniş yer almışdır.(3).

Mikroiqtisadi və makroiqtisadi səviyyələrdə inkişaf etməkdə olan kooperasiyalaşma və inteqrasiyalaşma prosesləri müasir mərhələdə daha intensiv xarakter alaraq planetar miqyasda qloballaşma proseslərini ön plana çəkərək təbii resurslarla zəif təmin olunmuş milli iqtisadi sistemlərə təsirdə adekvat olmayan iqtisadi güclərə çevrilmiş, müxtəlif coğrafi məkanlarda liberal dəyərlərə əsaslanan bazar iqtisadiyyatı prinsiplərinin reallaşmasına mane olmaqla, ayrı-ayrılıqda müstəqil iqtisadi siyasət aparmağa çalışan ölkələrdə milli maraqların təmin olunmasında sosial-iqtisadi problemləri dərinləşdirmişdir. Gəlirlərin bölgüsündə, işsizlik və yoxsulluğun azaldılmasında və məşğulluğun artırılmasında ikitərəfli iqtisadi münasibətlərdə yaranmış ziddiyyətli proseslərin dövlət tərəfindən tənzimlənməsi, fərdi təsərrüfat subyektlərinin operativ idarə olunmasındakı məqsədlərindən irəli gələrək real şəraitlərə uyğunlaşmanı tələb edir.

Bütün bu qeyd olunan problemlər həm mikroiqtisadi, həm də makroiqtisadi səviyyələrdə yaranan gəlirlərin ümumi səviyyəsinə, bu gəlirləri formalaşdıran qiymət və qeyri-qiymət amillərinin təsir mexanizmlərinin standartlaşdırılmasını ardıcıllıqla müəyyən olunmuş qaydalarla tənzimlənməsində imkan və bacarıqların səfərbər olunmasını zəruriləşdirir. Hər şeydən əvvəl ümumi daxili məhsulun tərkibini formalaşdıran gəlirlərin həcmi və bu gəlirlərdə mühüm rol oynayan qiymətlərin dəyişkənliyi səviyyəsi nəzərdən keçirilməsini tələb edir. Nəzərdə tutulan ümumiləşdirici iqtisadi göstəricilərin öyrənilməsi milli gəlirin artırılması şərtlərinə uyğun olaraq milli gəlirin istehlak və yığım fondlarına yönəldilməsinin optimal variantlarını müəyyənləşdirməsi ilə yanaşı, digər makroiqtisadi göstəricilərlə əhalinin həyat səviyyəsini müəyyən edən müxtəlif növ gəlirləri arasındakı qarşılıqlı əlaqəni müəyyən etməklə yanaşı, dövlət tənzimlənməsini həyata keçirməyə imkan verən təsiredici amillərin hərtərəfli təhlil olunmasına şərait yarada bilər.

Əmək bazarında müxtəlif əmək fəaliyyətlərindən əldə olunan əmək gəlirləri arasında diferensiallaşma səviyyəsinin yüksək olması ilə meydana çıxan makroiqtisadi qeyri-sabitlik şəraitində işsizlik problemləri kəskinləşərək tənzimləmə proseslərini zəruriləşdirməklə qeyri-sabitliyi doğuran obyektiv və subyektiv xarakterli amillərin səfərbər edilməsinə, işsizliyin müxtəlif formalarına səbəb olan sosial-iqtisadi nəticələrin tənzimlənməsinə, habelə əhalinin məşğulluğunun artırılması sayəsində gəlirlərin sabitliyinin təmin edilməsi siyasətinə dair tədbirlərin həyata keçirilməsinə zərurət yaranmaqdadır.

Milli iqtisadiyyatın makroiqtisadi təhlilində gəlirlər və xərclər arasında kəmiyyət

dəyişikliklərini məcmu tələblə məcmu təklif səviyyəsində öyrənərkən, çoxamilli proseslərin mahiyyəti açıqlanmalı, istehsalın və istehlakın həcmi, qiymətlərin səviyyəsində baş verən dəyişikliklərin ətraflı izah edilməsi üçün qrafik təsvirlərin verilməsi, müqayisəli təhlillərin aparılması ilə müşaiyət olunan tədqiqat üsullarından ardıcıllıqla və sistemli şəkildə istifadə olunması məqsədə uyğun hesab edilə bilər. Bu təhlillər büdcə gəlirlərini formalaşdıran vergi ödəmələri nəticəsində ölkədə fiskal siyasətin iqtisadi və hüquqi bazasını müəyyən edərək, bankların pul-kredit siyasətinin, büdcənin gəlir və xərclərinin balanslaşdırılmasının, vergilər və gömrük mexanizmləri sistemindən yararlanaraq dövlətin daxili və xarici borclarının, habelə bununla bağlı problemlərin həlli yollarının sistemli həllinə yönəldilməklə tamamlanır.

Milli iqtisadiyyatın artım tempinə təsir edən amillər, iqtisadi artımın forma və tipləri, gəlirlər və əhalinin həyat səviyyəsi, beynəlxalq valyuta münasibətləri, iqtisadi inteqrasiya və müasir qloballaşma prosesləri yaranmış konkret şəraitlərdən asılı olaraq milli maraqlara uyğun şəkildə tənzimlənir.

BAZAR İQTİSADİYYATINDA SOSİAL SİYASƏTİN MAHİYYƏTİ VƏ VƏZİFƏLƏRİ

Bir sıra obyektiv və subyektiv səbəblərdən bazar iqtisadiyyatı sistemi gəlirlərin səmərəli bölüşdürülməsi və əhalinin sosial problemlərini səmərəli həll edilməsi istiqamətindəki tədbirləri həyata keçirməyə qadir deyil. Müxtəlif bazar iqtisadiyyatı modellərinə malik olan ölkələrdə sosial-iqtisadi problemlərin həlli dövlət qurumlarının iştirakı ilə həyata keçirilsə də, sosial və liberal yönümlü bazar iqtisadiyyatı modellərinə aid olan ölkələrdə tənzimlənmənin intensivləşmə dərəcəsi və mexanizmləri bir-birlərindən fərqlənirlər. Bir əsas reallıq ondan ibarətdir ki, bütün ölkələrdə dövlətin mühüm tənzimləyici və bölüşdürücü funksiyalarından istifadə edərək səmərəli sosial siyasətin reallaşdırılmasına nail olmaqla bağlıdır. Sosial siyasət dövlətin ümumi iqtisadi siyasətinin tərkib hissəsi olmaqla ilk növbədə aşağıdakı bir sıra taktiki və strateji məsələlərin operativ həllinə mümkün qədər operativ müdaxilə etmək və praktiki baxımdan yardımların göstərilməsinə yönəldilməsidir:

- ayrı-ayrı iqtisadi rayonlar üzrə əhalinin sosial cəhətdən zəif təbəqəsini müəyyənləşdirmək üçün müxtəlif fəaliyyət sahələri üzrə orta aylıq əmək haqqı və natural gəlirlərin məbləğini müəyyənləşdirmək;
- minimum əmək haqqı, yaşayış minimumu, təqaüdün minimum səviyyəsi və s. sosial standartların təmin olunma səviyyəsini müəyyənləşdirmək əsasında onlara müvafiq imtiyazların tətbiqi zəruriliyini;
- işsizliyin aradan qaldırılması və məşğulluğun artırılmasına şərait yaratmaq;
- əhalinin ödənişli iqtisadi fəaliyyətlərə cəlb etmək və özünüməşğulluqla bağlı sosial xidmətlərlə təmin edilməsinə şərait yaratmaq;
- sosial infrasturuktur sahələrinin dövlət və bazar mexanizmləri əsasında maliyyələşdirilməsi və inkişaf etdirilməsi məsələlərinə himayədarlıq siyasəti aparmaq və s.

10. IMF BOP stat-istics; IMF, World Economic Outlook Data-base; and Mauro, P., Romeu, R., Binder, A. and Zaman, A. (2013): "A Modern History of Fiscal Prudence and Profligacy," IMF Working Paper No. 13/5
11. IMF and European Commission - https://data.imf.org/?sk=388dfa60-1d26-4ade-b505-a05a558d9a42
12. Bureau of Economic Analysis (BEA), United States Synopsis of results from Ca'Zorzi, M., Hahn, E., Sanche, M. (2007): "Exchange Rate Pass Through in Emerging Markets", ECB Working Paper No. 739, Choudhri, E., Faruquee, H., Hakura, D. (2002): "Explaining the Exchange Rate Pass-Through in Different Prices", IMF Working Paper. WP/02/224, Razafimahefa, I. (2012): "Exchange Rate Pass-Through in Sub-Saharan African Economies and its Determin-ants", IMF Working Paper WP/12/140, Stulz
13. "Exchange Rate Pass-Through in Switzerland: Evidence from VARs", SNB Studies No. 4; and World Bank, World Development Indicators database, 2007
14. Bank of England, World Bank WDI, and Reinhart, C., Rogoff, K. (2010): "From Financial Crash to Debt Crisis," NBER Working Paper 15795, March 2010
15. Samuel L. (2008). The Baku-Tbilisi-Kars Railroad And Its Geopolitical Implications For The South Caucasus. Caucasian Review Of International Affairs. Vol. 2 (4), pp. 212-224.
16. Gourinchas, P., Rey, H. (2013): "External Adjustment"
17. Global Imbalances and Valuation Effects", in: Gopinath, G., et al. (eds.), Handbook of International Economics, Volume IV
18. IMF, World Economic Outlook, May 1997; T.N. Srinivasan and Jagdish Bhagwati, "Outward Orientation and Development: Are the Revisionists Right?", Yale University Economic Growth Center Discussion Paper No. 806, 1999; and Jeffrey Frankel and David Romer, "Does Trade Cause Growth", American Economic Review, June 1999.

19. David Dollar, "Globalization, Inequality, and Poverty since 1980", World Bank mimeo, 2001.
20. David Dollar, "Growth is Good for the Poort" op. cit., 2001.
21. David Dollar and Aart Kraay, "Trade, Growth, and Poverty", World Bank mimeo, 2001.
22. David Dollar, "Globalization, Inequality, and Poverty since 1980", World Bank mimeo, 2001.
23. Steven Matusz and David Tarr, "Adjusting to Trade Policy Reform", World Bank Policy Research Working Paper No. 2142, July 1999.

EFFECTS OF FOREIGN TRADE ON THE ECONOMIC GROWTH

Vusala JAFAROVA

SUMMARY

Trade openness increasing the availability of labor and capital factors of production, thereby leading to higher total factor productivity. Countries that are open to trade tend to have faster rates of potential GDP growth. Foreign trade also involves risks, but overall the benefits of openness outweigh the risks. For this reason, macroeconomic planning should target to maintain external balance without reducing openness, as well as to achieve economic growth by applying policies that increase openness through the regulation of the external sector. The article analyzes five benefits of trade openness - a country's ability to borrow and lend abroad, as well as current account imbalances, either surpluses or deficits. Paper also presents the effects of trade liberalization on economic growth, factors that increase competitiveness of exports and productivity growth.

***Keywords**: economic growth, GDP, export, import, external balance.*

Məqalə redaksiyaya daxil olub: 05.01.2023
Təkrar işlənməyə göndərilib: 02.03.2023
Çapa qəbul olunub: 17.04.2023

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

AZƏRBAYCANDA BÜDCƏ XƏRCLƏRİNİN EMAL SEKTORUNUN İNKİŞAFINA TƏSİRİ

№ 1(6)-2023, səh. 55-69

Rüxsarə SEYFULLALI,
Azərbaycan Texniki
Universitetinin dissertantı

rukhsara.seyfullali@aztu.edu.az

Azərbaycanda büdcə xərclərinin emal sektorunun inkişafına təsiri

Rüxsarə SEYFULLALI,
Azərbaycan Texniki Universitetinin dissertantı

XÜLASƏ

İqtisadi ədəbiyyatda dövlətin iqtisadi inkişaf üçün "böyük təkan"ı yaratmaq imkanlarına dair müxtəlif mülahizələr mövcuddur. Bu məsələ iqtisadi institutları formalaşma mərhələsində olan və təbii resurslarla zəngin olan Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatın məqsədi dövlətin büdcə xərcləri və emal sektorunun inkişafı arasında əlaqələri tədqiq etməkdir. 2005-2021-ci illəri əhatə edən tədqiqatda dövlətin investisiya və təhsil xərcləri, emal və digər sektorlarda real ÜDM üzrə dinamikanın müqayisəsi aparılmış, ən kiçik kvadratlar metodu ilə reqressiya tənliyi qurulmuşdur. Əldə edilən nəticələr dövlət xərclərinin emal sektoruna təsirinin arzu edilən səviyyədə olmadığını təsdiqləmişdir. Azərbaycanda dövlətin investisiya, təhsil və digər xərclərinin sürətlə artması fonunda ölkənin ixrac potensialına birbaşa təsir göstərməyən ticarət, təmir, tikinti, nəqliyyat, rabitə və digər sektorların (ixracı və idxalı fiziki baxımdan mümkün olmayan əmtəə və xidmətlərin istehsalçıları) emal sektoruna nisbətən daha yaxşı inkişaf etməsi faktı da dövlət xərclərinin emal sektorunun dəstəklənməsində o qədər də təsirli rol oynamadığını göstərir. Belə vəziyyətin yaranma səbəblərini müəyyən etmək üçün dövlət tənzimlənməsinin keyfiyyəti, dövlət və sahibkarlar arasında informasiya asimmetriyasının səviyyəsi, Azərbaycanın emal sektorunda sahibkarlıq motivasiyası, resurs əlçatanlığı, xarici rəqabət və digər amillərin tədqiqinə ehtiyac vardır.

Açar sözlər: *dövlətin investisiya və təhsil xərcləri, emal sektoru, iqtisadi artım.*
JEL kodu: *G30; H60; H72; L50; L60*

GİRİŞ

Müəyyən bir cismin sükunət halından çıxarılması və hərəkətə gətirilməsi üçün müəyyən miqdarda qüvvənin lazımi istiqamətdə tətbiqi tələb olunur. Bu qüvvənin miqdarı cismin kütləsi, toxunma səthinin sahəsi, ölçüləri, konfiqurasiyası və digər fiziki göstəriciləri əsasında müəyyən edilir. Qüvvənin miqdarına hərəkət istiqamətində mövcud olan maneələr də təsir göstərir. Əgər cismin hərəkət istiqaməti bizə bəllidirsə və tətbiq edə biləcəyimiz qüvvə cismi hərəkətə gətirmək üçün kafi deyilsə, onda bu qüvvənin tətbiqi üçün sərf olunan enerjinin nəticəyə görə faydalılığı sıfıra bərabər olacaq.

İqtisadi sistemdə də belə qanunauyğunluq müşahidə olunur. İqtisadiyyatın dövlət tənzimlənməsi tənzimləmə obyektinin (sahənin, iqtisadi fəaliyyət növünün) seçilməsi (iqtisadi sistem üçün prioritetlik), obyektin xüsusiyyətlərinin öyrənilməsi və bu əsasda ona təsir alətlərinin seçilməsi, seçilmiş tənzimləmə aləti üçün zəruri miqdarda resursların təmin edilməsi, təsirin həyata keçirilməsi və nəticələrin ölçülməsi kimi prosesləri özündə ehtiva etməlidir.

İqtisadi ədəbiyyatda dövlətin iqtisadi proseslərə müdaxiləsinin müsbət və mənfi cəhətləri, eləcə də bu müdaxilənin sərhədləri və istiqamətləri barədə kifayət qədər elmi araşdırmalar aparılmışdır (Hayek, 1945; Reagan, 1987; Shapiro and Willig, 1990; Levy and Spiller, 1994; Laffont and Tirole, 1993, 2000; Stiglitz, 1998; Newbery, 1999; North, 1990; Rodrik et all, 2004; Grossman and Hart, 1986; Yarow, 1999; Barro, 1997; Hall and Jones, 1999; Kauffman and Kraay, 2002; Sachs və Warner, 1995; Acemoğlu et all, 2000; Olson et all, 1998; D.Acemoğlu, 2019; D.Rodrik, 2004; K.Polani, 2002; M.Todaro and S.Smith, 2020; Laffont, 2005; Montmartin and Herrera, 2015).

Lakin iqtisadi tənzimləmə alətlərinin səmərəliliyi, bu səmərəliliyə təsir göstərən zəruri və kafi şərtlər barədə müzakirələr bu gün də davam edir. Bu məsələ iqtisadi institutları formalaşmaqda olan və təbii resurslarla zəngin olan ölkələrdə xüsusi aktuallığı ilə seçilir.

Dövlət xərcləri inkişaf etməkdə olan ölkələrdə "böyük təkan" üçün kifayət qədər cəlbedici tənzimləmə aləti hesab olunur. Xərclərin effektivliyi onların fiziki məhsuldarlığı ilə yanaşı, ilkin məbləğinin miqdarından da asılıdır. Müəyyən iqtisadi nəticəni almaq üçün sərf edilən məbləğin hədləri ola bilər. Bu hədlər emal müəssisəsinin yaranması və inkişafı üçün minimal bazar tutumu, bazarın cəlbediciliyi, xərclərin səviyyəsi, tələb olunan ilkin investisiya, resursların əlçatanlığı, sahibkarlıq qabiliyyəti, işgüzarlıq mədəniyyəti, institutlar və digər sosial-iqtisadi amillərin təsiri ilə müəyyən edilə bilər.

Keyns təlimindən məlumdur ki, dövlət xərcləri daxili tələbatı stimullaşdırmaqla iqtisadi artımı dəstəkləyə bilər. Eyni zamanda ölkənin xərc üsulu ilə müəyyən edilən ümumi daxili məhsulunun əsas toplananlarından (dövlət xərcləri, əhalinin xərcləri, investisiyalar və xalis ixrac) biri məhz dövlət xərcləridir. İqtisadi ədəbiyyatda dövlət xərcləri multiplikatoru anlayışından da geniş istifadə edilir. Amma dövlət xərclərinin iqtisadi artıma təsiri birmənalı xarakter daşımır. Doqquz postsovet ölkəsinin timsalında aparılmış tədqiqat göstərmişdir ki, Latviya, Litva, Özbəkistan, Gürcüstan və Ukraynada Vagner qanunu, Estoniya, Azərbaycan, Qırğızıstan və Moldaviyada isə Keyns hipotezi özünü daha çox doğruldur (Abbasov and Aliyev, 2018).

Dövlət xərclərinin gəlirlə təmin edilməyən artımı büdcə kəsirinin artımına və ya borcların yüksəlməsinə gətirməklə makroiqtisadi sabitliyin pozulmasına rəvac verə bilər. Digər tərəfdən, dövlət tənzimləməsinin səmərəliliyi, korrupsiya imkanlarının mövcudluğu, tənzimləmənin ələ keçirilməsi, amil qiymətlərinin təhrifi və dövlətin digər təsirləri dövlət xərclərinin daxili istehsalın artımında müsbət rolunu əhəmiyyətli dərəcədə azalda, hətta daxili istehsala zərər vura bilər (dövlət xərclərinin artımı üçün vergi və rüsumların artırılması və digər hallarda).

İqtisadi artımın "böyük təkan" yanaşmasının ardıcılları da ölkədə resurs bolluğu ilə iqtisadi artım arasında əlaqələrin təbiətinin birmənalı olmadığını bildirirlər (Krugman və b). Bu yanaşmaya görə, təbii resurs bumu kasıb ölkələrdə inkişafın katalizatoru ola bilər. Lakin, iqtisad elmində "təbii resurs bumu inkişafı sürətləndirir, yoxsa ləngidir?" sualına birmənalı cavab hələ də yoxdur. Apardığımız tədqiqatda əsas məqsəd resurs bumunu yaşayan Azərbaycanda büdcə xərcləri ilə ölkənin daha dayanıqlı inkişafını təmin edə bilən emal sektorunun inkişafı arasında əlaqələri tədqiq etməkdir.

Tədqiqatda dövlət xərcləri vasitəsilə tənzimləmənin nəzəri əsasları bazar institutları formalaşma mərhələsində olan və təbii resurslarla zəngin olan ölkə timsalında sınaqdan keçirilir, dövlət xərcləri ilə tənzimləmə qərarlarının qəbulu prosesi üçün əsaslandırılmış arqumentlər təqdim edilir.

ƏDƏBİYYAT İCMALI

Vagner qanununa görə, iqtisadi artım dövlətin vergi və digər gəlirlərinin artımına, bu da dövlətə əhalinin ictimai mallara tələbatının daha yaxşı ödəməsi üçün xərcləri artırmağa imkan verir - yəni iqtisadi artım dövlət xərclərinin artımına səbəb olur. Bu qanunda dövlət xərclərinin iqtisadi artıma səbəb olması barədə mülahizə yoxdur (Henrekson, 1993).

Bəzi tədqiqatlarda isə ölkənin iqtisadi artımı ilə büdcə xərcləri arasında əlaqələrin olmadığı iddia edilir. Çin və Tayvanda 1979-2002-ci illərdə iqtisadi artımla büdcə xərcləri arasında əlaqələrin tədqiqi uzun müddətli dövrdə bu iki göstərici arasında əlaqənin olmadığını, eləcə də Vagner qanununun həmin dövrdə Çin və Tayvan üçün özünü doğrultmadığını göstərmişdir (Chiung-Ju Huang, 2006).

İƏİT və Avropa İttifaqı ölkələrində dövlət gəlirləri və xərcləri ilə iqtisadi artım arasında əlaqələrin tədqiqi göstərmişdir ki, dövlətin həm gəlirləri, həm də xərcləri iqtisadi artıma mənfi təsir göstərir. Bu ölkələrdə dolayı vergilər, sosial ayırmalar, dövlət istehlakı, subsidiyalar və dövlət investisiyaları kimi göstəricilərin həm həcmi, həm də dəyişkənliyi iqtisadi artıma statistik baxımdan əhəmiyyətli və güclü mənfi təsir göstərir (Afonso and Furceri, 2010).

Bəzi tədqiqatlarda dövlət xərcləri ilə iqtisadi artım arasında mənfi əlaqələrin mövcudluğu

barədə fikirlərin o qədər də etibarlı olmadığı, əksinə, dövlət xərcləri ilə artım arasında müsbət əlaqələrin daha inandırıcı olduğu sübut edilir (Folster and Henrekson, 2001). Müasir iqtisad elmində belə rəy də mövcuddur ki, inkişaf etmiş zəngin ölkələrdə artımı dəstəkləyən dayanıqlı institutlar artıq formalaşıb və artımın dəstəklənməsi üçün dövlətin müdaxiləsinə daha ehtiyac qalmır. Məhz belə ölkələrdə dövlət xərclərinin artımı iqtisadi artıma mənfi təsir göstərir.

Sachs və Varner Latın Amerikasının yeddi ölkəsinin timsalında təbii resurs bumunun bəzən adambaşına ÜDM-in azalmasına gətirdiyini, ölkələrin xarici ticarətdə hansı mallar üzrə ixtisaslaşmasının bu məsələdə mühüm rol oynadığını göstərmişlər. Belə ki, onların tədqiqatında təbii resursların və həmin resurslardan hazırlanan malların ixracında ixtisaslaşan Latın Amerikası ölkələrinin əvvəlcə əməktutumlu, sonra isə kapital və elm tutumlu məhsullarda (emal sektorunun müxtəlif sahələrində) ixtisaslaşan Şərqi Asiya ölkələrindən xeyli geridə qaldığı aşkar edilmişdir. Onların fikrincə, təbii resurs bumunun uzunmüddətli iqtisadi inkişafa səbəb olması ölkədə miqyasda artan faydalılığın hansı sektora aid olması ilə bağlıdır. Əgər artan faydalılıq ticarət olunmayan (ixracı fiziki baxımdan mümkün olmayan) məhsullar üzrə ixtisaslaşan xidmət, topdan və pərakəndə ticarət, daxili turizm, daxili nəqliyyat, tikinti və digər sektorlara aiddirsə, onda bum bu sektorlar üçün daha çox tələbat yaradacaq və həmin sektorlar hesabına iqtisadi artım yüksələcək. Artan faydalılıq ticarət olunan mallar (ixracı fiziki baxımdan mümkün olan məhsullar– xammal, material, hazır məhsul, daşınan xidmətlər və s.) üzrə ixtisaslaşan sektorlara aid olduqda isə bum əks effekt yaradır və həmin sahələrin inkişafını ləngidir. Buna misal olaraq, Holland sindromunu göstərə bilərik. Amma təbii resurslarla zəngin olan Avstraliya, Kanada, Yeni Zelandiya, Norveç və İsveç kimi ölkələrdə miqyasda artan faydalıqlı emal sahələrinin inkişaf etməsi bu qənaətin də birmənalı olmadığını, resurs gəlirlərinin necə istifadə edilməsinin nəticələrə əhəmiyyətli təsir göstərdiyini əks etdirir (Sachs and Warner, 1999).

Bir sıra tədqiqatlarda dövlət xərclərinin iqtisadi artıma təsiri idarəetmənin (tənzimləmənin) keyfiyyəti nəzərə alınmaqla araşdırılır. Bu göstəriciləri nəzərə alan modeldə dövlət xərcləri dövlətin ölçüsü (iqtisadiyyata müdaxilə baxımından), keyfiyyət isə dövlət idarəçiliyinin səviyyəsi kimi qəbul edilir. 71 ölkənin timsalında və gəlirlərin bölgüsü nəzərə alınmaqla Kobb-Duqlas istehsal funksiyasının genişləndirilmiş forması əsasında aparılan tədqiqatda müəyyən edilmişdir ki, həm dövlət xərcləri, həm də idarəetmənin keyfiyyəti iqtisadi artım üçün mühüm əhəmiyyət kəsb edir. Bu tədqiqatda dövlət idarəetməsinin keyfiyyəti müvafiq ballarla qiymətləndirilən aşağıdakı göstəricilər əsasında müəyyən edilir (Cooray, 2009; Kaufmann et al. 2006):

- səsvermə hüququ və hesabatlılıq (vətəndaşların dövlət qərarlarının qəbulunda iştirak səviyyəsi);
- siyasi sabitlik və zorakılığın olmaması - hökumətin siyasi zorakılığa və terrora qarşı dayanıqlığını ölçür;
- hökumətin effektivliyi - hökumətin effektiv siyasəti həyata keçirmək və qarşılıqlı inamı dəstəkləmək qabiliyyətini ölçür;
- tənzimləmə keyfiyyəti – hökumətin özəl sektorun iştirakını təşviq edən sağlam siyasəti formalaşdırmaq və həyata keçirmək bacarığı;
- qanunun aliliyi – mülkiyyət hüquqları və müqavilələrin icrası da daxil olmaqla yaxşı hüquq sisteminin mövcudluğu;
- korrupsiyaya qarşı mübarizə – dövlət hakimiyyətinin şəxsi mənfəətlər üçün istifadəsinin qarşısının alınma dərəcəsini ölçür.

Sadaladığımız göstəricilərlə yanaşı, adambaşına ÜDM, dövlət xərclərinin ÜDM-də payı, orta təhsillə xalis əhatəlilik əmsalı, kreditlərin ÜDM-də payı, dövlət investisiyalarının ÜDM-də payı (the World Development Indicators), dövlətin təhsil, səhiyyə və müdafiə xərclərinin ÜDM-də payları, əhalinin artım tempi kimi götəricilərdən istifadə edilməklə aparılmış qiymətləndirmələr dövlət idarəetməsinin keyfiyyətinin artırılmasına yönələn səylərin (ictimai investisiyalar) ölkələrin artım göstəricilərinin yaxşılaşdırılması üçün prioritet əhəmiyyət daşıdığını sübut edir (Cooray, 2009).

Qeyd edilənlər onu deməyə əsas verir ki, dövlət xərclərinin yerli istehsalın

stimullaşdırılması üçün tənzimləyici alət olaraq seçilməsi bu xərclərin ümumiqtisadi baxımdan nəticəliliyi, yerli istehsalı dəstəkləməsi, vergi daxilolmaları ilə təmin olunma səviyyəsi və vergilərlə iqtisadi fəallıq arasında əlaqələrin təbiətinin öyrənilməsi əsasında aparıla bilər.

Xətai Əliyev və həmkarları Azərbaycanda fiskal siyasətin qeyri-neft sektorunun inkişafına təsirini qiymətləndirmək üçün 2000-2015-ci illərdə real büdcə xərcləri, büdcənin real qeyri-transfer gəlirləri, gündəlik orta neft hasilatı (min barrel/gün), orta neft qiymətləri dəyişənlərinin qeyri-neft sektorunda real ÜDM-ə təsirini araşdırmışlar. Onlar ekonometrik üsullardan istifadə edərək müəyyən etmişlər ki, uzunmüddətli dövrdə dövlət xərcləri qeyri-neft sektorunda iqtisadi artıma əhəmiyyətli və müsbət təsir göstərir, vergi daxilolmaları isə bu sektorun inkişafını yavaşıdır. Qreyncerin səbəbiyyət testi isə qısamüddətli dövrdə qeyri-neft sektorunun ÜDM-i ilə dövlət xərcləri arasında qarşılıqlı əlaqənin mövcudluğunu təsdiqləmişdir. Bu tədqiqatın maraqlı nəticələrindən biri də odur ki, Azərbaycanda neft amili uzunmüddətli dövrdə qeyri-neft sektoruna az da olsa müsbət təsir göstərir (Aliyev, Dehning & Nadirov, 2016).

Dünya Bankının mütəxəssisləri inkişaf etməkdə olan 43 ölkənin 1970-1990-cı illəri əhatə edən məlumatları əsasında tədqiqat apararaq müəyyən etmişlər ki, büdcənin cari xərclərinin payının artırılması iqtisadi artıma statistik baxımdan əhəmiyyətli və müsbət təsir göstərir. Onların təəccüb doğuran digər nəticəsi isə ilk baxışdan daha məhsuldar görünən investisiya xərclərinin adambaşına ÜDM-in artımına mənfi təsir göstərməsi və büdcə xərclərinin strukturunda dəyişikliklər etməklə daha dayanıqlı iqtisadi artıma nail olmağın mümkünlüyü ilə bağlıdır (Devarajan et al. 1996).

Buradan belə nəticə çıxarmaq olar ki, büdcə xərclərində ağırlıq mərkəzini investisiya xərclərindən digər xərc istiqamətlərinə dəyişdirilməsi daha yaxşı iqtisadi nəticələr əldə etməyə imkan verir. Lakin bu mülahizədə də kifayət qədər mübahisəli məqamlar var. İnkişaf etməkdə olan ölkələrdə idarəetmənin keyfiyyətinin lazımi səviyyədə olmaması investisiya xərclərinin milli iqtisadiyyatın inkişafı baxımından əhəmiyyətli olmayan layihələrə yönəldilməsinə gətirə bilər. Ölkədə ixtisaslı mütəxəssislərə tələbat yaradan sahələr olmadığı təqdirdə təhsilə, xüsusilə ali təhsilə yönələn vəsaitlərin başqa ölkələr üçün kadr hazırlığına xərclənməsinə gətirə bilər. Dövlət orqanlarının saxlanması, təhlükəsizlik qüvvələrinin və müdafiə xərclərinin (əmək haqqı, maddi təminat və s.) artımı yerli emal sektorunun zəif olduğu halda idxal məhsullarına tələbatı daha çox dəstəkləyə bilər. Bu halda, sosial müdafiə xərcləri də oxşar təsirə malik olacaq.

TƏHLİL

Ümumiyyətlə, təbii resurslarla zəngin olan ölkələrdə resursların ixracından əldə edilən gəlirlər nisbətən asan gəlir hesab olunurlar. Bu mülahizə dünya bazarlarında həmin resurslara qiymətlərin artımı dövrlərində özünü xüsusilə doğruldur. Dövlət xərcləri isə həmin gəlirlərin milli iqtisadiyyata ötürülməsi üçün ən yaxşı alətlərdən biri hesab olunur (Sturm et al., 2009). Azərbaycanın fiskal siyasətində də bu praktikanı müşahidə etmək olar.

**Qrafik 1. Azərbaycanın 2000-2021-ci illər üzrə
Dövlət büdcəsinin gəlir mənbələri (%-lə)**



Mənbə: www.stat.gov.az

Dövlət büdcəsinin gəlir mənbələri üzrə strukturunun dinamikası bir sıra mülahizələrin irəli sürülməsi üçün ipucları verir. Neft qiymətlərinin aşağı olduğu 2000-2005-ci illərdə büdcə gəlirlərinin 60%-dən çoxu ölkədə fəaliyyət göstərən sahibkarlar və digər iqtisadi fəaliyyət subyektlərinin ödədiyi vergilər hesabına formalaşmışdır. Əgər bu göstəriciyə idxalda tutulan vergilərin (ƏDV, aksiz və xarici ölkələrə məxsus nəqliyyat vasitələrinin sahiblərinin ödədiyi yol vergisi) və rüsumların payını da əlavə etsək, onda 2000-2005-ci illərdə - neft bumu başlayana qədər - dövlət büdcəsinin 80%-dən çoxunun ümumi vergi ödənişləri və gömrük rüsumları hesabına təmin edildiyini görə bilərik. Neftin daxili bazar qiymətləri ilə dünya bazarlarında satış qiyməti arasındakı fərq hesabına yaranan gəlirlərin Azərbaycan Respublikasının Dövlət Neft Fondunda (ARDNF) toplanması və həmin vəsaitlərin bir qisminin dövlət büdcəsinə transferi praktikasına 2004-cü ildən - neft bumunun start götürdüyü ildən - başlanmışdır. Məhz həmin ildən sonra, büdcə gəlirləri əsasən ARDNF-dən gələn transferlər hesabına kəskin şəkildə artmağa başlamış və büdcə gəlirlərində iqtisadi baxımdan ən əsaslı olan vergi və rüsumların payı sürətlə azalmağa başlamışdır. Büdcənin vergi və rüsum daxilolmalarının həcmi artım meylinə malik olsa da, onların büdcədə payı 2008-ci ildə (neft qiymətlərinin dünya bazarlarında ən yüksək olduğu il) 44,1%-ə enmiş və həmin ildən 2021-ci ilədək 40-50% intervalında qalmışdır. İstisna kimi yalnız 2017-ci ilin 55,5%-lik göstəricisini qeyd edə bilərik. Təsvir etdiyimiz mənzərədə Azərbaycanda resurs gəlirlərinin bir qisminin büdcə vasitəsilə infrastruktur investisiyalarına, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsinə və digər istiqamətlərə yönəldilməsini göstərir.

Eyni zamanda 2016-cı ildən başlayaraq daxili vergilərin büdcədə payının azalması fonunda idxal vergiləri və rüsumların payının artması, eləcə də idxal vergiləri və rüsumların daxili vergilərin təxminən yarısına qədər yüksəlməsi yerli istehsalın, xüsusilə emal sektorunun heç də arzu edilən vəziyyətdə olmaması qənaəti üçün əsaslar verir.

Qrafik 2. Azərbaycanın 2000-2021-ci illər üzrə dövlət büdcəsinin əsas xərc istiqamətləri (%-lə)



Mənbə: www.stat.gov.az

2000-2021-ci illərdə büdcənin xərc istiqamətləri də maraqlı dinamikanı nümayiş etdirir. Bundan əvvəl gətirdiyimiz arqumentlərin təsdiqi olaraq, dövlətin iqtisadi fəaliyyət üzrə xərcləri (dövlət investisiyaları, nəqliyyat, rabitə və s.) gözlənildiyi kimi, neft gəlirlərinin artmağa başladığı 2006-cı ildən sonra kəskin şəkildə yüksəlmiş, onun büdcə xərclərində payı 2005-ci ildə 12%-dən 2006-cı ildə 27,8%-ə yüksəlmişdir. Bu artım 2015-ci ildə dünya bazarlarında neftin qiymətinin kəskin azalmasından sonrakı ilədək davam etmiş, sonrakı illərdə isə bu göstərici təxminən iki dəfə aşağı səviyyədə qərarlaşmışdır.

Təhsil xərclərinin 20 il ərzində təxminən 15 dəfə artması (nominal ifadədə) diqqətəlayiq bir haldır. 2015-ci ildən başlayaraq təhsil xərclərinin 1,6 milyard manatdan 2021-ci ildə təxminən 2 dəfə artaraq 3,1 milyard manata çatması həm artım tempi, həm də ilkin məbləğ (iqtisadi impuls) olaraq iqtisadi inkişaf üçün ümidləri xeyli artırır. Əlbəttə, bu xərclərin necə istifadə ediləcəyi və hazırlanmış mütəxəssislərə yerli istehsal müəssisələrində tələbatın formalaşması da mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda təhsil və elm sahəsinə yönələn büdcə xərclərinin dinamikası aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 1. Dövlət büdcəsinin təhsil və elm xərcləri (milyon manatla)

¨Göstəricilər	2000	2005	2010	2015	2016	2017	2018	2019	2020	2021
Təhsil xərcləri	181,8	372,5	1180,8	1605,1	1754,4	1742,7	1966,6	2195,7	2774,3	3092,2
Elm xərcləri	9,3	28,8	92,8	113,2	110,2	109,8	117,8	122,3	143,6	151,8

Mənbə: www.stat.gov.az

Dövlətin elm xərclərinin artım dinamikası yüksək olsa da (2021-ci ildə 2000-ci ilə nisbətən 17 dəfə (nominal ifadədə)), onun ilkin məbləği, eləcə də bu məbləğin büdcə xərclərində payı (1%-dən az) inkişaf etməkdə olan bir çox ölkələrlə, o cümlədən uğur qazanmış ölkələrlə müqayisədə azdır. Buna görə də düşünürük ki, Azərbaycanda büdcənin elm xərclərinin iqtisadi artıma təsir göstərməsi barədə tədqiqata başlamaq üçün hələ tezdir.

3 saylı qrafikdə emal sektorunun da daxil olduğu qeyri-neft sektorunda fiziki kapitalın sahələr üzrə bölgüsünün dinamikası verilmişdir.

Qrafik 3. Qeyri-neft sektorunda fiziki kapitalın sahələr üzrə bölgüsü (milyon manatla)



Mənbə: www.stat.gov.az

Qrafikdən göründüyü kimi, qeyri-neft sektorunda fiziki kapitalın ümumi dəyəri 2005-2020-ci illər ərzində 5 dəfə artmışdır. Emal sektorunda da artım müşahidə edilsə də, onun artım templəri nəqliyyat və rabitə, enerji istehsalı (elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı), tikinti və digər sektorların artım templərindən geri qalır.

Bunun nəticəsidir ki, emal sektorunun fiziki kapitalının qeyri-neft sektorunun fiziki kapitalında payı 2005-ci ildəki 17%-dən xeyli azalmış və 2015-ci ildən bu tərəfə 10%-lik səviyyəni aşmamışdır.

Qrafik 4. Qeyri-neft sektorunda fiziki kapitalın sahələr üzrə bölgüsü (faizlə)



Mənbə: www.stat.gov.az

Qrafik 5. Qeyri-neft ÜDM-in sahələr üzrə bölgüsü (faizlə)



Mənbə: www.stat.gov.az

5 saylı qrafikdən də göründüyü kimi, emal sektorunun qeri-neft ÜDM-də payı 2006-cı ildən bu tərəfə 10%-lik səviyyəni aşmamışdır. Ticarət və təmir, tikinti, nəqliyyat və rabitə sektorlarının inkişaf templərinin artması fonunda emal sektorunun belə nəticələri sənaye siyasətinin təkmilləşdirilməsinə zərurətin olduğunu deməyə əsas verir.

Azərbaycanda büdcə xərclərinin emal sektorunda iqtisadi artımla əlaqələrinin tədqiqi zamanı büdcə xərclərinin strukturuna diqqət yetirilməsi yaxşı nəticələr verə bilər. Ümumi büdcə xərcləri ölkə daxilində tələbatı dəstəkləməklə emal sektoru üçün bu fürsətdən yararlanma imkanlarını yarada bilər. Lakin bu xərclərin əhəmiyyətli qismi dövlət orqanlarının saxlanması, müdafiə, təhsil, səhiyyə, sosial müdafiə və digər istiqamətlərə yönəlməklə emal sektoruna dolayısı ilə təsir göstərir. Büdcənin iqtisadi fəaliyyət xərcləri (nəqliyyat və rabitə, dövlət investisiyaları və s.) isə hökumətin qərarlarından birbaşa asılı olaraq müəyyən edilir, konkret layihələr əsasında planlaşdırılır və icra edilir. Fikrimizcə, bu qərarların qəbulunda əsas prioritetlər ölkədə iqtisadi mühitin yaxşılaşdırılması, sahibkarlığın dəstəklənməsi, qeyri-neft sektoru, o cümlədən emal sektoru üçün inkişaf imkanlarının artırılması ilə bağlı olmalıdır. Hazırda dövlətin investisiya xərcləri əsasən infrastrukturun yaxşılaşdırılmasına yönəlir. Belə yanaşma yerli emal sektorunun xərclərinə birbaşa təsir göstərə bildiyi üçün cəlbedici görünür. Buna görə də tədqiqatımızda dövlətin investisiya xərclərinin təsiredici dəyişən kimi istifadə edilməsini məqsədəuyğun hesab edirik.

Eyni zamanda ölkədə təhsilin inkişafı, ən müxtəlif peşələr üzrə yüksək ixtisaslı kadrların hazırlanması emal sektorunun insan potensialını gücləndirə bilər. Emal sektorunun həm elm, həm də əməktutumlu sahələrinin inkişafı bu amildən birbaşa asılıdır.

Qeyd edilənlərə əsasən deyə bilərik ki, emal sektorunda adambaşına ÜDM və fiziki kapital, dövlətin təhsil və investisiya xərcləri göstəricilərinin dinamikasının müqayisəli təhlilinin müəyyən mülahizələrin irəli sürülməsi üçün faydalı ola bilər.

Beləliklə, modeldə aşağıdakı göstəricilərdən (inflyasiya nəzərə alınmaqla) istifadə edəcəyik.

P – asılı dəyişən, emal sektorunda bir işçiyə real ÜDM

K – emal sektorunda kapitalın miqdarı

EE – büdcənin təhsil xərcləri

Sİ – büdcənin investisiya xərcləri

Göstəricilər logarifmə çevrilməklə modelə daxil edilmişlər.

Qrafik 6. Emal sektorunda adambaşına ÜDM, dövlətin təhsil və investisiya xərclərinin dinamikası (logarifmik ölçüdə)



Mənbə: www.stat.gov.az məlumatları əsasında müəllifin hesablamaları

Qrafikdən göründüyü kimi, hər dörd dəyişən ümumən artım meylinə malikdir.

Göstəricilər üzrə zaman sıralarının stasionarlığını yoxlamaq üçün ADF testindən istifadə edilmişdir. Testin nəticələrinə görə, dəyişənlərin hamısı 5%-lik statistik əhəmiyyətlilik səviyyəsində ilkin səviyyədə qeyri-stasionar, birinci törəmədə isə stasionar xarakter daşıyır.

Ən kiçik kvadratlar metodunu tətbiq etməklə aldığımız reqressiya tənliyinin əsas göstəriciləri aşağıdakı cədvəldə verilmişdir. Modelin qalıqları üzrə avtokorelyasiyanın aradan qaldırılması üçün modelə asılı dəyişənin (P) bir lag sonrakı qiymətini (P(-1)) də əlavə etmişik.

Cədvəl 2. Reqressiya modelinin əsas göstəriciləri

Dependent Variable: P				
Method: Least Squares				
Sample (adjusted): 2005Q2 2021Q4				
Included observations: 67 after adjustments				
Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
C	-2.778877	0.73729	-3.769066	0.0004
K	0.249784	0.09174	2.722834	0.0084
EE	0.175305	0.05141	3.409778	0.0011
SI	0.013375	0.02351	0.568975	0.5714
LAGP	0.498564	0.09717	5.130872	0
R-squared	0.961908	Mean dependent var		0.930778
Adjusted R-squared	0.95945	S.D. dependent var		0.435167
F-statistic	391.4071	Durbin-Watson stat		1.968502
Prob(F-statistic)	0			

Modeldə istifadə edilən təhsil xərclərinin (p-value=0.0011) 1%-lik səviyyədə statistik əhəmiyyətli olduğu, dövlət investisiyalarının isə (p-value=0.5714) statistik baxımdan əhəmiyyətli olmadığı aşkar edilmişdir. Modelə daxil edilən 4 dəyişəndən üçünün 1%-lik səviyyədə statistik əhəmiyyətli olması faktı modelin ümumən qəbul edilməsi üçün vacib şərtlərdən biridir.

Determinasiya əmsalının (R2=0.962) kifayət qədər böyük olması modelin əhatəliliyinin qənaətbəxş olmasını, F-statistic göstəricisinin 1%-lik səviyyədə statistik əhəmiyyətli olması (Prob(F-statistic)=0.0000) isə müstəqil dəyişənlərin emal sektorunda adambaşına ÜDM-ə birlikdə təsir göstərdiyini təsdiqləməyə əsas verir.

Breusch-Godfrey LM testinin nəticələrinə görə, 1, 5 və 10%-lik statistik əhəmiyyətlilik səviyyələrində avtokorelyasiyanın yoxluğu aşkarlanmışdır. Jarque-Bera testinin nəticələri (p-value=0.508) qalıqların normal paylandığını göstərmişdir.

Beləliklə, modelin göstəriciləri əsasında aşağıdakı reqressiya tənliyini qura bilərik:

$$\ln P = -2.778877 + 0.249784 \ln K + 0.013375 \ln Sİ + 0.175305 \ln EE + 0.498564 \ln P(-1)$$

Reqressiya tənliyindəki əmsallarn qiyməti aşağıdakı mülahizələri irəli sürməyə imkan verir:

- kapitalın 1% artması emal sektorunda adambaşına ÜDM-in 0.25% artmasına gətirir;
- dövlət investisiyalarının 1% artımı emal sektorunda adambaşına ÜDM-in 0.013% artmasına gətirir;
- təhsil xərclərinin 1% artması emal sektorunda adambaşına ÜDM-nin 0.18% artmasına gətirir.

Təhsil xərclərinin adambaşına ÜDM-ə təsirini işçilərin peşəkarlıq səviyyəsinin artması və əmək məhsuldarlığının yüksəlməsi ilə izah edilə bilər. Dövlət investisiyalarının adambaşına ÜDM-ə çox zəif təsiri isə bu investisiyaların emal sektoru ilə əlaqəsinin azlığı və yaxud sahibkarların bu investisiyalar vasitəsilə yaranan şəraitdən istifadə imkanları və motivasiyalarının yetərli olmaması ilə izah etmək olar.

Qeyd edilənlər modelin keyfiyyətini qənaətbəxş qiymətləndirməyə imkan verir və tərtib edilən modeli dövlətin təhsil və investisiya xərclərinin emal sektoruna təsiri barədə ümumi mənzərəni əks etdirməsi üçün yetərli hesab etmək olar.

Dövlətin investisiya xərclərinin emal sektorunun artımına çox zəif təsiri Devarajan və həmmüəlliflərinin (1996) əldə etdiyi nəticələrlə qismən üst-üstə düşür. Bu prosesin 15 il qədər böyük bir dövrü əhatə etməsi isə tənzimləmənin "dövlət investisiyası" alətinin səmərəliliyi barədə daha detallı araşdırmaların aparılmasına zərurət yaradır. Azərbaycanın ümumi iqtisadi göstəriciləri və büdcə xərclərinin müqayisəsi isə qismən də olsa Vagner qanununun doğrulduğunu göstərir, yəni ümumi iqtisadi artım büdcə xərclərinin də artmasına gətirir.

Azərbaycanda artan neft gəlirləri fonunda ticarət olunmayan mallarda ixtisaslaşan ticarət, təmir, tikinti, nəqliyyat və rabitə kimi sektorların nisbətən yüksək inkişaf templəri ilə artması, ticarət olunan malların istehsalçısı olan emal sektorunun isə nisbi inkişafdan geri qalması faktı isə Sachs və Warnerin (1999) əldə etdiyi nəticələrin doğruluğunu göstərir.

NƏTİCƏ

Tədqiqatda dövlətin investisiya və təhsil xərcləri ilə emal sektorunda iqtisadi artım arasında əlaqələrin arzuedilən səviyyədə olmaması aşkar edilmişdir. Əldə etdiyimiz nəticələr neft bumunu yaşayan Azərbaycanda ticarət olunan malların əsas istehsalçısı olan emal sektoru üçün büdcə xərcləri vasitəsilə "böyük təkan" effektindən danışmağa əsas vermir. Bu nəticələrin səbəbi qismində aşağıdakı mülahizələri göstərmək olar:

- dövlətin fiskal siyasətinin emal sektorunun inkişafına təsiri arzu edilən səviyyədə deyil;
- büdcə xərclərinin emal sektoru ilə bağlı hissəsi bu sektorda iqtisadi inkişafa təkan vermə baxımından yetərli deyil;
- emal sektorunda fəaliyyət göstərən sahibkarların büdcə xərcləri vasitəsilə yaradılan imkanlardan istifadə etmək motivasiyaları və yaxud imkanları yetərli deyil. Sahibkarlar daxili tələbatla yaxşı dəstəklənən ticarət, xidmət, təmir, tikinti, rabitə, nəqliyyat və digər sektorlarda

fəaliyyət üçün daha çox motivasiyalı ola bilərlər;

- dövlətin investisiya və təhsil xərcləri ilə digər dəstəkləyici alətlər (pul-kredit, gömrük, vergi, texniki və s.) arasında koordinasiya arzu edilən səviyyədə olmaya bilər;
- tənzimləmə qərarlarını qəbul edən dövlət orqanları ilə emal sektorunun sahibkarları arasında informasiya asimmetriyası ola bilər və s.

Qeyd edilən mülahizələrin yoxlanılması üçün daha dərin tədqiqatların aparılmasına ehtiyac var.

İnkişaf etməkdə olan ölkədə dövlət xərcləri ilə emal sektorunda iqtisadi artım arasında uzunmüddətli müsbət əlaqələrin mövcudluğunu və bu əlaqələrin gücünü tənzimləmənin keyfiyyət səviyyəsi kimi də qəbul etmək olar.

Apardığımız ədəbiyyat icmalı əsasında deyə bilərik ki, idarəetmənin keyfiyyəti dövlət xərclərinin ümumiqtisadi səmərəliliyinin zəruri şərti, sahibkarların bazarın və dövlətin stimullarına müsbət reaksiya vermək imkanları, motivasiyaları və qabiliyyəti isə kafi şərti kimi qəbul edilə bilər. Əlbəttə, qloballaşan iqtisadiyyatda uğur təkcə ölkədaxili şərtlərlə müəyyən edilə bilməz. Regionda və bütün dünyada baş verən iqtisadi proseslərin dərindən izlənməsi, emal sektorunda müqayisəli üstünlüklərinin müəyyən edilməsi ilə dünya iqtisadiyyatında özünəməxsus yerin tutulması Azərbaycan iqtisadiyyatı qarşısında duran prioritet məsələlərdən biridir.

ƏDƏBİYYAT

1. Abbasov, J. A., & Aliyev, K. (2018). Testing Wagner's Law and Keynesian Hypothesis in Selected Post-Soviet Countries. Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis, 66(5), 1227-1237.
2. Acemoglu D., Johnson, S. & Robinson, J. (2000). 'The Colonial Origins of Comparative Development', American Economic Review, 91(5): 1369-1401.
3. Acemoglu D., Robinson J. A. (2019). The narrow corridor: States, societies, and the fate of liberty. New York: Penguin Press.
4. Afonso, A. and Furceri, D. 2010. Government size, composition, volatility and economic growth. European Journal of Political Economy, 26(4): 517–532. https://www.ecb.europa.eu/pub/pdf/scpwps/ecbwp849.pdf
5. Aliyev, K., Dehning, B., & Nadirov, O. (2016). Modelling the Impact of Fiscal Policy on Non-Oil GDP in a Resource Rich Country: Evidence from Azerbaijan. Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis, 64(6), 1869-1878.
6. Aliyev, Khatai, and Ilkin Gasimov. 2018. "Fiscal policy implementation in Azerbaijan before, during and after the oil boom."Contemporary Economics, vol. 12, no. 1, Mar. 2018, pp. 81+.
7. Barro, R.J. (1997). Determinants of Economic Growth: A cross-country empirical study, Development Discussion Paper No. 579, Harvard Institute for International Development.
8. Chiung-Ju Huang, (2006). GOVERNMENT EXPENDITURES IN CHINA AND TAIWAN: DO THEY FOLLOW WAGNER'S LAW? JOURNAL OF ECONOMIC DEVELOPMENT, 139 Volume 31, Number 2, p.139-148.
9. Cooray, A. (2009). Government Expenditure, Governance and Economic Growth. Comparative Economic Studies, 51(3): 401–418. https://www.researchgate.net/publication/46526539_Government_Expenditure_Governance_and_Economic_Growth
10. Deverajan, S., Swaroop, V., and Zou, H. (1996). The composition of public expenditure and economic growth. Journal of Monetary Economics, 1996(37): 313–344. http://www1.worldbank.org/publicsector/pe/pfma07/ShantaVinayHengfu.pdf

11. Folster, S. and Henrekson, M. (2001). Growth effects of government expenditure and taxation in rich countries. European Economic Review, 45: 1501–1520. https://www.sciencedirect.com/science/article/abs/pii/S0014292100000830
12. Grossman, S.J. & Hart, O.D. (1986). 'The Costs and Benefits of Ownership: A Theory of Vertical and Lateral Integration', Journal of Political Economy, 94 (4): 691-719.
13. Hall, R.E. & Jones, C. (1999). 'Why Do Some Countries Produce So Much More Output per Worker than Others?' Quarterly Journal of Economics, 114 (1): 83-116.
14. Hayek, F.A. (1945). 'The Use of Knowledge in Society', American Economic Review, 35: 519-30.
15. Henrekson, M. (1993). Wagner's Law: a Spurious Relationship, Public finance, 48(2): 406–415.
16. Kauffman, D. & Kraay, A. (2002). 'Growth Without Governance', mimeo, Washington DC: World Bank.
17. Kaufmann, D, Kraay, A and Mastruzzi, M. (2006): Governance matters V: Governance indicators for 1996–2005. World Bank policy research working paper no. 4012, World Bank, Washington DC, USA.
18. Krugman P., (1995). Development, Geography and Economic Theory. Cambridge: MIT Press.
19. Laffont, J.-J. & Tirole, J. (1993). A Theory of Incentives in Procurement and Regulation, Cambridge, Mass.: MIT Press.
20. Laffont, J.-J. & Tirole, J. (2000). Competition in Telecommunications, Cambridge, Mass.: MIT Press.
21. Laffont J-J (2005). Regulation and Development, Cambridge: Cambridge University Press.
22. Levy, B. & Spiller, P.T. (1994). 'The Institutional Foundations of Regulatory Commitment: A Comparative Analysis of Telecommunications Regulation', Journal of Law, Economics and Organization, 10 (2): 201-46.
23. Montmartin B., Herrera M. (2015). Internal and external effects of R&D subsidies and fiscal incentives: Empirical evidence using spatial dynamic panel models. Research Policy, Vol. 44, No. 5, pp. 1065—1079. https://doi.org/10.1016/j.respol.2014.11.013
24. Newbery, D. (1999). Privatization, Restructuring and Regulation of Network Industries, Cambridge, Mass.: MIT Press.
25. North, D.C. (1990). Institutions, Institutional Change and Economic Performance, Cambridge: Cambridge University Press.
26. Olson, M., Sarna, N. & Swamy, A.V. (1998). 'Governance and Growth: A simple hypothesis explaining cross-country differences in productivity', mimeo, Centre for Institutional Reform and Informal Sector (IRIS), University of Maryland.
27. Reagan, M.D. (1987). Regulation: The Politics of Policy, Boston: Little Brown.
28. Rodrik, D., Subramanian, A., & Trebbi, F. (2004). 'Institutions Rule: The Primacy of Institutions over Geography and Integration in Economic Development' Journal of Economic Growth, 9(2): 131-165.
29. Rodrik D. (2004). Industrial policy for the twenty-first century. KSG Working Paper, No. RWP04-047.

30. Sachs, J.D. & Warner, A.M. (1995). 'Economic reform and the process of global integration' Brookings Paper in Economic Activities, 1:1-95.

31. Sachs, J. D. and Warner, A. M. 1999. The big push, natural resource booms and growth. Journal of development economics, 59(1): 43–76.

32. Shapiro, C. & Willig, R.D. (1990). 'Economic Rationales for the Scope of Privatization', in E.N. Suleiman and J. Waterbuy, The Political Economy of Public Sector Reform and Privatization, Boulder CO: Westview Press; also reprinted in ed.

33. Stiglitz, J. (1998). 'Private Uses of Public Interests: Incentives and Institutions', Journal of Economic Perspectives, 12(2): 3-22.

34. Sturm, M., Gurtner, F. and Alegre, J. G. 2009. Fiscal Policy Challenges in Oil-exporting Countries a Review of Key Issues. European Central Bank. Occasional Paper, 104.

35. Todaro P.Michael, Smith, C.Stephen (2020). Econmic development, Thirteen Edition, Pearson.

36. Yarrow, G. (1999). 'A Theory of Privatization, or Why Bureaucrats are Still in Business', World Development, 27(1): 157-68.

37. Поланьи, Карл, Великая трансформация. Политические и экономические истоки нашего времени. Пер.с англ.А.А.Василева, С.Е.Федорова и А.П.Шурбелева под.обш.ред. С.Е.Федорова. СПб.: Алтейя, 2002 – 320 с. (Pax Britanica).

38. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları - www.stat.gov.az

39. Azərbacan Respublikasının Mərkəzi Bankının məlumatları - www.cbar.gov.az

THE IMPACT OF BUDGET EXPENDITURE ON THE DEVELOPMENT OF THE MANUFACTURING INDUSTRY IN AZERBAIJAN

Rukhsara SEYFULLALI

SUMMARY

In the economic literature, there are different opinions about the ability of the state to create a "big push" for economic development. This issue is particularly relevant for those developing countries that are rich in natural resources and whose economic institutions are in the process of formation. The purpose of this article is to explore the links between public spending (investment and education) and growth in the manufacturing sector in Azerbaijan. The study, covering 2005-2021, analyzed the dynamics of indicators. The least squares method is used to assess the dependence of growth in the manufacturing sector on budget spending for investment and education. The results revealed that the impact of budget spending on investment and education on economic growth in the manufacturing sector is very weak. At the same time, the growth of investment and educational spending by the state supports relatively well the growth of those sectors of the economy that specialize in the production of non-tradable goods (trade and repair, construction, transport, communications, etc.). Identifying the reasons for this situation requires research into the quality of regulation, the level of information asymmetry between regulators and the private sector, problems of resource availability, and lack of entrepreneurial motivation in the manufacturing sector.

Key words: *budget expenditure, manufacturing sector, economic growth.*

ВЛИЯНИЕ БЮДЖЕТНЫХ РАСХОДОВ НА РАЗВИТИЯ ОБРАБАТЫВАЮЩЕЙ ОТРАСЛИ В АЗЕРБАЙДЖАНЕ

Рухсара СЕЙФУЛЛАЛИ

В экэономической литературе существуют различные мнения о возможностях государства для создания «большого толчка» для экономического развития. Этот вопрос носить особо актуальный характер для тех развивающихся стран, которые богаты природными ресурсами и их экономические институты находятся в стадии формировании. Целью данной статьи является исследование связей межу бюджетными расходами (инвестиции и образования) и ростом в обрабатывающем секторе Азербайджана. В исследовании, охватывающей 2005-2021 годы, проведен анализ динмики показателей, оценена зависимость роста в обрабатывающем секторе от расходов бюджета на инвестиции и образования с применением метода наименших квадратов. Результаты выявили, что влияние расходы бюджета на инвестици и образования на экономический рост в обрабатывающем секторе явдяется очень слабым. В то же время, рость инвестиционных и образовательных расходов государства сравнительно хорошо поддерживает роста тех секторов экономики, которые специализируются в производстве неторгуемых товаров (торговля и ремонт, строительство, транспорт, связь и др.). Для выявления причин такого положения требуется исследования качества регулирования, уровня информационной асимметрии между регулирующими органами и частным сектором, проблемов доступности ресурсов и недостаточности препринимательской мотивации в обрабатывающем секторе.

Ключевые слова: *бюджетные расходы, обрабатывающий сектор, экономический рость.*

Məqalə redaksiyaya daxil olub: 01.03.2023
Təkrar işlənməyə göndərilib: 29.03.2023
Çapa qəbul olunub: 17.04.2023

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

MİLLİ İQTİSADİYYATIN İNKİŞAFININ MÜASİR XÜSUSİYYƏTLƏRİ

№ 1(6)-2023, səh. 70-77

i.ü.f.d., dosent Vüqar MEHDİYEV,
Azərbaycan Kooperasiya Universitetinin
"Mühasibat uçotu və audit" kafedrası

vugar.mekhdiyev.82@mail.ru

Milli iqtisadiyyatın inkişafının müasir xüsusiyyətləri

i.ü.f.d., dosent Vüqar MEHDİYEV,
Azərbaycan Kooperasiya Universitetinin
"Mühasibat uçotu və audit" kafedrası

XÜLASƏ

Milli iqtisadiyyatın inkişafı kompleks bir proses olaraq iqtisadiyyat elmində çoxölçülü yanaşma kimi qəbul edilir. Qlobal şəraitdə baş verən böhranlar, o cümlədən 2008-ci ildə maliyyə böhranı, sonrakı dövrlərdə ərzaq və enerji böhranı, müasir dövrdə geosiyasi və geoiqtisadi qeyri-sabitlik bir sıra tendensiyaların ərsəyə gəlməsinə səbəb olmuşdur. Milli iqtisadiyyatın inkişafı çərçivəsində müasir dövrdə yaşıl iqtisadiyyat konsepsiyasının tətbiqi, "yaşıl enerji" yanaşmasının təbliğatı, sosial-iqtisadi inkişafda tarazlı və dayanıqlı inkişafı təmin etmək məqsədilə regionallaşma strategiyalarının icrası mühüm faktorlardır. Bütün bunları nəzərə aldıqda, Azərbaycan Respublikasında müstəqillik illərindən bugünədək həyata keçirilən sosial-iqtisadi sahədə dövlət proqramları və strategiyalar milli iqtisadiyyatın inkişafındakı rolu ilə uzlaşdırıldıqda bir sıra müasir xüsusiyyətlərin təzahürünü görmək mümkündür.

***Açar sözlər**: Milli iqtisadiyyat, regionallaşma, yaşıl iqtisadiyyat, iqtisadi inkişaf, İnformasiya Kommunikasiya Texnologiyaları.*

***JEL kodu:** A10; P44*

GİRİŞ

İqtisadi inkişaf sosial strukturlarda, əhali arasında münasibətlərdə və milli institutlarda dəyişiklikləri, habelə iqtisadi artımın sürətləndirilməsini, bərabərsizliyin azaldılmasını və yoxsulluğun aradan qaldırılmasını əhatə edən çoxölçülü bir prosesdir [16]. Bununla yanaşı, Dünya Bankının 1991-ci ildə dərc etdiyi hesabata əsasən, iqtisadi inkişafın təmin edilməsində qarşıya çıxan başlıca çağırışlardan biri həyat standartlarının yaxşılaşdırılmasıdır [19]. Halbuki, milli iqtisadiyyatın xarakterik xüsusiyyətləri iqtisadiyyat elmində və ədəbiyyatında müxtəlif dəyişən-lərin xarakterizə edilməsi ilə təzahür edilir. Babayevin (2011) milli iqtisadi sistem və milli iqtisadi model yanaşmalarının təhlili onu göstərir ki, milli iqtisadiyyat hər hansı bir ölkənin iqtisadiyyatı, onun dövlət qurumlarının bu iqtisadiyyata nəzərən təyin etdiyi xarakteristikalarıdır [8].

Bütün bunlarla yanaşı, Azərbaycan iqtisadiyyatı da bir sıra inkişaf mərhələsi keçmişdir. Müstəqilliyin əldə edildiyi dövrdən başlayaraq, aşağı neft qiymətləri dövrü daxil olmaqla işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiya prosesinə qədər bir sıra iqtisadi inkişafın müasir xüsusiyyətlərini Azərbaycanın milli iqtisadiyyatında müşahidə etmək mümkündür.

REGİONALLAŞMA VƏ MİLLİ İQTİSADİYYATIN İNKİŞAF PERSPEKTİVİ

İnkişaf etməkdə olan ölkələrdə milli iqtisadiyyatın qurulması təbii ehtiyatlardan və işçi qüvvəsindən hərtərəfli istifadəni tələb edir, eyni zamanda iqtisadiyyatın strukturunda və bölgüsündə əsaslı dəyişiklikləri qaçınılmaz edir [9]. Bu yanaşma, milli iqtisadi quruluşun tərkib hissəsi kimi regionallaşma problemlərinə və müxtəlif regionların coğrafi vəziyyətinin, fiziki mühitinin və iqtisadi potensialının öyrənilməsinə marağın artmasına səbəb olur. Bhat və digərləri (1963) qeyd edir ki, sabit milli iqtisadiyyatın yaradılması və onun yaradılmasına ölkənin bütün əhalisinin cəlb edilməsi üçün milli hədəflərlə uzlaşdırılaraq hər bir regionun resurs yönümlü inkişaf etdirilməsi imkanlarını nəzərə almaq lazımdır [9].

Milli iqtisadiyyatın çarxlarının daha sürətli dönməsi üçün regionallaşma önəmlidir. Həmçinin, regionallaşma hər bir ölkə üçün, xüsusən də geniş ərazilərə, müxtəlif təbii ehtiyatlara

və iqtisadi şəraitə və əhalinin qarışıq etnik tərkibinə malik ölkələr üçün vacibdir. Milli iqtisadiyyatın planlaşdırılmasına birbaşa aidiyyəti olan ümumi iqtisadi (inteqral) regionallaşma problemlərinə xüsusi diqqət tələb olunur.

Ümumi iqtisadi rayonlaşdırma regional iqtisadi planlaşdırmanın elmi əsasını təmin edir və beləliklə, ölkənin inzibati bölgüsü üçün obyektiv fundamental prinsipdir. Buna nümunədir ki, ölkənin müvafiq şəhər və rayonlarının davamlı və tarazlı inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü təmin edildi [6]. İnfrastruktur təminatı, regionlar üzrə iqtisadi potensialın dəyərləndirilməsi, regionlar arası sosial-iqtisadi əlaqələrin mövcudluğu və s. faktorların dəyərləndirilməsinin nəticəsi olaraq Azərbaycanda milli iqtisadiyyatın inkişafına təkan vermək məqsədilə yeni inzibati-ərazi bölgüsü təmin edilmişdir. Bu səbəbdəndir ki, Bhat və digərləri (1963) iqtisadi rayonlaşmanın və ölkənin milli-inzibati rayonlara bölünməsinin düzgün əlaqəsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayır [9].

Lakin, regionallaşmanın qarşıya çıxardığı bir neçə çətinliklər və çağırışlar vardır. Baxmayaraq ki, ölkə nümunələrində regionallaşma ümumilikdə milli iqtisadiyyatların inkişafına töhfə verir, obyektiv qiymətləndirmənin aparılması üçün statistik məlumatların doğrulanmasına ehtiyac vardır. Yəni, regionallaşma çox müxtəlif şaxələndirilmiş amilləri əhatə etdiyindən, müvafiq ölkənin təbii xüsusiyyətləri və şəraiti, əhalisi və iqtisadiyyatı haqqında adekvat statistik məlumatlar olmadan həyata keçirilə bilməz.

Regionallaşma prosesini uğurlu icra etmək üçün beynəlxalq praktikada və ədəbiyyatda geniş tətbiq olunan bir sıra yanaşmalar mövcuddur. İqtisadi rayonların əsas inkişaf mərkəzlərini və ya onların “düyünlərini” çıxarmaq üçün regionun ehtiyatlarından kompleks istifadə edərək sənaye və kənd təsərrüfatının inkişaf planlarını tərtib etmək lazımdır. Spesifik olaraq, istənilən regionallaşma prosesində müvafiq ölkənin iqtisadi inkişafı üçün uzunmüddətli proqramın olması xüsusi əhəmiyyət kəsb edir.

Müvafiq dövrlər ərzində Azərbaycan hökuməti Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı üçün ortamüddətli dövlət proqramları qəbul etmişdir. Bunlardan biri isə “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli fərmanıdır [1]. Fərmana uyğun olaraq onu qeyd etmək olar ki, ölkə Prezidenti regionların sosial-iqtisadi inkişafının təmin edilməsinə dair 2004-2008-ci illərdə 17, 2009-2013-cü illərdə 223 və 2014-2018-ci illərdə 405 sərəncam imzalamışdır [1].

Əlavə olaraq onu da qeyd etmək gərəkdir ki, regionallaşma prosesinin sənaye və aqrar sahə üzrə aparılması tövsiyə edilsə də, müasir dövrdə iqtisadi inkişafın təməl çağırışları dayanıqlı, davamlı və yaşıl iqtisadiyyatdır.

MÜASİR TENDENSİYALAR: ƏTRAF MÜHİT VƏ YAŞIL İQTİSADİYYAT

2008-ci ildə dünya çoxsaylı böhranlarla (yanacaq, ərzaq və maliyyə) üzləşdi. İqtisadi inkişafın ətraf mühitə mənfi təsirlərinə, eyni zamanda maliyyə böhranına cavab olaraq, beynəlxalq ictimaiyyət davamlı iqtisadiyyat və cəmiyyətin davamlılığı üçün həll yolları axtarmağa başladı. Bu kontekstdə “yaşıl iqtisadiyyat” anlayışı beynəlxalq səviyyədə və inkişaf etmiş ölkələrdə daha geniş şəkildə istifadə edilməyə başlandı.

Bu yeni mövzunun tədqiqində ilk problem yaşıl iqtisadiyyat konsepsiyasının nədən ibarət olduğunu başa düşməkdən ibarətdir. Sadə dillə desək, “yaşıl” iqtisadiyyatı “davamlı” iqtisadiyyatın sinonimi hesab etmək olar. Bununla belə, yaşıl iqtisadiyyat konsepsiyası çox vaxt daha fərqli məna daşıyır, o, iqtisadi sistemlərin daha dayanıqlı olmasını təmin etmək üçün tələb olunan əsas dəyişikliklərə xüsusi diqqət yetirir [10]. Bunun timsalında, ekoloji iqtisadiyyat, sənaye ekologiyası və ətraf mühit/resurs iqtisadiyyatı yaşıl iqtisadiyyat anlayışı ilə sıx əlaqəli üç sahədir [11].

Yaşıl iqtisadiyyat konsepsiyasının məqsədləri insanların rifahının yüksəldilməsi və uzun müddətdə ekoloji risklərin minimuma endirilməsidir. 2008 və 2009-cu illərdən bəri milli iqtisadiyyatların hazırlanması prosesində bu və ya digər formada “yaşıl” anlayışı mövcuddur.

2008-ci ildə Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) Yaşıl İqtisadiyyat

Təşəbbüsünə başlamışdır ki, bu təşəbbüs 2010-cu ildə böyük Yaşıl İqtisadiyyat Hesabatının nəşri ilə yekunlaşdı. Bu hesabatda UNEP yaşıl iqtisadiyyatı “təbii, insan və iqtisadi kapital qoyuluşlarından daha yaxşı gəlir gətirmək, eyni zamanda istixana qazı emissiyalarını azaltmaq, daha az təbii ehtiyatların hasilatı və istifadəsi, daha az tullantı yaratmaq üçün müəssisələrin və infrastrukturun yenidən konfiqurasiya prosesi kimi müəyyən edir və sosial bərabərsizliklərin azaldılmasını hədəfləyən müasir çağırış olaraq qəbul edir” [17, s.5]. Yaşıl iqtisadiyyat təşəbbüsünün əsas prinsipləri olaraq təbii kapitala investisiya, iqtisadiyyatın dekarbonizasiyası və yaşıl iş yerlərinin yaradılmasını göstərmək olar.

Qeyd edildiyi kimi, iqtisadi inkişaf çoxölçülü bir prosesdir və bu ölçülərdən biri də vətəndaşların yaşayış standartlarıdır. Yaşıl iqtisadi konsepsiyanın tətbiqi maddi texnoloji tərəqqi və artan istehsal səmərəliliyi və rəqabət qabiliyyəti ilə yanaşı, həyat keyfiyyətini və yaşayış mühitini yaxşılaşdırmaq üçün nəzərdə tutulub [13]. Həmçinin, Porfiriev (2013) qeyd edir ki, 2011-ci ilin ortalarına qədər 89 dövlətin bərpa olunan enerjinin inkişafı üçün hədəfləri müəyyən etməsi və təkcə bərpa olunan enerji mənbələrinə investisiyaların 2004-cü ildə 52 milyard dollardan 2011-ci ildə 260 milyard dollara qədər yüksəlməsi institusional və investisiya faktorlarının qabarmasına gətirib çıxardı [13].

Azərbaycanın Qafqaz regionunda yerləşdiyi coğrafi mövqe ölkəni zəngin biomüxtəliflik və landşaftların çeşidliyi ilə digər ölkələrdən fərqləndirir. Azərbaycan həm də iqtisadi cəhətdən əhəmiyyətli təbii sərvətlərə, ən əsası isə ölkənin iqtisadi artımında mərkəzi rol oynayan neft və qaza malikdir. Azərbaycan hökumətinin apardığı iqtisadi siyasət onu göstərir ki, qlobal yaşıl inkişaf modelinə keçid ölkə üçün karbon əsaslı inkişaf modelinin hüdudlarını aşmaq üçün yeni imkanlar yaradır. Belə ki, ölkədə aparılan islahatların beynəlxalq öhdəlikləri yerinə yetirərkən ölkəni daha yaşıl, daha dayanıqlı və davamlı iqtisadiyyata yönəltmək məqsədi daşıyan gündəliyə sahib olduğu barizdir. Bu öhdəliklərə Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi və Paris Sazişinə əsasən, Milli Səviyyədə Müəyyən edilmiş Töhfələrdə (NDC) müəyyən edilmiş istixana qazı emissiyalarının azaldılması ilə bağlı öhdəliklər daxildir [14].

Azərbaycanda bir neçə ekoloji strategiyanın mövcud olmasına baxmayaraq, müxtəlif iqtisadi sektorlar üzrə iqtisadiyyatın yaşıllaşdırılması üzrə tədbirlərin daha yaxşı əlaqələndirilməsinə ehtiyac vardır. Azərbaycanın yaşıl transformasiyası iqtisadi artıma və sosial inkişafa təkan verə bilər, eyni zamanda təbii sərvətlərin iqtisadiyyatın və rifahın əsaslandığı maddi vəsait və xidmətlər təqdim etməyə davam etməsini təmin edə bilər. İqtisadi inkişafın yaşıllaşdırılması məhsuldarlığı və innovasiyanı artıra, yeni iş yerləri və bazarlar yarada və əlavə fiskal gəlir əldə edə bilər.

Bütün bunları nəzərə alaraq, Azərbaycanda həyata keçirilən kompleks tədbirləri nümunə göstərmək olar. Milli iqtisadiyyatın inkişafında yaşıl iqtisadiyyat konsepsiyası kimi müasir faktorların daxil edilməsi dövlətin apardığı sosial-iqtisadi islahat paketlərində görünür. Bunun nəticəsidir ki, Azərbaycanın 2030-cu il üçün qarşıya qoyduğu hədəflərdən biri spesifik olaraq təmiz ətraf mühitin təmin edilməsi və yaşıl iqtisadiyyat konsepsiyasının tətbiqinə həsr edilmişdir. Həmçinin, Qasımlı və digərləri (2022) qeyd edir ki, Azərbaycanda “yaşıl enerji” yanaşması tətbiq edilir və bu yanaşmaya əsasən tədricən əldə ediləcək enerji bərpa olunan mənbələr hesabına olacaqdır və alternativ enerji mənbələrinə qənaət ediləcəkdir [12].

MİLLİ İQTİSADİYYATIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ: AZƏRBAYCAN KONTEKSTİNDƏ

Milli iqtisadiyyat anlayışının təfsilatlı izahı həmin iqtisadiyyatda iqtisadi sistemin müəyyən zaman kəsimində iqtisadi münasibətləri, müxtəlif təsərrüfat formaları, digər iqtisadiyyatlar ilə qarşılıqlı əlaqələri kimi bir sıra faktorları özündə əks etdirir. Azərbaycan Respublikasının müstəqillik dövründən cari dövrə qədər olan zaman kəsimində izlədiyi iqtisadi model, keçdiyi iqtisadi inkişaf yolu müvafiq periodlar ilə əhatələnir. Dünya Bankının statistik göstəricilərinə əsasən, Azərbaycan iqtisadiyyatı müstəqilliyin ilk dövrlərində, yəni 1991-1994-cü illərdə ortalama illik 16.5% (ÜDM artımı) iqtisadi geriləmə nümayiş etdirmişdir [15]. Lakin, ölkədə siyasi sabitliyin əldə edilməsi, iqtisadi islahatların aparılması, “Əsrin Müqaviləsi”nin

imzalanması ilə neft yataqlarının beynəlxalq konsorsium çərçivəsində işlənməsinə başlanılması kimi hadisələrdən sonra iqtisadi sabitlik bərpa olundu və nəticədə iqtisadi inkişaf tempi müsbətə doğru dəyişərək ÜDM artımı 1995-2003-cü illərdə illik ortalama 6.2% ətrafında qərarlaşdı. Bu da bir faktdır ki, sonraki dövrlərdə iqtisadi inkişaf sürətli şəkildə bərpa edilmiş və 2016-ci ilə qədər Azərbaycan iqtisadiyyatı illik ortalama 12% artım göstərmişdir [15].

2016-cı ilin mart ayında Azərbaycan hökuməti Milli İqtisadiyyat və onun əsas sektorları üzrə 2020-ci ilə qədər Strateji Yol Xəritəsinin hazırlanmasına başlamış və yol xəritəsini aidiyyəti nazirliklərə və digər dövlət orqanlarına ötürmüşdür [7]. Elə həmin il Azərbaycan Prezidenti islahatların sürətləndirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədi ilə iqtisadi islahatların idarə olunmasının yeni Modelinin təşəbbüskarı oldu. Model çərçivəsində Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya (Komissiya) yaradılıb və ona ölkədə biznes mühitinin yaxşılaşdırılması üçün bütün zəruri tədbirlərin müəyyən edilməsi və həyata keçirilməsi vəzifəsi həvalə edilib [2].

Azərbaycan 2014-cü ildə iqtisadiyyata zərbə vuran neftin qiymətinin aşağı düşməsindən xeyli əvvəl öz biznes mühitini yaxşılaşdırmaq üçün islahatlar mərhələsinə start vermişdi. 2016-cı ildə Azərbaycan hökuməti neftin qiymətinin yenidən artmasını gözləmək əvəzinə, 2020-ci ilə qədər ümumi iqtisadiyyatda və 11 əsas sektorda islahatların prioritetlərini özündə əks etdirən Milli İqtisadiyyat üzrə Strateji Yol Xəritəsinin hazırlanması barədə qərar qəbul etdi.

İqtisadi idarəetmə müstəvisində əldə edilən nəticələrin davamı özünü siyasi və hərbi arenada da əks etdirdi. Müstəqilliyin ilk illərindən bəri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğal altına düşməsi Azərbaycan iqtisadiyyatına əhəmiyyətli dərəcədə zərər vuran bir proses olmuşdur. Buna baxmayaraq, 2020-ci ildə siyasi və hərbi zəfərin nəticəsində həmin ərazilər de-fakto Azərbaycan iqtisadiyyatına yenidən qaytarıldı.

İşğaldan azad edilmiş torpaqların milli iqtisadiyyatın tərkib hissəsinə çevrilməsi üçün atılan addımlar onu göstərir ki, Azərbaycan hökuməti iqtisadi inkişaf anlayışlarının tətbiqində müasir yanaşmaların tətbiqinə böyük üstünlük verir. Bunun nəticəsidir ki, post-konflikt quruculuğu modelinin tətbiqi inzibati ərazi bölgüsünün yenidən formalaşdırılmasından başlayaraq azad bazar anlayışını özündə əks etdirən xüsusi iqtisadi zonaların yaradılması, multimodal nəqliyyat dəhlizinin təşəbbüs olunması kimi işlərə qədər bir çox sahələri əhatə edir.

Acemoğlu (2013) tərəfindən irəli sürülən nəzəriyyəyə uyğun olaraq onu qeyd etmək mümkündür ki, siyasi və iqtisadi institutların iqtisadi uğurda rolu əvəzedilməzdir [4]. İnkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafın təmin edilməsini, milli iqtisadiyyatların inkişaf tempinin qorunmasını bilavasitə iqtisadi və siyasi institutların fəaliyyəti ilə əlaqələndirmək mümkündür. Buna nümunə olaraq, Azərbaycanın milli iqtisadiyyatında post-konflikt quruculuğu modelinin tətbiqində Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsinə dair Sərəncamını xüsusi olaraq qeyd etmək mümkündür [3]. Qəbul edilən Dövlət Proqramı işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının ölkənin milli iqtisadiyyatına reinteqrasiya etdirilməsinə hesablanan institusional yanaşmadır. Bu da öz növbəsində onu göstərir ki, Azərbaycan iqtisadiyyatının çağdaş rü iqtisadi inkişaf modellərinin müasir yanaşmaları ilə qanunauyğunluq içərisindədir.

Halbuki, müasir dövrdə milli iqtisadiyyatların üzləşdiyi çağırışların hədəflənməsi unudulmamalıdır. Çiocou (2011) qeyd edir ki, qlobal iqtisadiyyatların və cəmiyyətlərin inkişafı ilə bağlı hazırkı düşüncə iki məsələ üzərində cəmlənir: informasiya və kommunikasiya texnologiyalarının (İKT) potensialı və ekoloji davamlılıq çağırışı [10]. Davamlı inkişafın əhəmiyyəti 1992-ci ildə Rio-de-Janeyroda keçirilən Yer Sammitindən bəri inkişaf siyasətinin hazırlanmasında müşahidə edilir. Davamlı inkişaf Dünya Ətraf Mühit və İnkişaf Komissiyası tərəfindən gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki ehtiyaclara cavab verən inkişaf kimi müəyyən edilmişdir [18].

Davamlı inkişafın təzahürü olaraq Azərbaycanın 2030-cu ilə qədər qarşıya məqsəd qoyduğu "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədini göstərmək olar [5]. Bir digər institusional yanaşma olan sosial-iqtisadi inkişaf üzrə Milli Prioritetlər milli iqtisadiyyatın

müasir inkişaf mərhələlərini özündə ehtiva edir. Belə ki, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi, müasir innovasiyalar məkanı kimi bir sıra hədəflərin müəyyən edilməsi onu göstərir ki, Azərbaycanın qarşıya qoyduğu iqtisadi inkişaf hədəfləri müasir dövrün inkişaf modelləri ilə uyğundur.

NƏTİCƏ

Milli iqtisadiyyatların inkişaf etdirilməsi bir çox imperativlərdən asılıdır. İqtisadi inkişaf nəzəriyyələrinə baxdıqda qapalı iqtisadi model, qloballaşmanı təşviq edən açıq bazar modeli olmaqla bir çox iqtisadi inkişaf perspektivlərini görmək mümkündür. Halbuki, müasir dövrdə milli iqtisadiyyatın inkişafı cari vəziyyətdə müvafiq geoiqtisadi reallıqların çərçivəsində formalaşır. Milli iqtisadiyyat anlayışı çoxölçülü bir termin olsa da, müəyyən faktorlar vardır ki, bu tənliyin ayrılmaz bir hissəsidir. Vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi, makroiqtisadi sabitliyin qorunması, davamlı və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi bunlara nümunədir.

Bu da bir faktdır ki, milli iqtisadiyyatın inkişafı dedikdə, bərabər və tarazlı inkişaf nəzərdə tutulur. Ölkə daxilində regionların və şəhərlərin tarazlı inkişafının təmin edilməsi milli iqtisadiyyatın ayrılmaz bir hissəsidir. Bundan əlavə, müasir dövrdə qlobal meyllərin və tendensiyaların izlənilməsi ölkə iqtisadiyyatının regional və qlobal dəyər zəncirində pay sahibi olmağa gətirib çıxarır. Yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi müasir çağırışlar çərçivəsində iqtisadi inkişafın hədəflənməsi deməkdir.

Son olaraq, Azərbaycanın bütün bu sadalananları nəzərə alaraq apardığı sosial-iqtisadi inkişaf strategiyası uzunmüddətli dövrdə ölkənin resurs-iqtisadiyyatından asılılığını azaltmağa, yaşıl konsepsiyanın tətbiqinin genişlənməsinə, regional və qlobal dəyər zəncirində söz sahibi olmağa və dayanıqlı iqtisadi inkişafı təmin etməyə hədəflənmişdir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (29 yanvar, 2019).
https://e-qanun.az/framework/41320
2. "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2017).
https://president.az/az/articles/view/24080
3. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (16 noyabr, 2022).
https://president.az/az/articles/view/57883
4. Acemoglu, D. (2013). Why nations fail: The origins of power, prosperity, and poverty (Pbk. ed.). Crown Business.
5. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı. (2 fevral, 2021). Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər.
https://president.az/az/articles/view/50474
6. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2021).
https://president.az/az/articles/view/52389
7. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. (2016).
https://president.az/az/articles/view/21993

8. Babayev, Ə. (2011). Milli iqtisadi inkişaf modelinin nəzəri-metodoloji tədqiqi. Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi nəzəriyyə-1" kafedrası. http://www.anl.az/down/meqale/azerbaycan/2011/yanvar/152570.htm
9. Bhat, L. S., Pal, M. N., Komar, I. V., & Popov, K. M. (1963). Problems of Regionalization for the Development of National Economy. Sankhyā: The Indian Journal of Statistics, Series B (1960-2002), 25(1/2), 5–14. http://www.jstor.org/stable/25051476
10. CIOCOIU, C. N. (2011). INTEGRATING DIGITAL ECONOMY AND GREEN ECONOMY: OPPORTUNITIES FOR SUSTAINABLE DEVELOPMENT. Theoretical and Empirical Researches in Urban Management, 6(1), 33–43. http://www.jstor.org/stable/24873273
11. Huberman, D. (2010). Green Economy GUIDEBOOK. A Guidebook for IUCN's Thematic Programme Area on Greening the World Economy (TPA5), IUCN. Gland, Switzerland. August 2010 https://corporatefinanceinstitute.com
12. Qasımlı, V., Hüseyn, R., Hüseynov, R., Həsənov, R., Cəfərov, C., və Bayramova, A. (2022). Yaşıl İqtisadiyyat. "Azprint" nəşriyyat, 280 səh. https://ereforms.gov.az/files/publications/pdf/az/b87cb7433650a8abbc72f0324cc1fd71.pdf
13. Porfiriev, B. (2013). GREEN ECONOMY: REALITIES, PROSPECTS, AND LIMITS TO GROWTH. Carnegie Endowment for International Peace. http://www.jstor.org/stable/resrep12852
14. The World Bank. (2022). Azerbaijan Can Accelerate Its Green Economic Transformation: A World Bank Report Shows How. https://www.worldbank.org/en/news/press-release/2022/12/08/azerbaijan-can-accelerate-its-green-economic-transformation-a-world-bank-report-shows-how
15. The World Bank. (2023). GDP growth (annual %) – Azerbaijan. https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.KD.ZG?locations=AZ
16. Todaro, M. P., & Smith, S. C. (2011). Economic development (11th ed.). Harlow: Pearson Education Limited.
17. UNEP. (2010). Green Economy Report: A Preview, United Nations Environment Programme.
18. WCED. (1987). Our common future: The report of the World Commission on Environment and Development. from http://www.un-documents.net/wced-ocf.htm
19. World Bank Group. (1991). Publication summary of 1991 World Development Report (WDR): The challenge of development. https://openknowledge.worldbank.org/server/api/core/bitstreams/768dd2c8-1c0c-5687-a74a-8934d8c33f94/content

MODERN IMPERATIVES OF THE DEVELOPMENT OF THE NATIONAL ECONOMY

Vuqar MEHDIYEV

SUMMARY

The development of the national economy as a complex process is considered as one of the multidimensional approaches in economics. Crises in global conditions, including the financial crisis in 2008, the food and energy crisis in later periods, geopolitical and geoeconomic instability in contemporary period have led to the creation of a number of trends. Within the framework of the development of the national economy, the application of the green economy concept, the promotion of the "green energy" approach, and the implementation of regionalization strategies in order to ensure balanced and sustainable development in socio-economic development are important factors. Taking into account all this, it is possible to see the manifestation of a number of modern imperatives when the state programs and strategies in the socio-economic field implemented in the Republic of Azerbaijan from the years of independence until today are reconciled with their role in the development of the national economy.

Keywords*: National Economy, regionalization, green economy, economic development, Information Communication Technologies.*

Məqalə redaksiyaya daxil olub: 02.03.2023
Təkrar işlənməyə göndərilib: 29.03.2023
Çapa qəbul olunub:17.04.2023

“İQTİSADİ İSLAHATLAR”
elmi-analitik jurnal

KƏND ƏRAZİLƏRİNİN İNKİŞAFINDA AQRAR SAHİBKARLIĞIN SOSİAL MƏSULİYYƏTİNİN BƏZİ ASPEKTLƏRİ

№ 1(6)-2023, səh. 78-85

i.ü.f.d., dosent Natiq MİRZƏYEV,
Lənkəran Dövlət Universiteti

mirzoev.n@mail.ru

Kənd ərazilərinin inkişafında aqrar sahibkarlığın sosial məsuliyyətinin bəzi aspektləri

i.ü.f.d., dosent Natiq MİRZƏYEV
Lənkəran Dövlət Universiteti

XÜLASƏ

Aqrar sahə bütün dünyada ən mühüm iqtisadi sahələrdən biridir. O, demək olar ki, bütün insanları ərzaqla təmin edir. Bununla yanaşı, sahibkarlıq fəaliyyəti və aqrar sektorun birləşməsi insanları mümkün olan bir çox iş yerləri ilə təmin edir. Aqrar sahibkarlığın sosial məsuliyyətli olması kənd ərazilərinin inkişafına öz təsirini göstərir. Məqalədə aqrar sahədə sosial sahibkarlığın kənd ərazisinin inkişafının idarə edilməsi vasitəsi kimi istifadə imkanlarından bəhs edilir. Kənd ərazilərinin inkişafında dövlətin maraqları və aqrar sahibkarlığın sosial məsuliyyəti, aqrar sahibkarlığın sosial məsuliyyətinə təsir edən mühit amilləri araşdırılmışdır. Eyni zamanda, aqrar sahədə sosial sahibkarlığın innovasiya fəaliyyətinin inkişaf etdirilməsi və onun kənd ərazilərinin inkişafında əhəmiyyəti qeyd olunmuşdur. Nəticə etibarilə aqrar sahədə sosial yönümlü sahibkarlığın inkişaf etdirilməsi, insanların kənddə yaşamağa cəlb edilməsinə və keyfiyyətli kənd həyatının təmin edilməsinə öz töhfəsini vermişdir.

***Açar sözlər**: aqrar sahibkarlıq, kənd əraziləri, mühit amilləri, innovasiya, sosial məsuliyyət, sosial sahibkarlıq.*

***JEL kodu:** Q10; L31; M14; P25*

GİRİŞ

Sosial sahibkarlıq cəmiyyətin üzləşdiyi problemlərin həllinə və ya yumşaldılmasına yönəlmiş xeyriyyəçilik və sahibkarlıq fəaliyyətlərinə aiddir.

Sosial sahibkarlar dedikdə, vətəndaşların müəyyən kateqoriyalarının mənafeyi çərçivəsində məhsul və xidmətlər istehsal edən və ya onlar üçün iş yerləri yaradan insanlar başa düşülür. Məzmun baxımından bunlar daha çox əlavə təhsil, sosial xidmətlərin göstərilməsi, eləcə də, səhiyyə, mədəniyyət və idman sahəsində olan layihələrdir.

Sosial məsuliyyət müxtəlif sahələrdə formalaşır. Sosial məsuliyyətin formalaşmasına dair çox sayda ədəbiyyatlar sənaye sahəsinə və nadir hallarda isə aqrar sahibkarlıq kimi sahəyə həsr edilmişdir.

Müasir dünyada sahibkarlığın sosial məsuliyyətinin formalaşması və inkişafı getdikcə aktual və populyar mövzuya çevrilir. Sahibkarlığın sosial məsuliyyəti Azərbaycan reallığında nisbətən yeni bir iqtisadi kateqoriyadır, onun inkişafı bazar münasibətlərinin institutsionallaşması və artan rəqabət şəraitində nəzərə çarpır. Sahibkarlığın sosial məsuliyyəti dəyişən makroiqtisadi və sosial şəraitə uyğun olaraq tədricən yeni formalar alır. Sosial məsuliyyətin formalaşması ilə bağlı problemlər bu gün xüsusilə, aqrar sahədə sahibkarlığın inkişafında və çiçəklənməsində mühüm əhəmiyyət kəsb edir.

Sahibkarlığın sosial məsuliyyəti məsələlərini Q.Bouen, K.Devis, K.Uolton, M.Fridman, R.Askerman, V.S.Frederik, D.Vud, J.Post, L.Preston, A.Karroll, S.Hilton, D.Qibbons, F.Kotler və s. alimlər araşdırmışlar. Aqrar sahibkarlığın sosioloji tədqiqat obyekti kimi nəzərə alınaraq tədqiq olunması M.Qranovetter, E.P.Thompson, J.K.Skott və digər bu kimi alimlər tərəfindən həyata keçirilmişdir.

Azərbaycan şəraitində aqrar sahədə sahibkarlığın sosial məsuliyyəti və onun kənd yerlərinin inkişafına təsiri məsələlərinin araşdırılmasına ehtiyac vardır.

KƏND ƏRAZİLƏRİNİN İNKİŞAFINDA DÖVLƏTİN MARAQLARI VƏ AQRAR SAHİBKARLIĞIN SOSİAL MƏSULİYYƏTİ

Kənd yerlərinin inkişaf etdirilməsi dövlətin fəaliyyətinin ən mühüm strateji istiqamətlərindən biridir. Burada həm sosial-iqtisadi, həm də geosiyasi məsələlər eyni (bərabər) səviyyədə əhəmiyyət kəsb edirlər. Dövlətin sosial-iqtisadi maraqları kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasını, onun səmərəli məşğulluğunun və ən azı minimum sadə demoqrafik təkrar istehsalın təmin edilməsini əhatə edir. Geosiyasi vəzifələr əhalinin kənddən həddən artıq köçməsinin, sərhədyanı ərazilərdə, xüsusən, mövcud əraziyə, orada yaşayan əhalinin lazımi nəzarətini həyata keçirməyə imkan verən ərazilərdə əhalinin sayının azalmasının qarşısını almaqdan ibarətdir. Hər iki vəzifə ölkə daxilində iş yerlərinin vahid bölgüsünü tələb edir.

Sosial məsuliyyət müəssisənin davamlı inkişafı ilə qarşılıqlı əlaqədədir. Amma kənd təsərrüfatı müəssisələri üçün "dayanıqlı inkişaf" anlayışına demək olar ki, rast gəlinmir. "Çox vaxt davamlı inkişaf kateqoriyası kənd yerləri və aqrar sahədə fəaliyyət göstərən müəssisələrdə fərdi şəkildə özünü göstərir. Müəssisə səviyyəsində bu əksər hallarda korporativ sosial məsuliyyət sistemi vasitəsilə baş verir" [4]

Yalnız aqroholdinqləri stabil inkişaf edən müəssisələr adlandırmaq olar. Çünki, onlar böyük gəlirlər əldə edir və özünün kommersiya fəaliyyətinin strateji istiqamətlərini inkişaf etdirə bilirlər. Kiçik təsərrüfatlar və fermer təsərrüfatları belə imkanlara malik deyillər.

Kənd yerlərinin sosial məsuliyyətinin əsas istiqaməti təkcə dövlətin dəstəyi deyil, həm də kənd zəhmətkeşləri tərəfindən dəstəklənməsidir. Daha çox bu dəstəyi aqroholdinqlər həyata keçirir. Eyni zamanda, bu dəstək kifayət qədər uğurla inkişaf edən yerli fermer təsərrüfatları tərəfindən də həyata keçirilə bilər. "İnfrastrukturun inkişaf etdirilməsi müasir kəndin əsasıdır. Məhz bu istiqamətdə sponsorlardan dəstək lazımdır" [2].

Həmçinin, aqroholdinqlər öz sosial məsuliyyətlərini işçilərin əmək şəraitinin yaxşılaşdırılması istiqamətində ətraf mühitin mühafizəsi və müdafiəsi fəaliyyətinə yönəldirlər. Sosial məsuliyyət prinsiplərini tətbiq etməklə, müəssisənin bazar dəyəri artmağa başlayır, çünki belə olan təqdirdə investorlar onları etibarlı və ciddi tərəfdaş kimi qəbul edirlər.

AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN SOSİAL MƏSULİYYƏTLİNİN MƏQSƏDİ

Son illərdə iqtisadiyyatın bütün sahələrində biznesin sosial məsuliyyəti prinsiplərinin populyarlaşması müşahidə olunur. Aqrar sahibkarlığın problemləri və onun kəndin sosial inkişafına təsiri dövlətin sosial siyasətinin çox əhəmiyyətli tərkib hissəsidir. Qeyd etmək lazımdır ki, bu sahədə biliklər və informasiyalar azdır. Aqrar sahədə sahibkarlığın sosial məsuliyyətinin formalaşdırılması amillərinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, aqrar sahibkarlığın sosial məsuliyyəti - kəndin sosial problemlərini həll etmək yolu ilə öz təsərrüfatını dəstəkləməyə, eləcə də, öz işçilərinə və kəndin sakinlərinə sosial dəstək verməyə yönəldilmiş aqrar müəssisələrin məsuliyyətidir.

Aqrar sahədə sahibkarlığın sosial məsuliyyətinin əsas məqsədi məhsuldar qüvvələrin elmi-texniki inkişaf səviyyəsinin, işçilərin təkrar istehsalı sahəsində idarəetmənin ən səmərəli üsullarından istifadə etməklə cəmiyyətin mədəni və mənəvi həyat səviyyəsinin, əmək məhsuldarlığının, əmək ehtiyatlarının təhsil və ixtisas səviyyəsinin yüksəldilməsidir. Aqrar sahədə sahibkarlıq subyektlərinin sosial məsuliyyətinin əsas məqsədləri aşağıdakılardır:

- ictimai münasibətlərin uyğunlaşdırılması, əhalinin ayrı-ayrı qruplarının maraq və ehtiyaclarının cəmiyyətin uzunmüddətli maraqları ilə üst-üstə düşməsi, ictimai-siyasi sistemin stabilləşməsi;
- əhalinin maddi rifahının təmin edilməsi üçün şəraitin yaradılması, ictimai istehsalda iştirak üçün iqtisadi stimulların formalaşdırılması, normal həyat səviyyəsinə nail olmaq üçün sosial imkanların bərabərliyinin təmin edilməsi;
- bütün vətəndaşların sosial müdafiəsinin və onların dövlət tərəfindən təmin edilən əsas sosial-iqtisadi hüquqlarının, o cümlədən, əhalinin aztəminatlı qruplarına dəstəyin təmin edilməsi;

- cəmiyyətdə rasional məşğulluğun təmin edilməsi;
- cəmiyyətdə kriminallaşma səviyyəsinin azaldılması;
- təhsil, səhiyyə, elm, mədəniyyət, mənzil-kommunal təsərrüfatı və s. kimi sosial sahələrin kompleks inkişafı;
- ölkənin ekoloji təhlükəsizliyinin təmin edilməsi.

AQRAR SAHİBKARLIĞIN SOSİAL MƏSULİYYƏTİNİN MÜHİT AMİLLƏRİ VƏ ONA TƏSİRİ

Sosial məsuliyyət amilləri - cəmiyyətin sosial məsələlərinin həllində müəssisənin fəaliyyətinə və roluna təsir edən xarici və daxili şəraitlərin məcmusudur. Ümumiyyətlə, aqrar sahibkarlığın sosial məsuliyyəti xarici və daxili mühit səviyyəsində həyata keçirilir. Aqrar sahibkarlığın sosial məsuliyyətinin daxili mühitinə əməyin təhlükəsizliyinin təmin olunması, əmək haqqının stabilliyi, vergilərin ödənilməsi, işçilərin əlavə olaraq tibbi və sosial sığortası, təlim və təkmilləşdirmə proqramları vasitəsilə insan resurslarının inkişaf etdirilməsi, işçilərə yardım edilməsi daxildir. Daxili mühit amillərinə isə sponsorluq və korporativ xeyriyyəçilik, ətraf mühitin mühafizəsinin təşviqi, yerli cəmiyyətlər və yerli hakimiyyət orqanları ilə qarşılıqlı əlaqə, böhran vəziyyətlərinin həllində iştirak etmək istəyi, mal və xidmətlərin istehlakçıları qarşısında məsuliyyət (keyfiyyətli malların istehsalı) aiddir.

Aqrar sahibkarlığın sosial məsuliyyəti sosial proqramların aşağıdakı növləri vasitəsilə həyata keçirilə bilər: müəssisə və təşkilatların öz proqramları; müəssisələrin yerli, regional və hökumət orqanları ilə tərəfdaşlıq proqramları; aqrar sahibkarlıq subyektləri ilə ictimai təşkilatlar və peşəkar birliklər arasında əməkdaşlıq proqramları; media (kütləvi informasiya vasitələri) ilə informasiya əməkdaşlığı proqramları.

Göstərilən sosial proqramlar xeyriyyəçilik ianələri və sponsorların köməyi, müəssisə və təşkilatlarda fəaliyyət göstərən işçilərin sosial proqramlardakı könüllü iştirakı, korporativ sponsorluq, korporativ fond, pul qrantları, sosial investisiyalar və sosial marketinq kimi alətlər vasitəsilə həyata keçirilir [3].

Sosial məsuliyyətin formalaşması amillərini üç qrupda qruplaşdırmaq olar: makrosəviyyəli amillər, mikrosəviyyəli amillər və kəndli (fermer) təsərrüfatının xüsusiyyətləri ilə bağlı olan amillər. Bu faktorlar müəssisələrin sosial məsuliyyətinin formalaşmasına müxtəlif dərəcədə təsir göstərir.

Kənd yerlərində ən vacib faktorlardan biri də ekoloji faktordur. "Ekoloji səmərəlilik təbii mühitin qorunması, təbii sərvətlərdən istifadə səviyyəsi, ekoloji cəhətdən təmizliyin artması və istehsal olunan məhsulların təbii resurs tutumluluğunun azalması, məhsulların keyfiyyətinin və yaşayış mühitinin yaxşılaşdırılması ilə xarakterizə olunur. Ətraf mühitin səmərəliliyinin meyarı ətraf mühitin deqradasiyasının qarşısının alınması, onun yaxşılaşdırılması, istehsalın ekoloji cəhətdən təmizliyini, məhsul keyfiyyətini artırmaqdır" [1, s.53]. Məhz ekoloji problemlərin həlli və bu istiqamətdə sabitliyin təmin olunmasında sahibkarlıq subyektlərinin sosial məsuliyyətinin artırılması tələb olunur.

Şəkil 1. Sosial məsuliyyətin formalaşmasına təsir edən amillər

Sosial məsuliyyətin formalaşması milləri → **Aqrar sahibkarlığın sosial məsuliyyəti** → **Müəssisələrdə sosial məsuliyyətin nəticələri**

Sosial məsuliyyətin formalaşması milləri

Makrosəviyəli amillər:

regional hakimiyyət və yerli özünüidarəetmə orqanlarının siyasəti;

normativ hüquqi bazanın inkişaf səviyyəsi;

kənd təsərrüfatının iqtisadi vəziyyəti və inkişafı.

Makrosəviyəli amillər:

kənddə infrastrukturun inkişafı;

adət-ənənələr və kəndin metaliteti;

aqrar müəssisələrin rəhbərinin mənəvi dəyərləri;

aqrar müəssisələrin maliyyə vəziyyəti;

kənd ərazilərinin kadr siyasəti;

aqrar müəssisələrin imic siyasəti.

Kəndli (fermer) təsərrüfatının xüsusiyyətləri ilə bağlı olan amillər:

İşçilərin tərkibi və təhsil səviyyəsi;

heyətin saxlanması və inkişafına olan tələblər;

rəhbərliyin xüsusiyyətləri və üslubu;

əmək şəraiti;

heyətə təsir üsulları.

Aqrar sahibkarlığın sosial məsuliyyəti

Xarici sosial məsuliyyət:

sponsorluq və xeyriyyəçilik;

ətraf mühitin müdafiənin təşviqi;

yerli icma və yerli hakimiyyət ilə qarşılıqlı əlaqə;

hazırlıq böhran hallarında iştirak etməyə hazır olmaq;

mal və xidmətlərin istehlakçıları qarşısında məsuliyyət (keyfiyyətli mal istehsalı.

Daxili sosial məsuliyyət:

əməyin təhlükəsizliyinin təmin edilməsi;

hər bir işçi üçün sabit əmək haqqının saxlanması;

vergilərin ödənilməsi; işçilərin əlavə sosial və tibbi sığortasının təmin edilməsi;

insan resurslarının inkişafı (kadrların hazırlanması və təkmilləşdirilməsi);

kritik vəziyyətlərdə işçilərə kömək.

Müəssisələrdə sosial məsuliyyətin nəticələri

şirkətin imicinin yaxşılaşdırılması;

daxili korporativ mədəniyyətin təkmilləşdirilməsi;

yeni müştərilərin cəlb edilməsi;

məhsulların satışının artması;

dəyərli işçilərin müəssisədə saxlanılması;

kəndin sosial inkişafında müəssisənin rolunun genişləndirilməsi;

kəndin sosial infrastrukturunun qorunması;

kənd icmasının sakinlərinin məmnunluğu (sadiqliyi).

AQRAR SAHƏDƏ SOSİAL SAHİBKARLIĞIN İNNOVATİV FƏALİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ

Sosial sahibkarlıq Azərbaycan iqtisadiyyatı üçün yeni bir sahədir. Onun innovasiyalı xarakteri demək olar ki, mənfəət əldə etməyin yeganə şərtidir. İnnovasiya fəaliyyətinə müəssisənin problemlərinin müəyyən edilməsi; innovasiya prosesinin həyata keçirilməsi; innovasiya fəaliyyətinin təşkili daxildir. Bu zaman təşkilatların fəaliyyət istiqamətini və onun sosial - iqtisadi əhəmiyyətini nəzərə almaq lazımdır. Aqrar sahədə sosial sahibkarlığın xüsusi dövlət institutu kimi formalaşması innovasiyalı fəaliyyətin daha fəal inkişafını nəzərdə tutur.

Kənd təsərrüfatında sahibkarlar tərəfindən innovasiyalardan istifadə edilməsində aşağıdakı maneələr mövcuddur:

1. Yüksək risk. Təbiətinə görə sahibkarlıq fəaliyyəti böyük risk ilə bağlıdır. Yeniliklərin tətbiq edilməsi riskin səviyyəsini daha da artırır.
2. İdeyanın yaranmasından son məhsula qədər uzun müddətin olması. İnnovasiya sahibkarlığı istiqamətində ekspertlərin fikrincə, bu proses üç-beş ilə olan müddəti əhatə edir.
3. Kompleks dövlət dəstəyinin olmaması.
4. Maliyyə xərcləri. Pul çatışmazlığı innovasiyaların tətbiqində əsas maneədir və maliyyələşdirmə mənbəyi (investor) tapmaq da çətindir. Bildiyiniz kimi, ilkin mərhələdə daimi maliyyə qoyuluşlarının olmaması durğunluğa və itkilərə səbəb olur [6, s.457].

Belə şəraitdə sahibkarlar özləri təşəbbüs göstərməlidirlər. Qeyd etmək lazımdır ki, uğurun açarı sahibkarların özlərinin motivasiyasıdır və onların innovasiya aktivliyi səviyyəsidir.

İnnovasiya aktivliyi dedikdə, ətraf mühitin yeni bir şəkildə qəbul edilməsi, problemin müəyyənləşdirilməsi və məqsədlərin qoyuluşu, həmçinin, bütün intellektual, yaradıcılıq imkanlarından istifadə edərək bu problemlərin həll edilməsi bacarığı başa düşülür. Belə olan halda innovasiya iqtisadi cəhətdən yeni əmtəə və xidmətlərin təklif olunması kimi təqdim edilə bilər.

N.Z.Safiullin və M.D.Fayzrahmanova görə isə aqrar sahədə sosial sahibkarlığın innovasiya fəallığının artmasına aşağıdakı bir sıra amillər mane olur:

- ideyanın mümkün yanlışlığı səbəbindən yaradıcılıq prosesinin nəticələrinin gözlənilməzliyi avanslaşdırılmış kapitalı itirmək riskinin artmasına səbəb olur; innovasiyanın yaranmasına bazarın reaksiyasını proqnozlaşdırmaq çətinləşir;
- innovasiya fəaliyyətində avanslaşdırılmış maliyyə vəsaitlərindən tutmuş innovasiyalardan əldə olunmuş kommersiya vəsaitlərinin ödənilməsində gecikmələr müşahidə olunur;
- innovasiya fəaliyyətinin nəticəsinin yüksək səviyyədə qeyri-müəyyənliyi maliyyə vəsaitlərinin geri qaytarılmasına zəmanət vermir;
- dövlət tərəfindən maliyyə dəstəyinin çatışmazlığı;
- yeni texnologiyalar haqqında informasiyanın olmaması;
- yeniliklərin təşviqi ilə bağlı təsəvvür və qabiliyyətin olmaması [5, s.31];
- sadə istehlakçılar tərəfindən sosial yönümlü müəssisələrin məhsul və xidmətlərinə üstünlük verilməməsi.

İnnovasiya fəaliyyəti cəmiyyətin yeni ehtiyaclarının təmin edilməsinə can atması ilə xarakterizə olunur və bu kimi fəaliyyətlərə qadir olan insanların mövcudluğundan asılıdır. Aqrar sahədə innovasiyalı sahibkarlığın həyata keçirilməsi zamanı sosial sahibkarlıq subyektləri dövlət tərəfindən dəstək və inkişaf proqramlarının olmaması ilə əlaqədar olaraq çoxlu sayda problemlərlə üzləşirlər. “İqtisadiyyatın digər sahələrində olduğu kimi aqrar sahədə də dövlət-özəl tərəfdaşlığı formalarından biri kimi innovativ infrastrukturun (klasterlər, inkubatorlar, texnoparklar, texnologiya transferi ofisləri və s.) yaradılması bu sahədə sahibkarlığın inkişaf etdirilməsinə mühüm dəstək verir. Azərbaycanda sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar, aparılan islahatlar və dövlət dəstəyi tədbirləri nəticəsində özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib” [7]. Belə dəstək sahibkarlıq fəaliyyətinin başlanğıc mərhələsində olduğu kimi, aktyiv inkişaf mərhələsində də vacibdir.

NƏTİCƏ

Kənd yerləri, şəhər yerləri kimi, təkcə yaşayış yeri deyil, həm də təsərrüfat obyektlərinin yerləşdiyi ərazidir. Buna görə də o, yaşayış yeri kimi yeni iqtisadi fəaliyyət növləri üçün də cəlbedici olmalıdır. Aqrar sahibkarlıq kənd ərazilərinin sosial-iqtisadi inkişafına böyük töhfə verir.

Aqrar sahədə sahibkarlığın sosial məsuliyyətinin formalaşması amillərinin təhlili cəmiyyətin sosial məsələlərinin həllində müəssisənin roluna təsir edən və vəhdətdə olan xarici və daxili şərtlərin olduğunu göstərir. Bu amillərin nəzərə alınması çox önəmlidir. Aqrar müəssisələrdə sosial məsuliyyətin inkişafında dövlətin stimullaşdırıcı siyasəti mühüm rol oynayır. Bu istiqamətdə əsas rola işəgötürənlərin sosial məsuliyyətinin artırılmasına yönəlmiş müxtəlif tədbirləri həyata keçirən regional idarəetmə orqanları malikdirlər.

Kənddə sahibkarların kəndin sosial-mədəni həyatına fəal cəlb edilməsi və biznesin sosial-mühəndislik infrastrukturundan daha çox asılılığı kənddə biznesin sosial məsuliyyətinin yüksək səviyyədə formalaşmasına təsir göstərir. Bədən tərbiyəsi və idmanın inkişafına, uşaqların təhsilinə, kənddə mədəni-kütləvi tədbirlərin keçirilməsinə sponsorluq etməklə, yolların və sahibkarlıq obyektlərinə bitişik ərazilərin normal vəziyyətdə saxlanılması tədbirlərinin maliyyələşdirilməsində iştirak etməklə, aqrar sahibkarlıq kənd yerlərində həyat keyfiyyətinin və yaşayışın cəlbediciliyinin yaxşılaşdırılmasına mühüm töhfə verir.

Sahibkarlıq subyektləri ilə dövlət arasında qarşılıqlı əlaqənin formalaşması və gücləndirilməsi vacib məsələlərdəndir. Bu da öz növbəsində kənddə sahibkarların sosial məsuliyyətini artıracaq və kəndin inkişafına öz müsbət təsirini göstərəcəkdir.

ƏDƏBİYYAT

1. Mirzəyev N.S. Kənd təsərrüfatında sahibkarlığın iqtisadi səmərəliliyinin meyarları və göstəriciləri. "Kənd Təsərrüfatının İqtisadiyyatı" elmi-praktik jurnal. BAKI – 2021 - № 2 (36) – səh. 51 – 57
https://agroeconomics.az/az/article/51/kend-teserrufatinda-sahibkarligin-iqtisadi-semerel/
2. Гришина Я.С. Публично-правовые средства государственной поддержки социальных предприятий малого и среднего бизнеса // Вестник Саратовского государственного социально -экономического университета. 2012. № 5.С. 102 - 106.
https://lib.usue.ru/bibliograficheskie-resursy/23-bul2/82-bul446
3. Гурьянова Н. Социальная ответственность агробизнеса и элементы ее реализации / Н. Гурьянова, Н. Бекренова // Международный сельскохозяйственный журнал. – М.,2015. - № 3. – С. 16-19.
https://cyberleninka.ru/article/n/sotsialnaya-otvetstvennost-agrobiznesa-i-elementy-ee-realizatsii
4. Мочалова Я.В. Механизм повышения социально-экономической эффективности малого предпринимательства в России // Теория и практика общественного развития. – 2014.–№1.–С.409-411;[Электронный ресурс].
http://cyberleninka.ru/article/n/mehanizm-povysheniya-sotsialno-ekonomicheskoy-effektivnosti-malogo-predprinimatelstva-v-rossii
5. Сафиуллин Н.З., Файзрахманов М.Д. Инновационная активность предприятий в условиях «Новой экономики». Бюллетень Казанского Государственного Аграрного Университета. – 2007. - № 2(6) – стр.29–32
https://vestnik-kazgau.com/
6. Тагирова, А.В. Использование инноваций в бизнесе индивидуальными предпринимателями//Культура, наука, образование: проблемы и перспективы: материалы VI международной научно-практической конференции. Нижневартовск, 2017. С. 455–458.

http://konference.nvsu.ru/konffiles/320/Kultura,%20nauka_konf_chast1.pdf

7. Mirzayev N.S. Development of innovative agrarian entrepreneurship based on public-private partnership in Azerbaijan. Вестник Белорусской Государственной Сельскохозяйственной Академии № 4 2022. Горки, Беларусь - стр. 29-35 https://cyberleninka.ru/article/n/development-of-innovative-agrarian-entrepreneurship-based-on-public-private-partnership-in-azerbaijan

НЕКОТОРЫЕ АСПЕКТЫ СОЦИАЛЬНОЙ ОТВЕТСТВЕННОСТИ АГРАРНОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В РАЗВИТИИ СЕЛЬСКИХ ТЕРРИТОРИЙ

Натиг МИРЗОЕВ

РЕЗЮМЕ

Социальная ответственность аграрного предпринимательства показывает свое влияние на развитие сельских территорий. В статье говорится о возможностях использования социального предпринимательства в аграрной сфере как средства управления развитием сельской местности. Исследованы интересы государства и социальная ответственность аграрного предпринимательства в развитии сельских территорий, экологические факторы, влияющие на социальную ответственность аграрного предпринимательства. А также отмечено развитие инновационной деятельности социального предпринимательства в аграрной сфере и его значение в развитии сельских территорий. В результате показано, что развитие социально ориентированного предпринимательства в аграрной сфере способствует привлечению населения к проживанию в селе и обеспечению качественной сельской жизни.

Ключевые слова: *аграрное предпринимательство, сельская местность, экологические факторы, инновации, социальная ответственность, социальное предпринимательство*

SOME ASPECTS OF THE SOCIAL RESPONSIBILITY OF AGRICULTURAL ENTREPRENEURSHIP IN THE DEVELOPMENT OF RURAL AREAS

Natig MIRZAYEV

SUMMARY

The social responsibility of agricultural entrepreneurship shows its impact on the development of rural areas. The article talks about the possibilities of using social entrepreneurship in the agricultural sector as a means of managing the development of rural areas. The interests of the state and the social responsibility of agricultural entrepreneurship in the development of rural areas, environmental factors influencing the social responsibility of agricultural entrepreneurship have been studied. And also noted the development of innovative activities of social entrepreneurship in the agricultural sector and its importance in the development of rural areas. As a result, it is shown that the development of socially oriented entrepreneurship in the agricultural sector helps to attract the population to live in the village and ensure a quality rural life.

Key words: *agrarian entrepreneurship, rural areas, environmental factors, innovations, social responsibility, social entrepreneurship*

Məqalə redaksiyaya daxil olub: 07.03.2023
Təkrar işlənməyə göndərilib: 28.03.2023
Çapa qəbul olunub:17.04.2023

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

AİLƏ GƏLİRLƏRİNİN NƏSİLVERMƏ ƏMSALINA TƏSİRİ

№ 1(6)-2023, səh. 86-96

Səbinə CUMAZADƏ,
Azərbaycan Turizm və Menecment Universitetinin Menecment kafedrasının müəllimi

sebine.yusifova52@gmail.com

AİLƏ GƏLİRLƏRİNİN NƏSİLVERMƏ ƏMSALINA TƏSİRİ

Səbinə CUMAZADƏ
Azərbaycan Turizm və Menecment Universitetinin
Menecment kafedrasının müəllimi

XÜLASƏ

Tədqiqatın məqsədi ölkədə önəmli demoqrafik göstəricilərdən biri olan nəsilvermə əmsalı və gəlir arasında asılılığın araşdırılmasından ibarətdir. Azərbaycanda ailə gəlirləri, ailənin hər hansı əlavə gəlir qaynağının olması doğum qərarına təsirinin mövcudluğunu təhlil etmək məqsədilə evli insanlar arasında müəllif tərəfindən sorğu keçirilmişdir. Survey Monkey platforması vasitəsilə aparılmış sorğunun təhlili zamanı SPSS proqram paketindən istifadə olunmuşdur. İki kateqorik dəyişən arasında asılılığın təhlili üçün xi-kvadrat testindən istifadə edilmişdir.

Fərqli tədqiqatçılar tərəfindən nəsilvermə tədqiqatlarına dair ədəbiyyatda istifadə edilən keyfiyyət-kəmiyyət yanaşması Azərbaycanda daha əvvəl heç bir elmi araşdırmada müzakirə edilməmişdir. Əhali artımının iqtisadi inkişafa təsiri ilə bağlı çoxsaylı araşdırmalar aparılsa da mikro səviyyədə ailələrin uşaq sahibi olma qərarına təsir edən amillərin araşdırılması tədqiqatın yeniliyini göstərir. Təklif edilir ki, ölkələrin inkişaf strategiyası konkret regional və milli demoqrafik kontekstlər və tendensiyalar nəzərə alınmaqla müəyyənləşdirilməlidir.

Açar sözlər*: nəsilvermə əmsalı, gəlir, doğum qərarı, Beker nəzəriyyəsi, Leibenstein nəzəriyyəsi*

JEL kodu*: D31; H24; N30*

GİRİŞ

1960-cı illərə qədər iqtisadçılar hesab edirdilər ki, nəsilvermə təhlili iqtisadi nəzəriyyənin əhatə dairəsindən kənardır. Çünki ənənəvi istehlakçı seçimləri çərçivəsində bununla məşğul olmaq çətin idi. Lakin insan kapitalı, vaxt bölgüsü və bazar kimi amillər nəzərə alınaraq ev təsərrüfatlarının davranışını analiz edən iqtisadi nəzəriyyədəki son inkişaflar nəsilverməni nəzəri çərçivədə təhlil etməyə imkan verdi. Bu nəzəri struktur ədəbiyyatlarda "ailənin iqtisadi nəzəriyyəsi" kimi tanınır [12]. Nəsilvermə modelinin öncüllərindən Beker (1960) uşaqların aşağı keyfiyyətdə mallarla eyniləşdirmə cəhdini və uşaqlara daha çox pul xərcləyən yüksək gəlirli ailələrin daha yüksək qiymətli uşaqlarla qarşılaşdıqları üçün daha aşağı nəsilverməyə malik olduğunu irəli sürən izahatları rədd etdi. Əvəzində Beker bildirdi ki, uşaqlar lüks bir məhsul kimidirlər və gəlir artdıqca onlara olan tələb də artır[7, s.294].

Beker nəsilvermə və gəlir arasındakı tərs əlaqənin aşağı gəlirli qrupların doğuma nəzarət haqqında kifayət qədər biliyə malik olmamasından qaynaqlandığını müdafiə edir. Amerikan iqtisadiyyatçısı Maykl Paul Todaro isə aztəminatlı cəmiyyətlərdə uşaqlara olan tələbi müəyyən edən amillər kimi uşağın xalis dəyəri (uşağın potensial gəliri, qocalıqda təminat, ananın alternativ xərcləri arasındakı fərq, vaxt və gözlənilən xərclər) və digər ehtiyacların dəyəri və uşağa uyğun olaraq bu ehtiyacların qiymətləndirilmə səviyyəsi olduğunu qeyd etmişdir. [10].

Tədqiqatın əsas məqsədi, ailələrin gəlirləri və uşaqların onlar üçün ifadə etdiyi anlam ilə uşaq sayı qərarı arasında əlaqənin mövcudluğunu araşdırmaqdan ibarətdir. Tədqiqat aparılarkən sorğu metodundan istifadə edilmişdir. Azərbaycanda 2021-ci ildə evli insanlar arasında əhalinin doğum qərarına təsir edən amillərin araşdırılması məqsədilə aparılmış sorğuda 398 nəfər iştirak etmişdi. Bunlardan 298 nəfəri qadın, 100 nəfəri isə kişidir. Sorğu Survey Monkey platforması üzərindən online şəkildə aparılmışdır. Təhlil zamanı spss proqram paketindən istifadə edilmişdir. Sosial-iqtisadi inkişafın təmin edilməsində demoqrafik amillərin rolunu müəyyənləşdirərkən doğum qərarı ilə gəlirlər arasında əlaqəni müəyyənləşdirmək olduqca maraq doğurur.

Demoqrafik vəziyyətin sosial-iqtisadi inkişafa təsirinin daima diqqət mərkəzində olmasına və vacib məsələ olmasına baxmayaraq, nəsilvermə qərarına təsir edən amillərin statistik əhəmiyyətinin müəyyənləşdirilməsi tədqiqatın orijinallığının göstəricisidir. Tədqiqatın nəticəsi olaraq ailə gəlirləri ilə nəsilvermə arasında əlaqənin mövcud olmadığı xi- kvadrat (chi-square) testi vasitəsilə aşkarlanmışdır.

BEKERİN VƏ LEİBENSTEİN NƏSİLVERMƏ MODELLƏRİ

Uşağın xərclərini qeyri-iqtisadi və iqtisadi xərclər kimi iki qrupa bölmək olar: Qeyri-iqtisadi xərclər, uşağın valideynlərdə yaratdığı emosional və psixoloji problemlər, çətinliklərdir. Ailəyə əlavə olunan hər bir uşaq valideynlərin sağlamlığı və davranışları ilə bağlı narahatlığına səbəb olur.

İqtisadi xərclər isə birbaşa təminat xərcləri və alternativ xərclərdir. Birbaşa təminat xərcləri: bunlar uşağın doğulmasından əvvəl başlayan və yetkin olana qədər davam edən maliyyə xərcləridir. Bu xərclər, yemək, geyim, sığınacaq, nəqliyyat, təhsil və sağlamlıq xərclərini əhatə edir. Alternativ xərclər: buraya uşaq sahibi olmaq və böyütmək üçün valideynlərin fədakarlıq etməsini tələb edən imkanlar daxildir. Ölkələrin iqtisadi inkişaf səviyyəsinə görə əhəmiyyəti dəyişən üç növ alternativ xərclər qeyd olunur: 1) Aşağı həyat səviyyəsinə səbəb olan istehlak xərcləri 2) Uşağa görə ailənin qənaət və sərmayə qoyma imkanlarının azalması 3) Uşağa görə işdən/mümkün qazancdan imtina edən qadınlar [5].

Qeyd etmək lazımdır ki, ailələrdə uşaq sayının artması, yığılan gəlirin istehlaka yönəldilməsinə və ümumi yığımların azalmasına səbəb olacaqdır [3]. Ədəbiyyatlarda ailənin gəliri nəsilverməyə təsir edən mühüm amillərdən biri olaraq dəyərləndirilmişdir. Wang və Famoye ailə gəlirinin nəsilverməyə təsirinin mənfi və statistik cəhətdən əhəmiyyətli olduğunu, keyfiyyət-kəmiyyət yanaşmasını dəstəklədiyini aşkar etdilər [11]. Ailənin gəliri artdıqca, ev təsərrüfatına az, keyfiyyətli uşaq yetişdirməyə isə daha çox üstünlük verəcəklər. Bu amillərlə yanaşı, ədəbiyyatda qadınların işçi qüvvəsində iştirakı, qadın və kişilərin əmək haqqı, kişilərin təhsil səviyyəsi, doğuşa nəzarət üsullarını bilməsi, ailənin coğrafi bölgəsi, uşaqların yaş tərkibi kimi faktorlar qeyd edilmişdir. Bundan əlavə, sosial vəziyyət, o cümlədən kişi və qadınların evlilik yaşı da, nəsilvermə qərarına təsir göstərir.

Uşaq sahibi olmağın dəyəri və faydaları zaman və məkana görə dəyişir: Ənənəvi kənd təsərrüfatı cəmiyyətlərində uşaq sahibi olmağın və böyütməyin faydaları yüksək, xərc isə aşağıdır. Sənayeləşmiş və şəhərləşmiş müasir cəmiyyətdə xərclər artdıqca uşağın qəbul edilən faydası azalır. İnkişaf etmiş ölkələrdə əhalinin əhəmiyyətli bir hissəsi şəhərlərdə cəmləşib və işçi qüvvəsinin əksəriyyəti qeyri-əsas sektorlarda çalışır. Qadınlar evdən kənarda daha çox iş imkanı taparaq işçi qüvvəsinə qoşulurlar. Beləliklə, daha az uşaq və kiçik ailələrə üstünlük verilir. Yaponiyada gənc qadınlar subay qalmağa və valideynləri ilə daha çox yaşamağa və bütün gəlirlərini özlərinə xərcləməyə üstünlük verirlər.

Nəsilvermə ilə bağlı modellərin nəzəri strukturu əsasən Beker tərəfindən irəli sürülüb. Bu problemin təhlilini sadələşdirmək üçün Beker hər bir ailənin doğum və uşaqların sayı arasındakı intervala mükəmməl nəzarət etdiyini fərz etdi. Neoklassik iqtisadi strukturda Beker uşaqların davamlı mallar kimi qəbul edildiyini və uşaqların keyfiyyətinin uşağa düşən xərclər (təhsil, sağlamlıq və s.) vasitəsilə müəyyən edildiyini müdafiə edirdi. Bekerin fərziyyəsi nəsilvermə determinantlarının təhlili üçün iqtisadi yanaşmanı təmin edir. Bekerə görə, əksər ailələr üçün uşaqlar fiziki qazanc və məmnunluq mənbəyidir. Uşaqlarla bağlı məsrəflər və ya həzzlər digər davamlı malların xərclərinə bənzəyir. Beker uşaqlara olan tələb strukturunu digər davamlı istehlak mallarına olan tələb strukturu ilə müqayisə etmiş və gəlirin artmasının daha çox uşaq və uşaq başına daha çox xərc tələb etdiyini bildirmişdir. Bundan əlavə, Beker davamlı malların tələb nəzəriyyəsinin uşaq tələbinin təhlilində faydalı bir konstruksiya olduğunu göstərməyə çalışdı. Bekerə görə, nəsilvermə faydalı funksiya çərçivəsində ayrıca yoxlanılan uşaqların sayı və keyfiyyəti arasındakı qarşılıqlı əlaqə ilə müəyyən edilir. Bekerin təhlilində əsas xüsusiyyət ondan ibarətdir ki, uşaqların keyfiyyəti yüksəldikcə uşaqların sayına görə marjinal dəyərinin (yəni, keyfiyyət sabit saxlandıqda əlavə uşağın qiyməti) artması və uşaq sayı artdıqca keyfiyyətə görə

uşaqların marjinal dəyərinin (uşaqların sayı sabit saxlandıqda keyfiyyətdə bir vahid artımın dəyəri) artmasıdır [12]. Doğum qərarı, qadının əmək haqqı və ailə gəliri ilə müəyyən edilir ki, bu da zaman xərclərini və böyüdülmüş uşağın potensial faydasını nəzərə almaqla verilir. Qadınların işçi qüvvəsində fəal iştirakı, yəni onların insan kapitalının inkişafı uşaqların doğulduğu andan yetkinlik yaşına çatana qədər göstərilən xidmətin vaxt xərclərini və xüsusən də dəyərini artırır. Əlavə uşağın yükü artır və buna görə də əlavə uşaq sahibi olmaq istəyi azalır. Bundan əlavə, ananın vaxt dəyərinin artması onu əmək bazarında intensiv iştirak etməyə sövq edir. Bu inkişaf nəticəsində ailədə yeni uşağın doğulmasının azaldılması lehinə ananın əmək qüvvəsində iştirak etməsi qərara alınır [7, s.6]. Neoklassik quruluşda qadınların əmək haqqı uşağa baxmaq üçün ayrılan vaxtın alternativ dəyərini ölçür. Əmək haqqının artması neqativ nəsilvermə effekti yaradır və uşaq sahibi olmaq üçün alternativ dəyəri artırır [13,s 213].

